

Mən  də bəndənəm
Adicə bəndən, İlahi!
Gözlərim göylərdə
Axtarır Səni
Hardasa, nədəsə
Səhv etmiş olsam,
Bağışla, bağışla məni.

Qəşəm Çıraqlı

# ƏSƏRLƏRİ

## II

## CİLD

«İDEAL-PRİNT»
BAKI – 2011

**Redaktoru:**
**Firuzə Məmmədli**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

**Qəşəm Çıraqlı** "Əsərləri" II cild
Ç51 **"Bakı"**
**İDEAL-PRİNT,** 2011, 410 səh

Ç $\frac{4702060200}{122}$

© Qəşəm Çıraqlı, 2011

Şeirdən-şeirə ucalıram mən,
Kitabdan-kitaba qocalıram mən.
Ömrü uzatmağa ulu Tanrıdan
Ayları, illəri borc alıram mən.

## İNAM NƏFƏSLİ ŞERLƏR

Azərbaycan Yazıçılar Birliyinin üzvü Qəşəm Çıraqlı ali təhsilli mühəndisdir. Lakin söz adamıdır; sözlə yaşayır. Nə özünü, nə başqalarını aldatmadan, hamıya inana-inana yaşayır. Bu inam həm yeni kitabının adından, həm do şerlərinin ümumi mündəricəsindən hiss olunmaqdadır. Sözə məsuliyyətlə yanaşır. Qala hörür şair. Söz qalası - könül saraylan. Kərpicləri diqqətlə, tələsmədən düzə-düzə. Bu da bir zəhmətdi. Özü də buna görə nə «ön söz», nə də «son söz» istəmirəm, - deyir. Axı doğrudan da söz üçün keçmiş və gələcək məfhumu yoxdur. Söz həmişə var, söz əbədidir, qalasıdır. Bizdən əvvəl də söz olub, bizdən sonra da söz olacaq. Qəşəm Çıraqlı şeirlərilə 80-ci illərdən tanışam. Qəribədir, bu illər uzunu da, elə onun indiyədək nəşr olunan kitablarını da vərəqləyə-vərəqləyə düşünmüşəm, bir fıkir məni rahat buraxmayıb: Həqiqət və ədalət! Kaş bu dünyanın andı olaydı: Həqiqət və ədalət! Düzdür, şerlərdə bu duyğu da, bu inam da sadəlövhcəsinə, xəyali bir istəklə ifadə olunub, az qala. Amma, nə bilim, axı belə bir deyim də var: Hər gecənin bir gündüzü var.

Şeirlərin mövzusu da, qayəsi də ən çoxu ibrətlə, hikmətlə bağlanır. Hakimanə ibrətlə. Odur ki, bu arzu, bu istəklər, hamının qəlbində düyünlənən nisgillərlə,

həvəs və niyyətlərlə səslənir. «Buz heykəllər» şeirində bir zamanlar məhəbbətlə qoyulan heykəllərin nifrətlə yıxılması bir tərəfdən tarixi reallığı əks edirsə, digər bir tərəfdən də saxtakarlığın, ikiüzlülüyün, nəhayət yaltaqlıq kimi iyrənc xarakterlərin acı, ibrətamiz faktı kimi qəbul edilməlidir.

Millətə o «məddahlıq nəğmələrini xorla və zorla oxudanlar» bu gün əvvəlkindən də məkrli sifətlərilə meydana çıxır:

Torpağı işğal olan millətin,
Ev-eşiyi talan olan millətin
Namxuda və maşallah!
Məddahlıq şərqiləri oxumağa
Gur səsi,
Həvəsi varmış.
Qaçqınlı, köçkünlü
Dəstəsi varmış…

Şair bəzən özünəməxsus şer demək üslubu, ahəngi tapır; birdən-birə sözlərdən ritm, musiqi yaranır. «Keçirdim» şerində də belə qoşalıqlara - qoşa səsə, izə, qoşa gedilən yola, birgə fərəhə, birgə çəkilen dərdə… aid misralar vardır:

Onda bir sən idln, bir mən idim,
Bir-birimizə vurğun idik.
Heyran idik -
Yolu qoşa gedirdik
Xoşbəxtliyi, sevinci
Şərbət kimi, bal kimi
İçirdik
Xoşbəxt, xoşbəxt
Yolu qoşa gedirdik

Qəlbdən də, gözdən də gilə-gilə həsrət süzür, xoşbəxt illərin bir vaxt varlığı şer boyu təkrarlanan «qoşa - qoşa», «sən də, mən də», «bir sən, bir mən» nidalan yaddaşa da, xatirələrə də od salır.

Sən də dərdli,
Mən də dərdli.
Dərd əlindən dərdə düşdük
Qaçdıq köhnə dərdimizdən
Yeni dərdlə görüşdük.

Hər misrada rastlaşdığımız «dərd» sözü də özünün bütün məna çalarında işlənsə də, yenə dərd yükünü yada salır. Bilirsən ki, bu söz özü belə yalmz qayğınm, nisgilin, həsrətin-hicramn ağırlığıyla yüklənib.

Şerlər arasında şirin, təbəssüm qədər könülaçan kövrək nümunələrə də rast gəlmək olur:

Uzaqda dursan da yenə
Düşmüşəm cazibənə
Əriyirəm
Gün vuran buz kimi
Əriyirəm
Suya düşmüş
Şəkər kimi,
Duz kimi.

Şair xoş mənzərələri də rəng-rəng təsvir edir, nəğmə-nəğmə tərənmim edib qanadlandırır; Vətən baharı cənnət təsviriymiş sanki:

Nazlanan qönçələr
Yarpaqla yaşınır.
Dolmuş bahar buludları
Arabir
Gül-çiçək üstə
Bir şabaş kimi
Yağış tökür,
Yağış səpir.

Bu təbiətdir. Hər zaman öz əzəli gözəlliyində olan təbiət:

Bu güllər, çiçəklər
utanır nədir?
Gecə jalələrə
Gündüz şəfəqlərə
Bürünür...

Şerlərdəki «nazlanan qönçələr», «bahar buludları», «yaşınmaq», «jalələr», «şəfəqlər»... şeiriyyət yaradan bu sözlər yəqin həmin mənzərəni yaradan rəssamın da əlində canlı, təbii rənglər, boyalar olacaqdı. Təbiət nə gözəldir, bahar nə gözəldir... Heyf bizdən uzaq təbiət, uzaq fəsillərdir. Xəyallarım gücünə yaratdığımız, elə buna görə də əsil bahardan gözəl və üstünüdür.

Şair bu təbiətdən götürdüyünü götürür, öz bildiyi tərzdə onu görməyə, dindirməyə çalışır, torpağa, ağaca, küləyə üz tutur:

Çəngələnmiş saçlarını
Dartıb
Küləyin əlindən alan
ağaclar
Dərindən nəfəs alır
Qorxudan
Qaçan yarpaqlar
Küncdə-bucaqda gizlənir

deyə onları seyr edir öz hissinə, duyğusuna bizi ortaq etməyə çalışır.

Həm də bu təbiət - peyzaj lal fon kimi verilməyib,

burada həyatda hələ heç kimin eşitmədiyi nazlanan qönçələrin səsini eşidirsən, gözləri şehlə dolan çiçəklərin ağırlığını duyursan. Bu misralar həm də gözlərimizdən - qulaqlarımızdan uşaqlıq illərimiz qədər uzaq olan dağların - bağların ətrini gətirir bir anda.

Bu xatirələr oyadan ab-hava həm bayram ovqatı, qəlb rahatlığı gətirən, həm də insanın öz ruhi aləmi kimi dəyişkəndir.

Təbiətdəki harmoniya və gözəllik, saflıq eyni zamanda şirinlik, yaxınlıq şair üçün dünyanı gözəl görməyə, gözəlləşdirməyə bir vasitə olur.

Qar yağır
Ağır-ağır
Başına, qaşına qonur
Üzündən-gözündən öpür
Yanaqların allanır
Saçların çiçəkləyir
Qar - məni bilmirəm
Səni gözəlləşdirir.

Həyat fəlsəfəsinə aludə olmaq, onun dərinliyinə enə bildiyin qədər də enmək şairi də, oxucunu da kövrək və düşüncəli edirmiş; lirik kədər ovqatı təbiət kimi dünyanın da fəsillərə - sona doğru dəyişməsini duyumdan yaranıb güclənir.

Heç-heçə qurtardım
Bu günkü günü.
Kimlər nə qazandı,
Kımlər nə yazdı
- Deyə bilmirəm.
Tale belə verib
Bəlkə hökmünü
Əlimdəki vərəq
Ağappaq qaldı.

Qəlb toxdaqlıq istəyir. İnsan belə olanda bu dünyada söykənməyə dağı, dərdləşməyə çayı, bulaqları səsləyər... Həmdəm soraqlar. İnsan əslində «A dağlar...» deyib ürəkdolusu hönkürmək istər.

...Qəşəm Çıraqlının «Mən hamıya inamram» kitabında toplanan şerlər insana axtardığı qəlb rahatlığını verməyə, bu qəlbə səbr, dözüm bexş etməyə də qadirdir.

**Minaxanım TƏHLƏLİ**
*Filologiya elmləri doktoru,*
*professor.*

# MƏN HAMIYA İNANIRAM

# ŞEİRLƏR

Başımın üstündə Göy,
Ayağımın altında yer.
Dayanmışam,
Göylə Yer arasında.
Gözləyirəm,
Xoşbəxtlik, Səadət.
Göydənmi enəcək,
Yerdənmi çıxacaq?!
Ya qismət!

# UŞAQ QAÇIRDI

Oynaya-oynaya qaçırdı uşaq,
Qaçırdı həvəsinin dalınca.
Oynaya-oynaya qaçırdı uşaq,
Qaçırdı nənəsinin dalınca.
Oynaya-oynaya qaçırdı uşaq
Qaçırdı həvəsinin dalınca.
Həvəsi dünyaydı uşağın,
Qaçırdı uşaq, qaçırdı
Uşaq dünyasının dalıncan,
Oynaya-oynaya qaçacaq uşaq,
Uşaq dünyasından qopana kimi,
Qaçacaq, qaçacaq
Gənclik dünyasına hopana kimi.

## AZƏRBAYCAN

Azadlıqdan öncə
Əsəblər dartındı,
Əsəblər gərildi.
İgidlər bar kimi dərildi.
İgidlər baş qoydu,
budaq-budaq sərildi
yollarına,
Azərbaycan!
Azadlıqdan öncə,
Xalqın
dərdi böyüdü,
dərdi göyərdi,
Əli dərddən - dərd dərdi,
Qəzəbi coşdu,
nifrəti daşdı,
Səbri səddini aşdı,
Əli yalın oğullar
alov püskürən,
ölüm saçan,
Sovet tankları, topları ilə
Baş - başa, döş-döşə
qarşılaşdı.
Analar saç yoldu
saç sərdi yollarına,
Analar - mərd analar
qürurla yas saxladı

şəhid oğullarına,
Azərbaycan!
Azadlıq
yaralanmış,
paralanmış,
Ayaqlar, əllər, qollar üstündən,
Qanla sulanmış yollar üstündən,
Qərənfilə dolaşmış,
qana bulaşmış,
saçlar üstündən,
Şəhidlər xiyabanından,
Azadlıq meydanından,
keçərək var oldu,
Azərbaycan!
İgidlərin yaralı köksündon
sıyrılaraq,
Alovları, odları yararaq,
tankları, topları sarsıdaraq,
Qalxdı, ucaltdı aylı, ulduzlu,
üç rəngli müqəddəs Bayraq,
Gözün aydın, Azərbaycan!

## KÖLGƏLƏR

"Gülüstan", "Türkmənçay"
döndü kölgəyə,
Kölgənin kölgəsi
araya düşdü.
Kölgənin kölgəsi
Araza düşdü.
Kölgələr Arazı
cəsəd elədi,
Kölgələr Arazı
sərhəd elədi.
İki kölgə bir bədəni bölüşdü,
Baş şimala,
bədən cənuba düşdü.
Kölgəmiz də yad kölgədə doğuldu,
Kölgədə kölgəmiz gorünməz oldıı.
Köləliyin kölgəsində böyüdük,
Köləliyin kölgəsində döyündük,
Köləliyin kölgəsində göründük.
Nə verdilər deyindik,
Nə aldılar öyündük.
İndi-indi
yaz nəfəsli gün gəldi,
düşdü Vətənə işıq.
İndi Nərgiz gülü tək
Köləliyin kölgəsini
dəlib üzə çıxmışıq.

İndi-indi azadlığımız
dönüb Əhləd daşına.
Düşüb köləliyin əzəl kölgəsi
"Gülüstan"ın başına,
"Türkmənçay"ın başına.
Düşüb bir bədəni bölüşdürən,
Gecə-gündüz kölgəmizə hürən,
Hikkələrin, iştahların başına.
Allaha şükür deməliyik biz
Bu gün ilahi kölgəmiz.
Dönüb şah Xətai qılmcma,
Sancılıb köləliyin kölgəsinə.
Allaha şükür deməliyik biz
Bu gün ilahi kölgəmiz
köləliyin kölgəsi üstə
qaldırıb üç rəngli
Hünər, qeyrət bayrağını.
Zəfər, şöhrət bayrağını.
Sancıb kölgəmizdə kölgələnən,
köləliyin təpəsinə,
Qalxıb AZADLIĞIN zirvəsinə.

## VƏTƏN

Sənin ətəyin - Tanrı ətəyi,
Müqəddəsdir, genişdir,
böyükdür, VƏTƏN!
Bərəkətli, Varlı süfrəndən
İştahla yeyənlər çoxdur.
Ətəyından, əlindən
öpənlər çoxdur.
Əsrlər boyu,
Səni qoruya-qoruya
Şinənə baş qoyub
Ölənlər çoxdur.
Sənin işığına
Pərvanələr tək
Uçub
Qərbdən, Şərqdən,-
Dünyanın hər yerindən
Gələnlər çoxdur.
Sən'm ətəyin - Tanrı ətəyi,
Müqəddəsdir, genişdir,
Böyükdür, VƏTƏN!
Hələ çoxdor ətəylndə
namaz qılanlar,
Namaz qila-qıla
Zərbə vuranfar.
Çörəyini yeyib, suyunu içib,
Badalaq vuranlar,

Tələ quranlar.
Fırtınalar,
Tufanlar qoynunda
Üzən “Nuhun gəmisi” Sənsən,
Əsrlər boyu fırtınalara,
Tufanlara sinə gərmisən.
Ömrümüzə, taleyimizə
gəlmisən, –
VƏTƏN olmusan.
Sən bizə ulu Tanrıdan,
Babamız Nuhdan
Miras qalmısan, –
VƏTƏN!

# VƏTƏNƏ DƏYİR

İlahi, bu necə dovrandı?
Necə zamandı?!
Düşüncənin, zəkanın,
Vətənin, vətəndaşlann
halı yamandı.
öldürən də insandı,
ölən də insandı
Tökülən, axıdılan
nahaq qandı,
İlahi , bu necə dövrandı,
Necə zamandı?!
yetiş dada, amandi.
Düşmən üstümüzə od tökür,
güllə ələyir,
Vətən şəhid doğur,
Vətən şəhid bələyir.
Sixıb köksünə
şəhid övladlarını,
Vətən gecə-gündüz
"Övlad" deyə mələyir.
Vətən şəhid doğur,
Vətən şəhid bələyir.
Kim-kimə qəsd edir
Kim-kimdən qisas alır,
Vətən çörəyfni yeyərək
Qoltuqlarda, kölgələrdə dolanır,

Vətən qısır qalır,
Vətən dul qalır.
Cərgələnmiş şəhid qəbirlərinə
Vətən həm qürurla baxır,
həm ağrı ilə,
Məğrur başın
Şəhid oğullann, qızlann
Şəhid rnəzarlanna əyir.
Sinəsində dərd göyərir,
çox ağlayır, çox göynəyir.
Axı o nə edə bilər?
Xaricdən, daxildən
Açılan güllələr,
vurulan zərbələr
öncə igidlərə dəyir,
öncə Vətənə dəyir.

*1994*

# ŞƏHİD ŞƏHƏRİM – XOCALI
(Ağı)

*Layla, Xocalım, layla!*
*Zəlimxan Yagub*

Türkün odası,
Yurdu-yuvası,
Şəhidlər anası
Şəhid Şəhərim -
Xocalım, vay-vay!
Xocalım, lay-lay!

Edam olunmuş,
Qanda uyumuş,
Şəhid torpağın
Şəhid balası -
Xocalım, vay-vay!
Xocalım, lay-lay!

Sən - talanan,
Odlarda yanan,
Yerli-dibli
Məhv olan
Şəhid şəhərim -
Xocalım, vay-vay!
Xocalım, lay-lay!

* * *

Türk dünyası,
Türk odası-
Yurdu-yuvası,
Şəhidlər anası,
Şəhid şəhərim -
Xocalım, vay-vay!
Xocalım, lay-lay!

*2002*

*1990-cı il 20 Yanvar, Xocalı, Şuşa*
*və metro faciələrində həlak olanlara*
*Allah rəhmət eləsin.*

## AĞLAMA, ANAM, AĞLAMA

Bəs bu yas nə yasdı axı?
Eli matəm basdı axı.
Bu yas sevinc dünyamızı
Saçlarımdan asdı axı,
Ağlama, anam ağlama,
Qırılar inam, ağlama.

Dözümlü xalqıq biz elə,
Hər kədərə dözdük belə, -
Ölümümüz - gülə-gülə,
Gülüşümüz - ölə-ölə,-
Ağlama, anam ağlama,
Qırılar inam, ağlama.

Həyat varsa, dərd də var,
Yas yeri bir, iki olar.
Bir ölkəlik yasmı olar?
Bu matəmi saxlamağa,
Geyməyə libasmı olar?
Ağlama, anam ağlama,
Qırılar inam, ağlarna.

Yanvar qara yaslanmamış,
Şuşa oda yanan oldu.
Xocalıya qırğın düşdü,
Laçın eli talan oldu.
Ağlama, anam ağlama,
Qırılar inam, ağlama.

Hardan tutdu bizi qarğış?
Qana qaltan olduq bu qış.
Hələ Yanvar ağlanmamış -
Metroda oldu partlayış,
Ağlama, anam ağlama,
Qırılar inam, ağlama.

Bəs bu yas nə yasdı axı?
Eli matəm basdı axı.
Bu yas sevinc dünyamızı
Saçlarından asdı axı,
Ağlama, anam ağlama,
Qırılar inam, ağlama.

## MEYDAN SƏNİNDİ

Ana Vətən ağrı çəkir, ağrıyır,
Ağrılardan doğulubdu igidi.
Obaların imdad deyo çağırır,
Haydı, Vətən oğlu meydan səninddi.

Bu torpağın tufanları qəzəbin,
Bu dağlarm ildırımı kinindi;
Həzilərin tanklarıdı gözləyən,
Haydı, Vətən oğlu, meydan səninddi.

Ermənilər zərbə vurub Vətənə,
Öz qanmda çimən vaxtı indidi,
Torpağında qaçqın olub millətin
Haydı, Vətən oğlu, meydan səninddi.

Qan qoxuyur bu torpağın yarası,
Yaraları üzdə deyil dərindi,
Bu torpağın belə ağır günündə,
Haydı, Vətən oğlu, meydan səninddi.

Bu torpağın paklığını qoruyan,
Şir ürəkli oğullar da Vətəndi.
Sən qələbə çalmalısan düşmənə,
Haydı, Vətən oğlu, meydan səninddi.

# SƏBRİMIZ DƏ TUKƏNIR

Hələ nəsə gözləyirik ömürdən,
Yüyənlənmiş, yəhərlənmiş səbirdən,
Yol gedirik, çarıq geyib dəmirdən,
Yol uzaqdır, çanğımız yırtılıb,
Bu yollarda səbrimiz də tükənib.
Ürəkləri qəzəb üstə kökləyək,
Əsəbləri nifrət ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

Haray desəm harayıma, silahlan,
Əl uzandı torpağıma, silahlan,
Pənah gətir bayrağıma, silahlan,
Ürəkləri qəzəb üstdə kökləyək,
Əsəbləri nifrot ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

Laqeydlik qeyrətləri yatırıb,
Fitnə-fəsad ortalığa atılıb,
Yerlibazlıq dərdimizi artırıb,
Tamahgirlər pul-paraya satılıb.
Yol uzaqdır, çarığımız yırtılıb.
Ürəkləri qəzəb üstə kökləyək,
Əsəbləri nifrət ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

Elə bildik qayğımıza qalan var,
Düşmən çıxdı bizə "qardaş olanlar",
İndi bildik çox dostluqda yalan var.
Elimizdə, evimizdə talan var,
Məni-səndən, səni-məndən alan var,
Ürəkləri qəzəb üstə kökləyək,
Əsəbləri nifrət ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

## AZƏRBAYCANLILAR SƏBRLİ OLAQMI?

Ehey!..
Sevincimiz,
    güvəncimiz,
        mərd, mətin
vətən övladları,
Ölkənrn "xoşbəxt" adamları,
Səbrli olun,
Dözümlü olun!
Səbirliliyə.dözümlülüyə
Yol gedirik hələ.
Ehey!..
Batmağa bataqlıq göstərən,
Yatmaga yastıq verən
Diktafon yoldaşlar,
Səsləri gur çıxan
Saksafon cənablar, qardaşlar,
Bəsdirin daha,
Batdınız günaha,
Çəkilin qınınıza.
Düz on ildir
Səbr yedizdirirsiniz,
Düz on ildir
Səbr əmizdirirsiniz
Bu xalqa.
Daha yemək olmur,
Daha əmmək olmur
Daha dözmək olmur, cənablar,
Daha dözmək olmur;

Vətən düşmən əlində
Dözümlü olmaqla,
Səbrli olmaqla
Batmışıq günaha,
Xoş getməz Allaha.
Səbr - ətalətdir,
Səbr - səfalətdir,
Səbr - fəlakətdir.
Daha səbrli olmaq
Boğazda ilmək deməkdir,
Daha həyat yox,-
Ölmək deməkdir.
On ildir səbr edirik,
On ildir Fələstin yolu gedirik,
"Böyük sülhə" bel bağladıq,
atəşkəsi qoruduq, saxladıq.
Çadırlarda öldük, dirildik,
Axır bu gün dərk etdik:
Qarabag sülhlə alınan deyil.
Qeyrət - vətəndaşlar!
Namus, qardaştarl
İntiqamla, qəzəblə ayağa durun!
Səbri qılınc kimi
Qından sıyırın,
Düşməni qılınclayın, qırın!
İldırıma çevrilin!
Düşməni başından vurun,-
Əzin başını ilanın!
Qeyrətinizə güvənin,
Qeyrətinizə inanın!

# KÖKÜMÜZ, KÖTÜYÜMÜZ

Mən sənə borcluyam, ay elim, obam,
Sizə qurban olum, kənd camaatı.
Kökünüz üstündə göyərmişəm mən,
Kökünüz üstündə tapdım həyatı,

Hər ev, hər ailə bir universitetdir,
Akademiyadır kəndlərimiz də.
Böyük alimləri - nənə-babalar,
Nənə, bəbalardır dərs deyən bizdə.

Kənddən getməyimə peşman olmuşam,
İtibdir ağzımın dadı, duzu da.
Körpə günlərimi kənddə qoymuşam,-
Qalıbdır naxırda, qoyunda, quzuda,

Kənddən getməyimə peşman olmuşam,
Təmizlik, sadəlik, düzlük ordadır.
Arxivdir, tarixdir bizim o kəndlər,
Arxiv daşındandır, torpağındandır.

Murov alqışlayır kəndə gələni,
Gedənin dalınca Tərtər su atır.
Şıltaqlıq, dəlilik etsə də bu çay,
Əkində kəndlinin hayına çatır.

Ana Kür anadır, - analıq deyil,
Qoynuna aldığı çaylara bir bax.
Kürün əzəmətini görrnək istəsən,
Gəl Mingəçevirə, Boz daga qalx.

# SEVİN Kİ, VARSAN

Bu işıqlı dünyanın,
Yaraşıqlı dünyanın
İşığından, yaraşığından
Dövlətindən, varından
Kiminə çox düşür,
Kiminə az düşür.
Kiminin ömrünə sərt qış,
Kiminin ömrünə yaz düşür.
Bədbin olma,
Dərd yemə.
Taleinə kəm demə.
Axı bu dünyanın
Səhəri var,
Günəşi var.
Sevin ki, sən də varsan.
Səhərdən, günəşdən
Sənə pay düşür,
Ömrün, varlığın car olur,
Hər gün var olur.
- Hər gün
Səhərlə, Günəşlə görüşür.

*2004*

## DƏYƏRMI

Həyat yoldu - keçildi,
Ömür - sudu - içildi,
Uzun yolu kiçildi -,
Yaşamağa dəyərmi?

Sapı sapa düz, yeri,
Sapı sapdan üz, yeri,
Heç qoymadın üz yeri - ,
Yaşamağa dəyərmi?

Düz oturub düz danış,
Çarpış, vuruş, - yan, alış,
Ümid yeri qalmamış -,
Yaşamağa dəyərmi?

Çətin yolu nər gedər,
Sərt döyüşə ər gedər,
Uddun, uduzdun yetər,
Yaşamağa dəyərmi?

*2004*

# İNSAN

İnsan
Ağlı kəsən gündən
Aydan, ildən
Ömrünün işığında,
Həyatın yar-yaraşığmda
Dünyanı dərk edir.

Dinə, imana gəlir.
Əqidəyə, amala doğru
Yol gedir.
Pis, yaxşı – insan nə edir özünə edir.

*2003*

## BƏSLƏYİRƏM

Körpəlikdən
Körpə dərdi
Bəsləyirəm.
Ata bilib, ana bilib
Səsləyirəm.
Çalışıram
Çəp işi, çətin işi
Düzəm, qoşam.
Düz işi də
Düz yerindən
Əyirəm..
Qardaş bilib,
Bacı bilib,
Qardaş deyib,
Bacı deyib
Körpəlikdən
Körpə dərdi
bəsləyirəm.

*2004*

# TANRI HƏR ŞEYİ BİLİR

Sən
Narahat olma,
Deyinmə hətta.
Bacarırsan,
Özünə - özgə gözlərilə
kənardan bax... və
"Yaxşı ki, Tanrı dəvəyə
qanad verməyib" ifadəsini
yada sal...
Vallah,
Tanrı çox gözəl bilir,
Kimə
Necə və nə cür
Don biçir.
Kimə necə və nə cür
Yol seçir, -
Kimə necə və nə cür
Qanad verir.

*2003*

# PAYIZDA

Çəngələnmiş
Saçlarını
Dartıb
küləyin əlindən
alan ağaclar,
dərindən nəfəs alır.
Qorxudan
Qaçan yarpaqlar,
küncdə, bucaqda
gizlənir.
küləkdən hürkən qum dənələri-
dürtülür,
Küncdə, bucaqda
gizlənmiş
yarpaqların qoltuğuna.
Badalaqla yıxır,
Qəzəblənmiş küləyi
çiyin-çiyinə dayanmış
şəhər binaları.
Torpaq
toplayıb ovcuna
Yağış damcılarını-
çəkir başma,
yuyunur.

*2004*

## QOCA

Haraya gedirsən, qoca,
Haradan gəlirsən, qoca.
Haraya gedən ayaq izlərin,
Haraydan gələn ayaq izlərin
Harayçılıqda yolları yordu.
Dünyaya gəldiyin gündən,
Özünü tanıyıb, bildiyin gündən
Dərinliklərə, çətinliklərə
Baş vurdun, əl atdın,
Səsinlə, sözünlə, izinlə
tarix yaratdın.
İndi sözün kəsərdən düşüb,
İndi səsin uzağa çatmır.
İndi izlərin yollara düşmür,
İndi izlərin yolları yormur.
İndi yolların tükənib artıq.
Dünyanın dərd yükünü,
Dünyanın mərd yükünü,
Hünərlə, cəsarətlə
Alıb çiyinlərinə
kənd-kənd, şəhər-şəhər
Gəzdirən dizlərin, əllərin
Durduğun yerdə titrəyir-
Dözümsüz, təpərsiz olub.
İndi yolların dalana düşüb,
İndi izlərin dalanda qalıb.

Titrəyən əllərin, uçunan dizlərin
Solğun gözlərin imdad diləyir,
Kömək gözləyir darda qalan,
Yağılarda qalan, dığalarda qalan
Qarabağ kimi.
Öz-özünə inləyirsən,
            züm-zümə edirsən:
Apardı günlər ömrümü,
Apardı illər ömrümü.
Uzadın, uzadın, ellər, ömrümü.
Əl-ələ verib, silahlanaq,
Alaq Qarabağı, alaq Qarabağı.

*2003*

## YARIŞ MEYDANI

Bu dünya dediyin
yarış meydanı, -
Dünyaya gəlmisən,
yarışmahsan.
Qələm götürüb,
Kağız götürüb
Elin dərdini nağıl dilində,
Şer dilində qulaqlara
danışmalısan.
Danış, yaz,
Qoy dərdlərimiz
kağızlara çöksün,
qulaqlara hopsun.
Çökdü hopdu -
Tufan qopa, ildırım çaxa
Kağızdan, qulaqdan
Qopara bilməz.
Dərdimiz çökən
Kitablar ağır,
Yer çiynində,
Göy əlində
Saxlaya bilməz.
Bu böyük dərd yükünü
Fələk də apara bilməz.
Arxivlərdən, tarixlərdən,

Yaddaşlardan
Silə bilməz, qopara bilməz.

*2003*

## BİR HİMƏ BƏNDƏM

"Qarabağ" deyəndə
Şeirim,
Göyüm,
Yerim,
Bütöv dünyam
qara geyir, ağlayır.
"Qarabağ" deyəndə
Gözlərim nəm çəkir,
Qəm əkir, kədər biçir,
Dərdi, qəmi
şərab kimi içir,-
Dəm oluram, -
Rahatlıqdan kəm oluram,
Ağrılara
Həmdəm oluram.
Gözlərim dolur,
Əsəblərim cilov bilmir,
Bir himə bənd oluram.

*2003*

# QONAQ OLDUQ

*Azərbaycan dilinin incəliklərinə*
*dərindən bələd olan mühəndis*
*İmaməliyev Mədyail Vəli oğluna ithaf*

Allaha şükür,
XXI əsrin
İlk gününü də,
İlk ilini də,
Gördük.
Bir yaş da böyüdük,
Yaşadıq
Yaşa dolduq.
XXI
əsrin də
Sakini,
Soydaşı olduq.
XXI əsrin
ilk baharına
Qədəm qoyduq.
Ayına, ilinə,
Çiçəyinə, gülünə
Qonaq olduq.
XXI əsrin təməlini,
Özül daşını biz qoyduq.
Tikənlərə, quranlara
Qoşulduq.

*2001*

## QƏLƏM

Mən bu dünyanın
Sevinciyəm, qəmiyəm, -
Dərdlərinin ahıyam.
Mən bu dünyanın-
Fərmanlar, qərarlar yazan
Padşahıyam.
Xeyir əldə
Tikərəm, qurararam,
Təqdir edərəm,
Tərif edərəm,
Əfv edərəm.
Şər əldə
Təhrif edərom,
Tənqid edərəm,
Uçurararam, dağıdaram, qırararam,
Asdıraram, kəsdirərəm, -
Məhv edərəm.

Mən qələməm, -
Cəsarətim, hikmətim, qüdrətim
Dimdiyimdədir, -
Cəzam, əfvim-
Baxır, - xeyirdəyəm, şərdəyəm
Kimin əlindəyəm.

*2002*

# HƏDƏLƏDİ

Sözlü bülbül,
Gəldi dilə,
Külok dəydi,
İpək telə.
Qızlar getdi,
Gülə-gülə:
Gülüş məni,
Hədələdi.

* * *

Xumarlanıb,
Axdı bulaq,
Sonalara
Çatdı soraq.
Ürəyimdə
Coşdıı maraq, -
Görüş məni
Hədələdi.

* * *

Yaraşmayır
Bahara qəm.
Çiçəklərə səpilər nəm,
Hirsli döndü,
Evə həmdom,
Dönüş məni
Hədələdi.

## YANIRAM, A DAĞLAR

Bu gözəl ölkənin,
Nuhdan əzəl ölkənin,
Mələk qızları da var,
Kələk qızları da var.
İpək qarıları da var,
Kəpək qarıları da var.
Köpək qarıları da var.
İlahi,
Mələk qızları,
İpək qarıları
Çox yarat barı.
Mələk qızlara,
İpək qanlara,
İgid oğullara
Ölkədə, hər evdə
Ehtiyacımız var.
Bu yandan da
Qarabağ dordi,
Dərd üstünə
Dərd gətirdi, -
Ürəyimizdə bitdi, göyərdi.
Köhnə bir mahnı var,
Ürəkdə qubar
Onu oxuyuruq:
"Yanıram, a dağlar,
Ölürəm, a dağlar".

*2002*

## HƏQIQƏTİN YOLU

Həqiqətin yolu
Dodaqdan ürəyə
qədərdir, -
Ürəkdən dodağa gəlmir.
Gəlsə, tufan qopardı.
Vicdan çəkilib
dağ başına,
Nə əl çatır,
Nə ün yetir.
Oturmur elçi daşına
Durub çox kənarda,
Haya, haraya, -
Köməyə gəlmir.

*2004*

## DUZ OLMUR

Bu gün
Düşünüb - daşmıb -
Yüz ölçüb, bir biçib
Atdığımız addım
Sabaha çıxanda
Düz olmur, niyə?
Məkan həmin,
Vətən həmin,
İnsan həmin,
Zamanı deyə bilmərəm...
Bəlkə zaman-zamanına görə,
Bəlkə zaman imkanına görə,
Yazını - yazılan kimi yox,
Bildiyi kimi,
Dərk etdiyi kimi
Düzəliş edir,
Sahmana salır,
Həqiqət yerinə düşür,
Ədalət qələbə çalır.

*2003*

## DÜZ OLMUR NİYƏ

Bu gün düz bilib
Atdığımız addım,
Sabaha çıxanda
Düz olmur, niyə?
Ürəkdə qövr edən
Həqiqətləri,
Aranı kəsən
Polad sədləri.
Bizə qəsd edən
namərdləri, -
Üz-üzə deməyə
Üz olmur, niyə?
Yaradan yaratdı bizi,
Bu dünyaya atdı bizi.
Şeytanlar aldatdı bizi,
Tanrı üstümüzdə
Göz olmur, niyə?
Sığındıq müqəddəs Qurana,
İnam, iman bağladıq ona, -
Duasına, namazma.
Duamız çin olmur, niyə?
Yaraqlanıb, silahlanıb,
Dağ yardıq, qaya çapdıq,
Dönüb geriyə baxdıq,
Yaşımız əlli olur,
Yüz olmur, niyə?

## ŞAİRLƏR ƏSİR ALINIR

Heca azarı,
Qafiyə bazarı, -
Şairləri, - yazarları
Dərdə salır,
Sehirlənmiş, şeirdə
Gizlənmiş hecalar, qafiyələr
Şairləri
Əlində qələm
Kağız üzərində əsir alır.

# GÖRÜŞDÜK

Sən də dərdli,
Mən də dərdli -
Dərd əlindən
dərdə düşdük.
Qaçdıq köhnə
dərdimizdən.
Yeni dərdimizlə -
Yeni dərdlə
görüşdük.

*2003*

# AĞIZ ƏYİRİK, DODAQ BÜZÜRÜK

Yaxşı işə də,
pis işə də,
Əyri işə,
düz işə də,
İndiyə də,
Keçmişə də
Ağız əyirik,
Dodaq büzürük.

Yer əkirik,
bağ salırıq,
Bar dəririk,
Al geyirik,
Şal geyirik,
deyinirik, -
Ağız əyirik,
Dodaq büzürük.

Gör nə haldayıq,
Ha gedirik, daldayıq.
Qiybət qıran,
ara vuran
Dildəyik, dodaqdayıq,
Belə işlərdə

çox qabaqdayıq.
Öncül olana da,
dalda qalana da,
Doğruya da,
Yalana da
Ağız əyirik,
Dodaq büzürük.

*2004*

## TƏZAD

Həyat tozadlarla doludu,
İnsan təzadların quludu.

* * *

Bu dünyanm
dərdi çoxdur,
Tam xoşbəxt
olan yoxdur.
Bax o insana,
Gör necə gülür,
Görkəmindən
bəxtəvərlik yağır.
Amma, di gəl ki,
Gözlorindən
kədər püskürür.

*2004*

# DURULUB DÜNYA

İlahinin alqışından keçərək,
Sayılıb, seçilib, qurulub dünya.
Əsrləri qurtum, qurtum içərək,
Barınıb, yarınıb, durulub dünya.

## TÜRKÜN KÖLGƏSI

Üstündə qeyrət kölgəsi,
Səsində qəzəb hikkəsi,
At üstündə
Şığıdı ildırım təki
Qərbdən - şərqə,
Şərqdən - qərbə -
Türkün kölgəsi.
Çox kölgələr
Kölgəsində kölgələndi,
Çox kölgələr
Kölgəsinə əyildi.
Kölgələr toplanıb
Səcdəyə gəldi,
Türkün kölgəsində
Qorundu, bəlgələndi.
Türkün kölgəsi
Əsirləri yordu belə;
Qərbdə, Şərqdə
İmperiyalar qurdu belə,
Usanmadı, yorulmadı.
At üstdə doğuldu Türk,
At üstdə döyüşdü,
At üstə də öldü Türk.
Elə ki, atdan düşdü -
Cəsarətdən düşdü Türk,
Qeyrətdən düşdü Türk.

Əvvəl atın itirdi,
Sonra
Şöhrətini, admı itirdi.
Kölgələr -
Kölgəsində kölgələnmədi,
Kölgələr səcdəsinə gəlmədi,
Kölgələr - kölgəsinə əyilmodi.
İtdi üstündəki qeyrət kölgəsi,
Öldü cəsarəti,
Düşdü kəsərdən TÜRK səsi.
Yurd-yuvasını itirdi,
El-obasını itirdi.
Döndü
Qaçqına, köçkünə.
Qayıt özünə,
Qayıt kölgənə,
Türkün səsi,
Türkün ölkəsi
Türkün nəvəsi...

*1993*

## KOROĞLULAR YURDU

Koroğlular yurdu
Vətənimizdə
Ata yaraşıq
İgidlər çoxdur.
İgidlər var
Atı yoxdur.
Dar gündə, dar ayaqda
İgidləri at üstünə
Ayaqların dayağı
Üzəngi qaldırır,
Çalınan cəngi qaldırır.
Vaxtdır, zamandır,
Çalınsın cəngi
Toplansın igidlər
Bir Koroğlu başına -
Nifrət əkilsin,
Nərə çəkilsin,
Cəngi çalınsın, -
Sinədağımız,
Qarabağımız yağılardan
Gcri alınsın!..

*2003*

## GÜNƏŞ KİMİ

Yaradıcı insanlar da
Günəş kimidir.
İşığından, istisindən
Bərabər miqdarda
Hamıya pay düşür.

## UZAQDAYAM

Uşaqlıq dünyasından
çox uzaqdayam.
Əl çatmaz, ün yetməz
bu aləmə.
Gələn-gələr,
Gedən-getməz
bu aləmə.

## İLAHI

İlahi heç kimi
Sən gözdən salma.
Alanda canını al,
Ağlını alma.

## QOCALANDA

Qocalanda
Dərdlər insanın üstünə
Sel kimi gəlir,
Tufan kimi yeriyir.
Qaya kimi
İnsanı yerindən oynadır,
Ağac kimi
İnsanı kökündən qoparır.
Böyrü üstə yıxır,
Üzü üstə torpağa sərir.
Ömrü
Həyat ağacından
Bar kimi dərir.

*2003*

## SƏHVİMİZ - İNSANLIĞIMIZDIR

Əvvəldən səhv edib,
Dünyaya gəldik.
Tanrı ömür verdi,
Səhvi düzəltmədik.
Ömrü qara pul kimi
Sağa-sola xərclədik,-
Səhvlərin üstünə
Günah gətirdik
Günahı ömrə əkib,
Günahkar etdik;
Adəmə, Həvvaya döndük.
Baba Adəm, nənə Həvva,
Günah iş tutdular, -
Cənnətdən qovuldular.
Mələklikdən çıxıb,
Adi insan oldular.
Göylərə vida deyib,
Yer üzündə qaldılar.
Bizi oda saldılar.
Səhvimiz - insanlığımızdır,
İnsanlığımız - günahımızdır.

*2004*

# NƏNƏM NAĞIL DEYƏRDİ

Nənəm nağıl deyərdi...
Nağıl köhnə, nağıl ulu,
Həm maraqlı, həm də qorxulu.
Nənəm nağıl deyərdi,
"Asta-asta, bala-bala,"
Biz də qorxa-qorxa,
Həm də maraqla,
Qulaq asardıq,
Həqiqət kimi baxardıq,
Nənəm deyən nağıla.
Deyərdi: -
Yeddi başlı əjdahalardan,
Təpəgöz divlərdən,
Buynuzlu, yepyekə ilanlardan,
Daha nələrdən, nələrdən...
Deyərdi el suyunun
qabağmı kəsən,
Suları soran
Əjdahalardan, ilanlardan.
Təpəgöz divlərdən qisas alan
Cəsur, igid oğlanlardan...
Nənəm deyərdi, - keçmişdə varmış
Nohəng, tüklü, buynuzlu,
Neçə başlı, ağızlı,
Qara, qorxunc əjdahalar, ilanlar.
El suyunun qabağmı

Tamam kəsərmiş onlar.
Hər gün tələb edərmiş
Təzə, cavan qurbanlar.
Qurban getməyən günü,
Əjdaha suyu tamam sorarmış,
El-obam susuz qoyarmış.
Sən demə, elə bizim dövrdə də
Belə, suları kəsən, soran,
Kənd-kəsəyi susuz qoyan,
Zəmiləri qurudan,
Reyal-daşnaq-yanlar,
Bu millətçi ilanlar,
Əjdahalardan da, divlərdən də
Betər imiş, bunlar.
Sən demə dövrümüzdə
İlandan pis, ilandan yaman,
Əsli-üslü daşnaq olan
Ermənilər, dığalar var.
Onlar kəsiblər Sərsənkdə
Tərtər çayını,
Divdən, əjdahadan betər, -
Susuz qalıb üç bölgə, -
Ağdam, Bərdə, bir Tərtər.
Susuz qalıb zəmilor, tarlalar,
Susuz yanıb quruyub, barı üstündə
meyvəli bağlar.
Hələ davam edir
Qarabağ davası,
Zəhərə dönüb havası.

Sən demə nağıllarda divlər, əjdahalar
Heç əfsanə deyilmiş,
Bir əfsanəyə dönmüş o keçmiş.
Əslində elə həqiqət imiş,
Xalq - xalqın düşməninə
Gah qorxunc əjdaha, ilan,
Gah da təpəgöz div demiş…
Bu qara qüvvələri
Buynuzlu əjdaha, yeddibaşlı ilan,
Təpəgöz divlər kimi lənətləmiş,
Bu qara qüvvələr bizim dövrə
Daşnaq sifətində gəlmiş,
Əslən erməni imiş.
Dilinin altına millətçilik zəhəri
Qoyub yazıçı Balayan,
Vazgen keşiş
Əsil ilan, div, əjdaha
bunlar imiş.
Nağıllar əfsanə,
Nağıllar yalan imiş.

## SÖZ TOPLAYIRAM

Kitaba söz yığıram,
Toplayıram,
Ətək-ətək,
Çələng-çələng.
Kitablarım böyüyür
Fikirlərim tək.

## NOVRUZDA

Açdım qapımı, pəncərəmi
İlk baharın üzünə,
Bu gün qonaq oldum
Mən Baharın özünə.

# YER - YERDƏ TANRIDIR

Tanrı - Tanrıdır,-
Tanrı hardadır,- bilmirik.
Tanrı yeri yaradıb,
Oturub öz Dərgahında.
Yer də - yerdə Tanrıdır;
Tanrı yaratmayanları
Yer - yerdə yaradır.
Bəlkə Tanrı elə
Yer özüdür bilmirik.
"Tanrı Göydədir," deyib,
Göydə Tanrı gəzirik.
Yer Tanrını Yerdə qoyub,
Göydə Tanrı axtarırıq.
Tanrı Torpağa Tanrılıq verib,
Bərəkətini, varını aşırıb-daşırıb.
Həyatı yaşatmağı da,
Dolandırmağı da
Tanrı Torpağa tapşırıb.

*2003*

# MURAD QUŞU VARMIŞ SƏNİN ÖMRÜNDƏ

*Öz səadətini tapan,*
*lakin qədrini bilməyən qadına*

Murad quşu varmış sənin ömründə,
Bilmədin taleli doğulduğunu.
Səadət, xoşbəxtlik oldu əlində,
Görmədin müflislik nə olduğunu.

Xoşbəxtlik dolaşdı ayaqlarına,
Səadət tac kimi qondu başına.
Sən layiq deyildin böyük sevgiyə,
Təsadüf gətirdi, çıxdı qarşına.

Bəxtəvər günlərə qarışdı başın,
Dərdlinin dərdinə dərman olmadın.
Əhlikef günlərin kefi - sirdaşın -
Keflər də əbədi olmur, ey qadın.

Bəxtəvər günlərə qarışdı başın,
Can verən olmadın, can alan oldun.
Əhlikef günlərin kefi - sirdaşın,
Firavan günləri yordım, ey qadın.

Çox şükür demədin Səadətinə, -
Dişiydin, qəflətən çıxdı - buynuzun.
Heç məhəl qoymadm el adətinə,
Oldu ayaqların yorğandan uzun.

Səadət, xoşbəxtlik murad quşudur.
Hər zaman insanın başına qonmur.
Ürəklə sevginin keşiyində dur,
Silahla, yaraqla sevgi qorunmur.

# İNSAN

İnsan - insan
olduğu üçün,
İnsan - insan
doğulduğu üçün
İnsana da aldanır,
Şeytana da aldanır.
İlahi, insanı
şeytandan qoru,
Şeytana dönmüş
İnsandan qoru.
İtdən, qurddan
qaçmaq olar.
Alovdan, oddan
qaçmaq olar.
Qaçmaq olmaz
Şeytanlar törədən
Fitnə - fəsaddan.
İlahi, insanı
Şeytandan qoru,
Şeytana uymuş
İnsandan qoru.

*2004*

# BİR ÜZLÜ HƏQİQƏT

*"Doğru söz acı olar"*
*(məsəl)*

Doğru söz həqiqətdir.
Həqiqət bir üzlü,
Acı sözlü olur.
Gözləri kor,
Qulaqları kar,
Yolları bağlı olur.
Haqq üçün doğulur,
Haqsızlıqda boğulur,
Haqsızlıqdan ölür.
Cəfakeş cəsarət,
Sən də çox çığırma,
Sən də çox bağırma,
Sən həqiqət haqqında
Heç nə bilmirsən,
Bilsən susarsan,
Susmasan susdurarlar.
Yemədiyini qusdurarlar.
Mənəm-mənəm deyən oğullar,
Özlərini öyən oğullar -
Qollarımı çırmayıb,
Dilini yağlayıb,
Bığını tumarlayıb,
Kişilənib, basıb-bağlayıb,
Həqiqəti üzə deyəcəyinə,

Həqiqəti gözə soxacağma,
Arxasında dağ kimi duracağına
Söz verib, and içib,
Qılınc qurşayıb.
Elə ki, məclis qurulur,
Meydan sulanır, -
Həqiqət doğulası anda,
Ortaya qoyulası anda,-
Sandığı açmamış, pambığı tökməmiş
Yoxa çıxır, yox olur.
O həqiqəti deməmiş,
Həqiqət onu udur.
Yenə köhnə hamam,
Yenə köhnə tas olur.
Hər şey çox olur.
Bəs həqiqət'?..
Pambıq sandıqda,
Sandıq dəryada
Həqiqət kölgədə
Qalır, yox olur.

*1992*

## HAMI İNSAN DOĞULUR

Hamı insan doğulur,
İnsan kimi yaşayır,
Kimi dünyaya bar verir,
Dünya barlanır,
Dünya varlanır.
Kimi dünyadan bar alır,
O, dünyanı kasıb salır.
O, dünyadan qisas alır.
Onda dünya qısır qalır,
Qısırlanır.

*2004*

# HÖRÜMÇƏK TORUNA DUŞƏN VƏTƏN

*Qarabağda məskunlaşmış gəlmə ermənilər Vətənimiz Azərbaycanı hörümçək toruna salmışdır.*

Döndü hörümçəyə kənardan gələn.
Hörümçək toruna düşübdür Vətən.
Acgöz hörümçəklər,-
Bu həşəratlar,-
Vətənə tor toxudu,
Vətən düşdü bu tora,-
Çırpmır balıq kimi.
Oğullar gərək
Ayağa dura,-
Toru doğraya, cıra,
Vətəni tordan qurtara.
Doğulduğumuz torpaq,
Gəzdiyimiz yaylaq,
İçdiyimiz su, udduğumuz hava,
Ycdiyimiz çörək,
Qolumuzda olan güc,
Sinəmizdə vuran ürək,
Düşübdür tələyə,
Düşübdür tora,-
Bu həşəratlar üçün
Dönüb yem mənbəyinə,

Böyük dərddir Qarabağ dərdi, -
Ürəyimizdə bitdi, göyərdi.
Göynəyir içimizdə
Yanıq yarası kimi.
Vaxtında görmədik,
Görə bilmədik.
Ermənilərin dönüklüyünü
Qarabağ dərdinin böyüklüyünü.
Vaxtmda bilə bilmədik,
Görə bilmədik
Gəlmə hörümçəklərin,-
Bu əldən zirəklərin,
Bu hikkəli bütlərin
Acgözlüyünü.
Nə gözləri doyur,
Nə qarınları dolur;
Ceviz qurdu kimi
İçəridən yeyir, çürüdür
Vətənimiz Azərbaycanı
bu acgöz həşəratlar...
Dərdimiz bir idi,
İndi iki oldu,-
Hörümçəklər törədən
Faciələr də,
Fəlakətlər də
bizimki oldu.

*1996*

# MƏN HAMIYA İNANIRAM

Bilmirəm, sadəlövhəm,
Yoxsa, sadəcə löhəm.
Mən hamıya inanıram.
İnana-inana aldanıram,
Aldana-aldana inanıram.
Mən beləcə
İnana-inana
Aldana-aldana dolanıram.

*2004*

## ORA HARADIR

Ora haradır,-
Gedən-gedir,
Gələn yoxdur,-
Gedəni də el apanr.
Leysan olur göz yaşları,
İnsanları sel aparır.
Gedən getmir,-
aparırlar.
Bu dünyadan,
bu torpaqdan
Qaya kimi qoparırlar,
Torpaq altı - o dünyaya
Gül-çiçəklə aparırlar.

*2004*

## GEDİRƏM

Qapını açıb gedirəm,
Əlindən qaçıb gedirəm.
Kəsib qabağımı,
Baxma gözlərimə.
Gözlərimdən
Nifrət saçıb gedirəm.
Nifrətim dondurar səni,
Nifrətim yandırar səni,-
Yanarsan, donarsan, ölərsən.
Haçan dirilsən, yanıma gələrsən.

*2004*

## ÜRƏYİM

Dünyanm dərdini
çəkib başına,
Ürəyim
Nə gecə, nə gündüz bilir,
Nə də ki, rahat olur.
Özüm farağat vəziyyətdəyəm,
Dilim dinc durmur,
Qələm sakit oturmur:
Tıq, tıq, tıq...
Qələm ürəyimin
Qapısmı döyür.

*2004*

## KİŞİYƏM DEYİR

Eldar
Bişmiş əti
Bıçaqla kəsir,
Çəngəllə yeyir.
Bax,
Mon böyümüşəm, -
Mən kişiyəm deyir.

## SƏN DEDİYİN

Bu - sən dediyin,
Bu - deyilənlər-
Buda
Deyilə-deyilə
gələnlər.
Bax, gör, dərk et.
Seçim sənindir, - seç.
Bir yol tut, keç.
Həqiqətə doğru get.

*2004*

# BUZ HEYKƏLLƏR

*Leninin, Stalinin Dövlət*
*mükafatlarına layiq görülmüş*
*heykəlləri sökülüb, məhv edildi*

Dünənə qədər,
Bəlkə bir az
Dünəndən öncə,
Gurultulu
Alqış səslərindən
Yapdığımız
buz heykəllər
Bu gün
İnsan qarşısındaca,
Arxivlərin, zirzəmilərin
Künclərində
Toz yağışmdaca,
Əridi, məhv oldu.

Dünənə qədər
Buz heykəllər haqqmda
Məddahlıq nəğmələrini
Xorla oxudanlar,
Barmaqla hədələyib,
Zorla oxudanlar,

Bu gün də
Millətə məddahlıq
nəğmələri
Oxudurlar.
İlahi, nə bəxtəvərik biz!
Torpağı işğal olan millətin,
Torpağı işğalda qalan millətin,
Evi-eşiyi talan millətin
Nəmxuda və maşallah,
Məddahlıq şərqiləri
oxumağa
Gur səsi,
Həvəsi varmış,
Dərdini güldürən
Nəğməsi varmış,
Qaçqınlı, köçkünlü
Dəstəsi varmış!

# SƏS GƏLDİ

Bir evdən
Yeni səs gəldi, -
Səs işığa döndü,
İşıq oldu,
Düşdü otağa, pəncərəyə,
Yaraşıq oldu,
Evə sevinc gətirdi,
İşıq böyüdü, yeridi,
Qapıdan çıxdı,
Həyətə düşdü,
Həyata düşdü -
Bağçaya getdi,
Məktəbə yollandı.
Gəzdi küçələrdə,
Küçələr də işıqlandı.
İşıq təhsil aldı -
Parladı,
İşığın - işığı
Vətənə düşdü, -
Vəten nurlandı.
İşıq getdi dünyadan...
Dünyada işığın -
İşığı qaldı.

*2003*

## MUŞTULUQ DÜŞÜR

Gecəyə şeir deyirəm,
Gecə şerlə görüşür, öpüşür,
Gecəyə şerin sədası düşür.
Səda çatır səhərə,
Səda hopur şəhərə.
Yuxudan oyanan şəhər,
Üfüqdən boylanan səhər,
Şairdən qabaq
Şeirlə görüşür.
Səhərə də,
Şəhərə də
Şer muştuluq düşür.

*2003*

# ÜMİDLİ YALAN

Ümid dolu yalan de,
Yalan dolu ümid ver.
O ümidə bürünüm,
Çox ümidli görünüm.
Ümidin arxasınca
İlan kimi sürünüm.
Ümid Allah ətəyi,
Ümid mənəvi dayaq.
Ümidlərə sarınaq,
Ümidlərlə yaşayaq.
Ümid sabaha inam,
Ümid sabahın yolu.
Deyilən yalan olsa da,
Sabaha ümidli ol.
Div zülmətli meşədə
Ümid işıqlı bir yol.
Ümidlərlə yarınaq,
Ümidlərə sarmaq.
Hər şeyə ümid edək,
Yolu ümidlə gedək.
Ümid dolu yalan de,
Yalan dolu ümid ver.
Qoşul yara-yoldaşa,
Sən də ümidlə yaşa.

*2003*

## KƏNDİMİZİN ŞƏHİDLƏRİNƏ

Qəlbimdə qəm də, sevinc də var,
Duyuram həm qürur, həm də iftixar.
Bu kəndin nə qədər şəhid oğlu var,
Vətənin fəxridir -
Vətənə çəpər oğullar,
Sinəsi sipər oğullar

*1994*

## GÜZGÜ KİMİDİR

Pis mühit,
Pis həyat
Pis göstərən
Güzgü kimidir.
İnsanı dəyişdirir,
Pisləşdirir,
Pis günə qoyur.

## MUSA YAQUB TƏZƏ ŞAİRDİR

Musa Yaqub təzə şairdir
Təzə şeirlərilə.
Musa Yaqub təzə şairdir
Təzə fikirlərilə.

## NƏ YAXŞI

Nə yaxşı ki,
Yer üzündə
Su-su oldu,
Od olmadı.
Su od olsaydı,
Yer - Yer yox,
Cəhənnəm olardı.

## KEÇMƏK OLMAZ

Keçmək olmaz keçmişə,
Köçmək olmaz keçmişə,
Düşmə təşvişə.
Keçmiş - keçmişdə qaldı,
Əlçatmaz, ünyetmez.
Keçmişdə - keçmişin
Nəfəsi qaldı.
Səsi-sədası qaldı,-
Hikkəsi, ədası qaldı.
Əlçatmaz, ünyetməz
Kölgəsi qaldı.
Keçmişdə, – keçmişin
Şənlənən,
Qəmlənən
Dəstəsi qaldı.

## "Ədəbiyyat qəzeti"nin Baş redaktoru Çox hörmətli AYAZ müəllim!

Xalqımızın - Bütün türk xalqlarının, türk dünyasının çox qeyrətli, narahat ürəkli böyük oğlu Bəxtiyar Vahabzadənin "Avropa Birliyi" şerini qəzetinizin 22 dekabr 2000-ci il tarixli, 51-ci sayında oxudum və çox şad, çox məmnun oldum. Bəxtiyar müəllim bu şeri ilə həqiqəti dediyinə, düz hədəfə vurduğuna görə mənim ürəyimdən xəbər verir, məni həyacanlandırır.

Bəxtiyar müəllim çox sağ olsun ki, biz deyə bilmədiyimizi, lakin demək istədiyimizi dedi, özü də yüksək səviyyədə, layiq olduğu səvıyyədə dedi. Həqiqətən "Avropa Birliyi" özünü "Avropanın Bırliyi" kimi yox, ərköyün, hikkəli, ədalı bir xanım kimi aparır, naz edir və "mənim nazımla oynayın" deyir...

"Avropa Birliyi" öz hərəkətləri, ədaları, hoqqalan, bəhanələri ilə tək Türkiyəni deyil, bütün türk dünyasını təhqir edir, onun nazıyla oynamağa məcbur etmək istəyir.

Ancaq Bəxtiyar Vahabzadə kimi böyük, qeyrətli, cəsarətli bir oğul "Avropa Birliyi"nə öz yerini göstərər, şeirlə öz yerində oturdar.

Mənə belə gəlir ki, Türkiyə kimi Böyük bir dövlət "Avropa Birlliyi"nə sığınmaqdansa özü "Dünya Türk-islam Bırlıyı" yaratsa daha qüdrətli, daha əzəmətli, daha hökmlü olar. "Avropa Birliyi"nə də öz hökmünü diqtə edər.

# İSLAM ÇİYİNLƏRİM, TÜRK ÇİYİNLƏRİM

İki çiynim,-
Solum-sağım,
Göyü göydə saxlayan
İki dayağım.
İki çiynim - Qərbim, Şərqim,-
Ögeyliyim-doğmalığım...
Şərqdə mənə doğma millət,
Şərqdir mənə doğma cəhət.
İki çiynim,-
Sağım-solum;
Tarazlıqdan keçir yolum.
İki çiynim,-
bir ömrün iki paraleli,
iki meridianı,-
Türkün görüş meydanı,
Türkün döyüş meydanı.
Çiynim - çiyinlərində,
Göyü-göydə saxlayar,
Hay deyəndə,
Qərbi - Qərbdə,
Şərqi - Şərqdə haqlayar,
Yeri-Göyü - bu dünyanı
tarazlıqda saxlayar,
İslam çiyinlərim,
Türk çiyinlərim.

*2000*

# QƏLƏMDƏN QORXURAM

*Şerin çətinliyi həm şairi,*
*həm də qələmi qorxudur.*

Qələm məndən,
Mən qələmdən
qorxuram.
Dərd bitirən,
Qəm ələyən
Yerdən, Göydən,
Bu aləmdən
qorxuram.
Hədəfə düşməkdən,
Namərdlə görüşməkdən,
Nadanla çəkişməkdən
qorxuram.
Hərənin ağzından
Min avaz gələn,
Hərcayı danışıb,
Mənasız gülən,
Fikri çəkisindən
Çox yüngül gələn
Məclis, mağar "'ağasından",
Məclis, mağar davasından
qorxuram.
Bəlkə bu qorxu
Çox yersiz olur,

İnsanlar getdikcə
Səbrsiz olur.
Səbrsiz insanlar,
Tədbirsiz olur.
Səbrin tükənməsindən,
Ürəyin səksənməsindən
qorxuram.

*2004*

## İFADƏLİ BEYTLƏR

Hər gəlib getməkdə a gülüm, bir səbəb olar,
Səbəbi deyilmirsə, - onun da səbəbi var.

* * *

Mollalığı bilməyən kəs, etsə axundluq əgər,
Dindarlar da dindən qaçıb kafirləşərlər.

## ƏN UZUN YOL

Ən uzun yol, -
Ömür uzunluğundadır, -
Biz bu yolun yolçusuyuq.

* * *

Gözlənilməyəni, gözləmək lazımdır
sonra gec olar.

*2004*

# GÖYƏRƏRSƏN KƏNDLİ QARDAŞ

Kəndli qardaş,
bu torpağın möcüzəsi
Sənin əlindədir.
Sən torpağa bağlısan
Bahardan öncə,
işvəli yardan öncə.
Yönü bəri baharın
möcüzəsi
Əllərinlə boy atar.
Bahar bütün qışı da
Sənin ovcunda yatar.
Yönü bəri bahara
Torpağın gülü, çiçəyi
Sənin əlindən çatar.
Kəndli qardaş,
Doğulmusan səmaya sirdaş,
Torpağa sirdaş,
qardaş.
Torpağın taleyi, bəxti əlindədir,
Dövləti, sərvəti əlindədir:
Dən ol, səpil torpağa sən,
Su ol, təpil torpağa sən,
Bahar gələr, gün vurar,
Zəmi-zərni, tarla-tarla
Boy atıb, yenidən göyərərsən
Qardaş.

## QORXURAM

Düzü mən beləyəm
"Ön sözdən",
"'Son sözdən"
Xoşum gəlmir.
Ona görə ki,
Atalar demişdir:
Öndə gedəni atarlar,
Sonda gedəni tutarlar-
İstəyirsən inan,
İstəmirsən inanma,
Bu deyimdə
Bir həqiqət var.
Atılmaqdan,
tutulmaqdan qorxuram.

*2004*

# İSA BULAĞI

Bir qurtum su ver içim,
Həsrətindən yanır içim.
Yol ver yanına köçüm,
Sərin bulaq, şirin bulaq,
Sənə həsrət qalıb dodaq,
Ağ buxaq, al yanaq
İsa bulağı,-
Axx... ay bulaq, axx... ay bulaq.
Duru gözlərin bulanmaz,
Suların axar, dayanmaz.
Əlim çatmasa bu yaz,
Arzum gəlib dolanar
Hər səhər başma bulaq,
Ağ buxaq, al yanaq
İsa bulağı,-
Axx... ay bulaq, axx... ay bulaq.
Suyun meşəni bürünür
Meşədə duman sürünür,
Dolanır, başına dönür,
Cüyürlər gözündən öpür,
Ağ buxaq, al yanaq
İsa bulağı,-
Axx... ay bulaq, axx... ay bulaq.

*2003*

## KEFİMLƏ SOHBƏT

Kefım, necəsən?
- Gün olur, pis oluram,
Gün olur, heç olmuram.
Gün olur təb-təb oluram,
Dəvəsi ölmüş ərəb oluram.

Yüz məzhəkəçi, min təlxək gələ
Üzüm gülməz,
dodağım qaçmaz,
Könlümü açmaz.
Adım kefdi, kef olsam da,
Kefsiz oluram.

*2003*

# BAHARDA

Səhər-sohər
Dan sökülüb,
Güləndə göylər
Nazlanan qönçələr
Yarpaqla yaşınır.
Durub dodaq-dodağa -
Səssiz-səmirsiz
Nəğmələr oxuyur,
Açılan qönçə dodaqları
Bal qoxuyur.
Jalədən tac qoyan,
Tacı qıyqac qoyan,
Hər güldə, çiçəkdə
Bir gözəllik,
Hər güldə, çiçəkdə
Bir şahzadəlik var.
Gözəlliyə gözətçidir,
Göydə Günəş,
Yerdə ağaclar.
Dolmuş bahar buludları,
Arabir
Gül-çiçək üstə
Bir şabaş kimi
Yağış tökür,
Yağış səpir.

*2003*

## BÜRÜNÜR

Bu gözəl güllər,
Gözəl çiçəklər
Baxanda adamın
Üzünə gülür.
Gülüşündən
Nur süzülür,
Ənbər tökülür
Bu güllər, çiçəklər
Utanır, nədir?-
Gecə jalələrə,
Gündüz şəfəqlərə
Bürünür.

*2003*

# YAĞIŞLI GECƏLƏR

*Yağışlı gecənin ulduzu olmur*
*Qiymət Məhərrəmli*

Yağışlı gecələrin
İlduzu yağışa dönür,
Yağışla yağır.
Yağışlı gecələrin
Ulduzu olmur, buludu olur.
Yağışlı gecələrin ulduzu
Təzə gəlin kimi
Bulud gərdəyin
Arxasından baxır.
Yağışlı gecələrdə
Ulduzlar olmur,-
Ulduz-ulduz yağışlar
Yağış - buketlə
Yerə səcdəyə gəlir,
Yağışlı gecələrdə ulduzlar
Üzünə buluddan paranca salır.
Arxasmdan baxır, boylanır,
Bulud çadrada gizlənir,
Buludla yaşınır, –
Buludla yaşamır...

*2003*

## SİZƏ QALDI

Bildiyimi bildim,-
Bilmədiyim sizə qaldı,-
Mən gedirəm.
Dediyimi dedim,-
Demədiyim sizə qaldı,-
Mən gedirəm.

Gördüyümü gördüm,-
Görmədiyim sizə qaldı,-
Mən gedirəm.

Nə ki, var, sevdiyim,
Sevmədiyim sizə qaldı,-
Mən gedirəm.
Hər şey, hər şey - bu həyat,
Bu kainat sizə qaldı,-
Mən gedirəm.

*2002*

# ƏZİZLƏMİŞƏM

Ömrüm boyu
Ayaqlarım - ayaqlardan,
Əynim - əyinlərdən,
Əlim - əllərdən utanıb.

Ömrüm boyu
Hikkələrə, hədələrə
Nişan olmuşam, hədəf olmuşam,
Ancaq yenə
Sağ qalmışam.

Ömrüm boyu məni
Kədər sevib, qəm sevib,
Dərd əyninə geyib,-
Əzizləmişəm, tumarlamışam
Təptəzə paltar kimi.
Sevmişəm
Övlad sevən atalar kimi.

## ÇOBAN

Üzü sığallanar səhər mehində,
Papağı zərlənər payız şehində,
Baharın ilkində, dağ güneyində
Sürünü yayaraq otarar, çoban.

Hər bahar yolunu gözləyər dağlar
Meşələr səsləyər, bulaqlar çağlar,
Aran sovqatını gondərər bağlar,
Dağlara bərəkət aparar, çoban.

Yoxlayar sürünü nəzər diqqəti.
Dərədə, təpədə gəzər diqqəti.
Qoyundan, quzudan açar söhbəti,
Xeyrə də, şərə də yarayar, çoban.

Zirvələr önündə sallayar ətək,
Sürünü tanıyar beş barmağı tək.
Qayadan sərt olar, çiçəkdən kövrək
Qıy vursa qayanı qoparar, çoban.

Dağlar gəlişini toy, bayram bilər.
Yoluna aydınlıq yağışı çilər.
Göylər təbil çalar, şimşəklər gülər,
Belə təm-təraqla yaşayar, çoban.

## ATA OLDUM

Bilmədim, heç necə ötüşdü illər,
Mənim də ilk dəfə övladım oldu.
Dünən özüm ata dedimsə əgər,
Bu gün ata mənim öz adım oldu,
Mənim də ilk dəfə övladım oldu!

*1963*

## DÜZƏLDƏ BİLMİR

Qəzəbdən qızanda bir gün beyinlər
Səhvlərə yol verir çox valideynlər.
Qovuşub əsrlərə yüz illər keçir,
Nəsillər gəlir, nəsillər keçir.
Daşlar quma dönür, toz olur dəmir,
Nəvələr o səhvi düzəldə bilmir.

# NƏŞRİYYATDA

Otaq geniş, masa böyük,
Stullar üzbəüz
Düzülübdür cərgəyə.
Günəş həsrətilə
boylanıb çölə,
Sıxılıb pəncərəyə
dibçəklər,
Sığınıb pəncərəyə
çiçəklər.

Otaq genişliyi,
Masa böyüklüyü,
Stul düzümü,
Dibçək gülü,
Pəncərə işığı,
Xalça yaraşığı
Müəllif mənliyini sıxan,
Müəllif mənliyinə düşən
bir yük.
Xərci-xəracı
Özündən böyük.
Cənab direktor
Sanki bir aktyor,-
Dönüb müəllifə sarı
Əsdirib dodaqlarını,
Başlayır monoloqu.

Sıxır, açır dodaqlarını.
Bir-bir sayır,
Saydıqca yumur
Sol əlindəki barmaqlarını;
Mətbəə xərcləri,
Dazakl, üzlük xərcləri,
Gətirmə xərcləri,
Götürmə xərcləri,-

Filan qədər dollar...
Kağız almaq,
Üzlük tapmaq...
Müəllif hesabına
gərək nəğd olsun
verilən pullar.
Mətləbin bitdiyini
Söhbətin sona yetdiyini
bildirmək üçün
Görkəmi dilxor,
cənab direktor
gah sağa baxır,
gah sola baxır,
Yerindən qalxır
və sairə və ilaxır...
Su tökür
pəncərəyə sığınan güllərə...

*1998*

## İZHARİ-HAL

Dilimdə dualar,
Tanrı
dərgahına üz tutub
Səcdə edirəm,
Namaz qılıram,
Oruc tuturam,
Şeir yazıram.
Dinimiz uğrunda,
Vətən uğrunda
Cihada hazıram.
Tanrım,
Yağışda yu,
Günəşdo qurut,
Məni günahsız elə,
Günahsız bəndələrlə tut.
Günahlarımı unut,
Günahsızlarla tut.
Cənnətə qapı aç,
Üzümə nur saç.
Döndər məni
Çiçəyə, gülə
Cəhənnəmdən uzaq elə
Dərgahından
mövzu göndər
Günlərim, aylarım
Qalmasın qısır,

keçməsin hədər.
Dilimdə dualar, şeir yazıram,
Din uğrunda, Vətən uğrunda
Cihada hazıram.

*2004*

## BABƏKLƏR, SUMBATLAR

***Səddam Hüseyni mühafizə xidmətinin rohbəri Əbu Həmid Mahmud İsrailə və ABŞ-a satdı. "Müsavat" qəzeti N32 04.02 2003-cü il.***

Hər dövrün öz Babəkləri,
Hər dövrün öz Sumbatlan var.
Satılır düşmənlərə,
Tapmır düşmənlərə,-
Mərdlərə zərbə vurur
arxadan
Sumbat doğulanlar,
Sumbat olanlar.
Bu Sumbatlar
aramızda da var.
Qədim dövrdən,
Qəmi böyüdən,-
Qəzəbi dindirən, bildirən
Belə bir deyim
Ürəkdə çağlar,
dil deyib ağlar:
"Yanıram a dağlar,
Ölürəm a dağlar".

*2003*

## GÖZLƏ Kİ...

Bir söz gəldi ağlıma -
Saymadım, yazmadım.
Heç məhəl də qoymadım.
Uçub getdi söz,
Məni tərk etdi söz.
Döz, QƏŞƏM, döz,
Gözlə, hayla,
Bəlkə geri döndü söz.

## ƏSİR DÜŞÜB GEDƏRDİ

Bahar yurd salıbdır sinəndə, telində,
Şəkər gizlənibdir dodağında, dilində,
Məhəbbət boylanır qəmzələrində,-
İgidlər görsəydi, çaşıb gedərdi.

Sadədir, gözəldir, qədir biləndi,
İgidlər baş əyib sevgi diləndi.
Onun sevgisinə qovuşan, - indi,
Özünü şah kimi təqdim edərdi.

Çıraqlı sevsəydi belə gözəli,
Təslim olub qaldırardı əlini.
Tərk edərdi obasını elini
Qoca vaxtı əsir düşüb gedərdi.

*2003*

## YORULUR

Baxırsan, göz yorulur,
Danışırsan, söz yorulur,
Söz deyilən üz yorulur.
Göz də, söz də, üz də -

Yorğunluqdan çat verir.
Gözə, sözə, üzə - yorğımlıq mat deyir,
Göz də, söz də, üz də -
Yorğunluqdan mat olur.

*2003*

## BİZ NİYƏ BELƏYİK

Çoxlarını çox vaxt
Nahaqdan
Yuyub, səririk.
Hətta nahaqdan
Gedər - gəlməzə
Göndəririk.
Sonra "insan" oluruq,
Sonra peşman oluruq,
əzab çəkirik.

*2003*

## YÜZ ÖLÇƏK...

Hər məsəl çəkəndə deyirik,-
Yüz ölçək, bir biçək -
Ölçmürük - biçirik.
Deyirik, yolun düzünü seçək,
Düzündən keçək,
Seçmirik, keçirik,
Haqda qalmırıq,
Nahaqqı sevrnirik
Qalırıq
Haqqla, nahaq arasmda.
Qalırıq
Günahla savab arasmda.

*2003*

# SƏNİ TANIDIM

Səni, sənin üzündən tanıdım,
Səni sənin səsindən tanıdım,
Səni, sənin gözündən tanıdım,
Zaman səndən yan keçməyib,
İllər sənə də dəyib,
Səni də əyib.
Cəhd edib, dəyişsin səni.
Səsini, üzünü, gözünü
Dəyişə bilməyib.

*2003*

## MASAM ŞEİR BİTIRƏR

Gözüm qorxur qələmdən,
Söz çıxmamış dilimdən,
Qapır, alır əlimdən.
Sir sözümü faş edir,
Nə edir səssiz edir.
Nə edir yavaş edir.

Gözüm qorxur qələmdən,
Yaxın düşə bilmirəm.
İlham da qaçaq düşüb,-
Gəlsə bəxtim gətirər.
Masam şer göyərdər,
Masam şer bitirər.

## ƏL-AMANDAYIQ

Gör necə dövrandayıq,
Gör necə zamandayıq;
Gecə də, gündüz də
Əl-amandayıq.
Nə fəhlə - fəhlədir,
Nə kəndli - əkinçi.
Hərə bir cür artistdir,
Hərə bir cür dilənçi.
Yaşayırıq belənçik,
Ölürük belənçik.
Ölümüz - dilənçi,
Dirimiz - dilənçi.

*1994*

## DƏRDİN ƏLACI – SƏBRDİ

Dərdin başlanğıcı - fıkirdi,
Fikrin də əlacı səbirdi,
Səbrin də çatmırsa, hazırlaş,
Onda sənin yerin qəbirdi.

* * *

Saqi, sakin, məclisə söz paylayıram,
Məclisdə, sözü meydən üstün sanıram.

## SƏS GƏLİR

Səs gəlir, - uşaq səsi,
Səsdən tutub gedirəm
Uşağa sarı.
Uşağı görə bilmədim.

Mən axırdan qayıdıram,
Uşaq axıra gedir.
Mən ömrümün sonundayam,
Uşaq başlanğıcında.

Səs gəlir, - uşaq səsi,
Səsdən tutub gedirəm
Uşağa sarı.

Səs tanışdır, doğmadı,
Uşağı tanıya bilmədim.

*2003*

## QORXURAM

Özüm - özümdən qorxuram,
Bişməmiş sözümdon qorxuram.
Sözüm tilova dönər,
Tilova düşə billəm.
Sözüm alova dönər -
Odunda bişə billəm.

*2003*

## QALARSAN

Saçım kimi
Darağımdan,
Barmaqlarımdan keçirrəm səni.
Tumarlanarsan,
Sığallanarsan,
Xumarlanarsan.
Gözəl, göyçək olarsan,
Yaddaşımda da
elə-belə
Gözəl, göyçək qalarsan

*2002*

## TƏK OLMURAM

Tək olanda tək olmuram,
tək də qalmıram,
Mənimlə olur arzularım,
Fikirlərim, duyğularım.
Tək olanda tək qalmıram,
Əylənirəm duyğularımla,
Əylənirəm
Kəsirlərimlə, uğurlarımla.
Günüm, gecəm bitir belə,
Ayım, ilim keçir beiə,
Düşüncələr bitmir hələ.
Arzularım gəlmir ələ.
Neçə ki, mən varam,
Arzularımla, duyğularımla,
Baş-başa, döş-döşə
yaşayaram.

## QAR - GÖZƏLLƏŞDİRİR

Qar yağır,
Ağır, ağır,
Başına, qaşına qonur,
Üz-gözündən öpür,-
Yanaqların allanır.
Saçların çiçəkləyir,
Külək saçlarından gül dərir.
Qar - məni bilmirəm,
Səni gözəlləşdirir.

## ŞEİR DEYİRƏM

Gecəyə şeir deyirəm,
Gecəyə şeirin,
Səsi düşür,
Səsin kölgəsi düşür.
Yuxudan duran səhər,
Yuxudan duran səhər,
Bu gecə şairdən öncə,
Şeirlə görüşür,
Şeirlə öpüşür.
Səhərə,
Şəhərə
Şeirin sədası
Düşür.

## MƏHƏBBƏTDƏN DƏLİYƏM

(sevən qızların nəğməsi)

Açılmamış qönçəyəm,
Təzə-tərəm - çiçəyəm,
Mən hamıdan göyçəyəm, -
Məhəbbətdən dəliyəm.

Yaxama əl dəyməyib -
Vuqarımı əyməyib,
Yarım gedib, gəlməyib,-
Məhəbbətdən dəliyəm.

Tanrı sevir sevəni,
Sevib nəğmə deyəni,
Qınamayın siz məni -
Məhəbbətdən dəliyəm.

Günəş göydən nur ələr,
Yer nuruna bələnər.
Ürəyimdə nəğmələr,-
Məhəbbətdən dəliyəm.

*2004*

# SOYUQLUQ

Soyuqluq duyuram baxışlarından,
O baxış, o duruş üşüdür məni.
Sevincim, kədərim qarma-qarışıq,
Sevinc də, kədər də töyşüdür məni.

Yadsan nur çiləyən təbəssümlərə,
Dolanmır başıma nəvazişlərin.
Ürəyim can atır sənlə görüşə,
Əsir aramızda meh sərin-sərin

Nizam-tərəzini salırsan işə,
Olanı, olmazı çəkirsən belə.
Cibimdən, cibindən düşmə təşvişə,
"Palaza bürünüb" qoşulaq elə

Nizam-tərəzini ataq bir yana,
Fikrimiz, - zikrimiz çəkilmək olur.
Ya sev, ya sevgidən elə imlina.
İmtina - cəbhədən çəkinmək olur.

*1963*

# İNSAN DİLİNDƏ

İnsana
İnsan ayında,
İnsan ilində,
İnsan dilində
Şeirlər yazıram.
Quşdili şeirlər yazmıram.
Quşdilli şeirlər
Yazılanda
Quşdili kursları
Açılsın gərək.
Quşdili bilməyənler,
Quşdili şeirləri
Çətin dərk edər

*2003*

## TALE

Əcəl insana doğru gəlmir
İnsan əcələ doğru yol gedir.
*1958*

## ALQIŞ

İndi biz
Müstəqil bir ölkənin
Vətəndaşıyıq.
Müstəqil Vətənin
Vətən daşıyıq.
İndi biz
Ömrümüzün işığında,
Dünya bəzəyində, yaraşığında
Tükənməz həvəslə,
Sönməz həvəslə
Ömür sürürük
Yol gedirik, -
Yolumuz uğurlu olsım,
İşıqlı, nurlu olsun.
*1992*

## GÜNƏŞ KİMİSƏN

Sən elə
Yer Göy arasında
Günəş kimisən,
Məni yandıran, yaxan
Atəş kimisən.
Yaxın durmaq,
Əl vurmaq olarmı sənə?
Uzaqda dursan da, yenə
Düşmüşəm cazibənə,
Əriyirəm Günəş vuran buz kimi,
Əriyirəm
Suya düşmüş
Şəkər kimi, duz kimi.

## KEÇİRDİM

Bu gün
Məhləmizdən keçirdim,
Səni yad edib
Yaddaşımdan keçirdim.
Yaddaşımı
Damla-damla içirdim.
Onda
Bir sən idin, bir mən idim,
Bir-birimizə vurğıın idik,
Heyran idik -
Yolu qoşa gedirdik.
Xoşbəxtliyi, sevinci
Şərbət kimi, şərab kimi
içirdik.
Xoşbəxt idik,
Xoşbəxt olub gedirdik.
Naz edirdik, çox edirdik,
Az edirdik,
Xoşbəxt, xoşbəxt
Yolu qoşa gedirdik.
Yol boyu yolları,
Ağacları kolları,
Xoşbəxt edirdik-
Yolu qoşa gedirdik.

*2002*

## DEYİRSƏN

***Demokratiyanı, söz azadlığını demoqoqluq, hədyanhq bazanna döndərənlərə.***

Deyirsən, yalan deyirsən,
Sözdü də, uydurub
Yalan-palan deyirsən.
Məqsədin məlum, məramın məlum,
Halalın məlum, haramın məlum,
Ay namərd, ay məlun,
Nə olsun demokratiyadır,
Nə olsun məscid açıqdır,
Nə olsun söz azaddır,
Nə olsun azadlıqdır?!
Sel kimi çağlayırsan,
Yalandan ağlayırsan,
Hay-həşir salırsan.
"İnsaf da yaxşı şeydir",
Abır, həya da yaxşı şeydir.
Səsin xalqıma yaddır,
Nəfəsin xalqıma yaddır.
Əlində yad baltası,
Dilində yad havası,
Boynunda yad xaltası,-
Girdiyin demokratiya çətiri altda,
Kölgəsi, havası, sətiri altda,
Kim bilir nə qədər oyunlar gedir,

Qoşulub oyuna keçilər, qoyunlar gedir...
Keçisi, qoyunu olmayan ölkə,
Kənardan, kənara, düşmən əlilə
Düşmən feliylə heç zaman, heç vaxt
Dağılmaz, dağılmaz, dağılmaz.

## NOVELLA
***(Uşaqla zarafat)***

Ağzına, burnuna bax bunun.
- Təəccüb.
Adamın xoşuna gəlir.
Sevinc.

*1996*

* * *

Şair söz yazar, söz atar,
Söz qanadlanar, söz uçar,
Tələsər, ünvana çatar.

# İT QURSAĞI YAĞ GÖTÜRMƏZ

İt qursağı yağ götürməz,
Dingildəmə bala, dingildəmə.
Dingildəmək şan gətirməz,
Dingildəmə bala, dingildəmə.

Haram yola yollanmısan,
Alıqlanıb, çullanmısan.
Bilirəm ki, varlanmısan,
Dingildəmə bala, dingildəmə.

Görməmişi pul oynadar,
Gic adamı dil oynadar.
Səy kişini dul oynadar,
Dingildəmə bala, dingildəmə.

Bar tutmusan başını əy,
Budağınla torpağa dəy.
Dolanıb, danışıb səy-səy,
Dingildəmə bala, dingildəmə.

## NİŞANLAMA

Bu mənim üzüyüm,
Bu mənim özüm.
Bu Sən,
Bu da sənin
Zərif əllərin,
barmaqların
Canım, gözüm -
Budur sözüm:
Bu ağır ömür yükünü
Canla, başla
Zərif çiyinlərində -
Evdə, çöldə,
Sığınıb
Yaxşı günə, pis günə
Daşıya bilərsənsə?
Al tax barmağma
Allah eşqinə.

## BİLƏRSƏN

*Meşşan qadına*

Günün xoş keçsin deyə,
Kişilərin əlində,
Neçə təzə modalı
Dikdabana dönərsən.
Gəzərək əldən-ələ,
Gündə bir neçə kərə
Geyilə də bilərsən.
Olmaz dünyada qəmin,
Vardır çoxlu "həmdəmin"
Önündə hər kimsənin
İlan kimi qabıqdan
Soyula da bilərsən.
Alışır gözlərində
Zəhmətkeşə kinayə.
Ördək yerişlərinlə
Görünərsən minayə.
Saxta təbəssümlərin
Qonar neçə üzlərə.
Son dəbin xətrinə
Hoparaq ac gözlərə
Yeyilə də bilərsən.
Ehtiyatlı ol bir az,
Bir qeyrətin diliylə
Söyülə də bilərsən.
Qapılma xam-xəyala,
Salarlar qeylü-qala,
Düşərsən haldan-hala
Döyülə də bilərsən.

## NƏHƏNG DÜNYA

Bu nəhəng dünyanın
Həmahəng dünyanın
Nəhəng həyat ağacı var.
Bu nəhəng ağacın
Kökləri, budaqları,
Barı, bəhəri-
Həşəratlar, heyvanlar, insanlar.
İnsanlardır
Tanrıdan sonra,
Yerə, göyə
Zamana sahib olanlar.

## YEMİŞ, GÖRMÜŞ ADAM

Axı, bu necə işdir,
Kasıb yesə iştahla,
Deyərlər, görməmişdir.
Varlı bütöv qaz yesə,
Bir qaza o, az desə
Gələr kabab təzə-tər
Yemiş, görmüş deyərlər.

## XOŞBƏXT OLARDIN

Pul, payız xəzəli tək,
Yarpaq-yarpaq,
Ətək-ətək,
Döşənsə qədəmlərinə,
Gülüm,
Xoşbəxt olardın?
Pul ola çiçək,
Açıla ləçək-ləçək,
Səpilə başına
Toy şabaşı tək,
Gülüm,
Xoşbəxt olardın?
Günəş şəfəq-şəfəq
Sökülə,
Nuru qızıl pul olub,
Qədəminə tökülə.
Parıltıya, xışıltıya
Baxan insan heyran,-heyran
baş əyə.
Səni görcək hamı
Bir-birinə dəyə,
Gülüm,
Xoşbəxt olardın?
Puldan yaylıq örtüb,
Puldan köynək geyəydin.
Pul göləndə üzəydin,

Pul çölündə gəzoydin
Ürəyincə,
bürünüb sevincə
Oxqay deyəydin,
Xəzinədar kimi
Çəkiləydi adın,
Gülüm, xoşbəxt olardın?
Düşəndə pul selinə,
Batanda pul gölündə,
Görərsən pul deyilmiş
Xoşbəxtliyin açarı -
Tufan qopar könlündə.

## SEVDIM BALAM KİMİ

Sevərdim qızları cavan olanda,
Şirin nağıl, gözəl nəğmə, söz kimi.
Hissim, duyğularım qanadlananda,
Hisslərimin ürək oldu hakimi
Özü dedi sevim kimi, alım kimi.

...Oldu qız gecəsi, - gəlin səhəri,
Kişi xidmətində durdu bir pəri.
Bir qızım anad7n olandan bəri,
Sevdim qızları da öz balam kimi.

*1963*

## ƏLƏ DÜŞMƏYİR

Qoy yatım yuxuma səadət girsin,
Gəzib dolanmaqla ələ düşməyir.
Tanrı elə qurub bütün işləri,
Bu başda düzəlsə, o başda əyir...

## ŞEİR DEYİLMİ

Gəlinlərin yanaqları
Nişanlı qız dodaqları
Dağ döşünün bulaqları
Meşələri, ovlaqları
Şeir deyilmi?

## GƏTİRDİM

Kənddən şəhərə
Qonaq goləndə
Bir dəstə:
gül,
söz,
şeir
Gətirdim.
Gülü yarıma,
Sözü dostuma,
Şeri xalqıma
Yetirdim!

## HEÇ-HEÇƏ

Heç-heçə qurtardım
Bu günkü günlə.
Kimlər nə qazandı,
Kimlər nə yazdı,-
Deyə bilmərəm.
Tale belə verib
Bəlkə hökmünü;
Əlimdəki vərəq
Ağappaq qaldı.

## MƏNİ QORUYURSAN

Məni qoruyursan
Yayda istidən, qışda soyuqdan
Şər vaxtı banlayan toyuq xatasından
Məni qoruyursan, bəd baxışdan - nəzərdən,
Məni məndən də qoruyursan hərdən,
Məni qoruyursan yersiz sözdən, söhbətdən,
Məni qoruyursan kənar sevgi-məhəbbətdən.
Məni qoruyursan bayquşun bəd səsindən,
Qara pişiyin yolumu kəsib keçməsindən.
Neçəki mən varam, neçəki sən varsan,
Bütün xətalardan məni qoruyarsan.
Məni qorumaqla qoruyarsan xoş arzuları,
Nə olar, məni-məndən qoru,
Özünü məndən qoruma barı.

# BÖYUK DƏRD

Vallah bu dünyanın dərdi böyükdür,
Azadlıq, səadət xoruza yükdür.
Zamanın ilməsi elə söküldü,
Demokratiyanm içi göründü.
Sakitlik, rahatlıq elə pozuldu,
Sözlər də, üzlər də tamam boz oldu.
Hərc-mərclik baş alıb gedir,
Banklar, dükanlar boşalıb gedir
Demokratiya nə verəcək bilmədik,
Nələri aldı o, artıq dərk etdik.
Gör neçə yüz ildir tutub gözünü
Özüylə sürüyür Qərbin özünü.
Demokratlar qərbə nə gün ağladı,
Fəlakəti gəlib bizi haqladı.
Domokl qılmcı nə, həyat nədir,
Asıhb üstümüzdən, bir təhlükədir.
Döndü rahathq, narahatlığa,
Axı nə deyək biz bu azadlığa.
Qonşunun, qohumım itib təpəri,
Hanı bu xalqlarm sakit günlori.
İtirdik nə qədər igid ərləri,
İtirdik kəndləri, çox şəhərləri.
Çaqqallar, tülkülər meydan oxuyur,
Torpağımız yayda, qışda qan qoxuyur.
Yerindən qalxan alverə gedir,
Cavanlar işləmir, reketlik edir.

Qaldı təsərrüfatlar başlı-başma,
Nə yığmışdıq anbarlara daşma.

*1993*

## TALE

Danışdıq, vədələşdik,
Görüşə bilmədik.
Görüşsəydik, bəlkə də
Xoşbəxt olardıq.

## AFORIZMLƏR

Qarnını otardı - qarnı da apardı.

* * *

Dili dişindən itidir.

* * *

Baş yerinə qarın gəzdirirdi.

* * *

Başını qarnı idarə edirdi,
Başı qarnının arxasınca gedirdi.

# QUYU

*İsa İsmayılzadəyə.*

Müəllif üz tutanda yazılara,
Yazılar qanad açar,
Yazılar uçar redaksiyalara.
Mən də qanad açan, uçan,
Ayaq açan yazıların ardınca
Ayağımı yora-yora,
Gəlib çıxdım bir gün ora.
Hələ başlamamış söhbətə, sözə
Diqqətin-diqqətimlə,
Surətin-surətimlə durdu üz-üzə
Sual dolu baxışlar,
Qarşılaşdı, alışdı,
Sual dolu nəzərlər -
Axır ki, dindi-danışdı: -
"Küt gedən günlərim"i
Aylarımı, illərimi
Şerə bükübgətirmişəm.
Onu ürək dibçəyində,
Bitirmişəm, yetirmişəm,
Sonra Sizə gətirmişəm.
Şeri alıb baxdınız.
Dönüb nura, şəfəqə
Üzərindən axdınız.
Baxa-baxa baxışlara içirdiniz,
Bir andaca göz - rentgendən keçirdiniz.
Bildirdiniz sağlam olduğunu.

Mən də çox sevindim
Eşitcək bunu.
Lakin Siz demədiniz
Redaksiyada
Quyuların olduğunu.
Sonradan dərk etdim.
Ayaq döydüyüm günlərin də,
Redaksiyaya uçan şerlərin də
Redaksiyalarda küt getdiyini,
Batdığını, itdiyini.
Hesablasan, toplasan,
Redaktor,
Direktor qəbullarmda,
Növbələrdə, yollarda
Küt geden günləri,
Tökülüb itən günləri
Üstələyər
Bir ömürlük illəri.

*1980*

## SÜLEYMAN RÜSTƏM

Oxudum Səni,
Oxudum Təbriz üstə.
Ayrılıq üstə kökləndim.
Araz üstü - köz üstüdür,
Qoy deyim, söz üstüdür;
San sim kimi sızıldadım.
Sarı gül - hicran gülü - (yığaraq)
Dəstələdim,
Arazlı sahilə gəldim.
Qoydum qədim iz üstə.
Oxudum Səni,
Oxudum Təbriz üstə,
SÜLEYMAN RÜSTƏM.
Axı nə qəm,-
Zümrüd quşunun qanadmda
Uçdum, yüksəldim.
Dünyaya boylandım;
Poeziya aləmindən;
Dünyaya yenidən gəldim.
Dünya həmin dünya idi,
Aləm həmin aləm idi,
Yer də, göy də saya idi.
Düşdüm sənət orbitinə.
Çatdım zövqün fövqünə -
Mən, adi adam deyildim.

***1965***

# QAÇQIN MONOLOQU

Üzünə üz qoymağa üzüm gəlmir,
Ana Vətən,
Şəninə mədh oxumağa dilim gəlmir,
Ana Vətən.
Kəndimi, obamı qoyub qaçmışam,
Sığınacaq üçün ağız açmışam.
Dananı hörükdə, iti zəncirdə,
Toyuğu-cücəni də hində,
Babamın, nənəmin-
Neçə əzizlərimin
Qəbirlərini qoyub qaçmışam.
Üzünə üz qoymağa üzüm gəlmir,
Ana Vətən,
Şəninə mədh deməyə sözüm gəlmir,
Ana vətən.
Məni bağışlasın qoruya bilmədiyim
O elim, o obam.
Məni bağışlasın qəbri düşmən əlində
qalan
O nənəm, o babam: - əzizlərim,
sizi qoruya bilmədim,
Sizi xilas edə bilmirəm,
Sizi ziyarətə gələ bilmirəm.
Üzüm gəlmir üzünə üz qoymağa,
Ana Vətən.

## UZUN SÖZÜN QISASI

Canımdan can gedir, canan, gəl cana qıyma,
Yolunda candan keçən, şux-cavana qıyma.

* * *

Çarxı-fələk, çarxın tərsinə dövran edir,
Həyat da dəyişib, zaman insana divan edir.

* * *

Tamah qaraltmasın sənin qanını,
"Dünyanm malı dünyada qalar".
Tamaha qul olsan, könül bağlasan,
Xəbislik, xəsislik canını alar.

* * *

Çəkməyə hər kəsin öz dərdi olur,
Dərdi ona, o dərdinə qul olur.

*1990*

# TƏRS UŞAQ

Tərs uşağa
Tər sözü,
tərs sözü
Dillə deyərlər,
Dillə başa salarlar.
Dillə deyilən
Tər sözü,
Tərs sözü
Tərs uşaq
Başa düşməyəndə
Əllə, çubuqla– yox,
Qulaqburmasıyla
Başa salarlar.

## POZULDU ALIN YAZILARI

*18 sentyabr 1995-ci il tarixdə Bakı metrosunda böyük faciə baş vermişdir.*

Günəş üfüqlərdən boylandı, baxdı,
Arzular, istəklər yerindən qalxdı.
Talelər evlərdən yollara axdı,
Talelər bilmədi - yol yarımçıqdı.
Yollar metro boyu yollandı, getdi,
Yollar qismətlərə calandı, getdi.
Metro kaha kimi açdı ağzını,
Pozdu alınlarda olan yazımı.
Böyüyü, kiçiyi uddu bir anda,
Dərdimiz bir boy da artdı bir anda.
Qatarlar tükənmiş səbirə döndü,
Vaqonlar tabuta, qəbirə döndü
Daşnaqlar davaya saldılar bizi.
İtirdik ən igid gənclərimizi.
Dığalar tapdadı pak haqqımızı,
Tutdular nə qədər torpağımızı.
Bu xalqa göz dəydi görən hayandan,
Doğulur bir yandan, ölür bir yandan.
Biz gərək Günəşi göylərdən alaq,
Talisman edib
Vətənin boynımdan asaq.

*1995*

## HƏYAT ÖZ VÜQARINDIR

Dünya nəfəsli həyatda,
Həyat nəfəsli dünyada
Nə bitirsən o qalar - bağındır,
Nə yeyərsən o qalar - canındır.
Nə gətirsən o qalar varındır.
Nə götürsən o qalar - ixtiyarındır.
Həyat da - həyatın - öz vüqarımdır.

## İLLƏR KEÇİR

İllər cərgələnib keçir yanımdan,
Bu illər geriyə dönən deyildir.
Dostlar, tanışlar köçür yanımdan,
Hamısının məkanı, ünvanı birdir.

## GƏLƏNDƏ

Yaz gələndə sevinc gəlir torpağa,
Gülüş qonur ağaclara, budağa.
Yay gələndə günəş qonur budağa,
Ulduzlar da yarpaqlardan asılır,
Ulduzlaşan, uşaqlaşan meyvələr,
Cərgələnib budaqlardan asılır.

*1963*

## HƏCCƏ GETMİŞ OLARSAN

Sabirabad SSİ-nni rəisi İkram Nuriycv həccə getməyə hazırlaşır. Sabirabadın ən ucqar sahəsi olan və işıqları yanmayan Gümüşarxı postunun şülüzcüsü Həbib kişinin postda işığın bərpa olıınması barədəki xahişinə laqeyd münasibət bəsləyir, vəzifə borcu olsa da posta işıq çəkdirməkdən imtina ctdi və namaz qılmağa getdi.

***(zarafat)***

Qonaq gəldi, qonağa bax,
Salam verdi ayağa qalx.
Allah qonağıdır qonaq
Həccə getmiş olarsan, bil.

Gözəldir allah kəlamı,
Dilinə alma yalanı.
Gör Həbibi - Qəşəm canı,
Həccə getmiş olarsan, bil.

Namazı bəhanə etmə,
Qonağı ac qoyub getmə.
Sən savab et - həccə getmə,
Həccə getmiş olarsan, bil.

Xoşdur Quran kəlamları
Oxudun əməl elə barı.
Yansa postun işıqları,
Həccə getmiş olarsan, bil.

Yeni ildi, nəzərə al,
Tədbirləri sən plana sal.
Lazım gəldi, qayğıya qal,
Həccə getmiş olarsan, bil.

Təmənnasız gör işləri,
Xeyir işə qatma şəri.
Çörək gətir, çək şişləri, -
Həccə getmiş olarsan, bil.

# BU GİZLİ SEVGİLƏR

Bu gizli sevgilər, sevişmələr,
Xoşa gələ də bilər,
Gəlməyə də bilər.
Gərək keçilməsin bu sevgi həddi,
Gərək pozulmasm məhəbbət səddi.
Yoxsa, qırx günə,
Üç aya, ya da ki,
Bir ilə
Kədər də, sevinc də cücərə bilər,
Kədər də, sevinc də, göyərə bilər.
Bu sevgidə, bu sevişmədə,
Sevinc cücərməsini,
Sevinc göyərməsini, hamıdan əvvəl
Atalar, analar Allahdan dilər.

# BİR ÇİÇƏK BİTDİ

Bir çiçək bitdi bir meşədə,
Onu sıxa-sıxa saxladılar
Bir guşədə.
Ətirsiz güllər ətrinə güldü,
Çətirsiz gülər çətrinə.
Bir çiçək bitdi bir rneşədə,
Onu sıxa-sıxa
Gizlətdilər bir guşədə.
Ətri bihuş etdi əsən küləkləri,
Çətri valeh etdi açan çiçəkləri.
Onun həyat nəfəsli ətrini,
Onun nurlu, şəfəqli çətrini
Çiçəklər bilirdi,
Küləklər bilirdi,
Guşələr bilirdi.
Sevirdilor onun ətrini
Pisləyə-pisləyə.
Xoşlayırdılar çətrini
Pisləyə-pisləyə...

*1965*

## QANADLI DAĞLAR

Qanadlı qayalar
*Məmməd Araz*

Qışda ağ qanadlı, qağayı dağlar,
Gərər qanadını maviliklərə.
Göylərin dirəyi, dayağı dağlar,
Yazar dağ admı fəzaya, yerə.

Yer özü yelkənli bir gəmidirmi -
Yelkəni qanadlı, qayalı dağlar?!
Daşlaşmış dəryanm görkəmidirmi
Dərəli, təpəli - dalğalı dağlar?!

Dağlar qanad çalar sonsuz səmada,
Uçurdar özülə Yer kürrəsini.
Qanadlı dağlar uçar fəzada,
Tutar kainatın qərib səsini,
Zirvə antenası Yer kürrəsinin.

## ƏLLİ YAŞ

Əlli yaşı Araz kimi
Addımlayıb keçəsiyəm.
Yüz yaşımm badəsini
Öz əlimlə içəsiyəm.

*1986*

## SON YARPAQ

Baxıram təqvimə, bu son yarpaqda,
İlin son nidası, son sözü vardı.
Əlvida sədalı qopan varaq da
Qapıb ömrümüzdən bir il apardı.

Bir gündür, bir anda qopan bu varaq,
Hər anı, saatı həyatla dolu.
Günlər də yaşayar heykəlləşib, bax,
Sənin əllərinlə, ay insan oğlu.

İlk günlər, saatlar xoş qədəm olsun
İlk səhər günəşə qoşulub gəlsin.
Günlərin təməli elə qoyulsun,
İllərdən - illərə o şöləl追nsin.

*1961*

## "GÜMÜŞÜ DAMLA" KİTABININ MÜƏLLİFİNƏ

A gümüşü damla, gümüşü damla,
Şairin sevinci, gülüşü damla.
Sən damdın həsrətlə yanan gözlərdən,
Dama-dama kitab oldun sözlərdən.
Döndün məhəbbətə, döndün sevincə,
A gümüşü damla, görürəm necə,
Damdm, bir ürəkdən yüz-yüz ürəyə,
Çevrildin arzuya, istək-diləyə.
Təki damla artıb, damlalar olsun.
Damla, damla ilə qoşa qoyulsun.
Qovuşsun damlalar biri-birinə.
Görünsün, parlasın inci yerinə.
Həyata - damla yox, damlalar gətir.
Damlalar qoynunda min bahar gətir.
Damlalar çoxalsın, damlalar artsın,
Damladan damlaya ümman yaratsın.

*1985*

## DEYİLƏM

Od olub oduna yanan deyiləm,
Olub keçənləri danan deyiləm.
Mənim varlığımda yerin görünür,
Varam, varlığımda izin görünür,
Sənin yollarında güman deyiləm.
Yar olub yanında əyləşməliyəm,
Dəryayam, tufanla döyüşməliyəm,
Bu gündən çıxıram karvan yoluna,
Qarşıda səninlə görüşməliyəm.

## QEYRƏT

Qeyrət, qeyrətə gəldi,
Qeyrət cürətə gəldi
Qayğı artdı millətə,
Millət çatdı hörmətə.

Vətən darda qalanda,
Od-alova yananda,
Can-candan usananda,
Qeyrət-qeyrətə gəldi,
Qayğı artdı millətə,
Millət çatdı hörmətə.

## QAÇIB

Tələdən , kələkdən qaçıb,
Qəzəbdən, fələkdən qaçıb,
Yağışdan, küləkdən qaçıb,
Hüzuruna gələ bildim.
Sevinib gülə bildim.
Sevgilim.

## MƏNA dedi

Ana yurdu seyrə çıxdım,
Bir səfalı yerə çıxdım.
Qarşımdan bir ceyran qaçdı,
Qaçışında məna dedi.
Əlvan güllər çiçək açdı,
Açışında məna dedi.
Günəş çıxdı işıq saçdı,-
Üzdə, gözdə məna dedi.
Körpə uşaq Vətən dedi,
Uşaq sözdə məna dedi.

*1961*

## İNANMIRIQ

*(Həyatda insanın bir inamı olmalıdır,*
*inamı olmayan insandan heç bir şey gözləmə).*

Allaha, billaha inanmırıq,
İmama, imana inanmırıq,
Qurana, insana inanmırıq.
Günəşə, aya inanmırıq,
Ataya, anaya inanmırıq:
İnamı, imanı
İtirmişlərik.
Axı necə yaşayıb,
Axı necə işlərik!?

*1970*

# KÜLƏK

Hissə-hissə əsir külək,
hissə-hissə kəsir külək.
Tindən-tinə
Teldən-telə,
Eldən-elə sürünərək
Yarpaq-yarpaq
Bayraq-bayraq görünərək
Bahar nəğməsini
yayır külək
Qol götürüb
Uşaqlarla,
yarpaqlarla,
bayraqlarla
oynayır külək.

*1968*

## ŞİMŞƏK

Şimşək göyə qamçı vurdu,
Göy qamçını göydə tutdu.
Qəzəbləndi, nərə çəkdi,
Kin-qəzəbi dağa çökdü.

Şimşək dağa qamçı vurdu,
Qamçı dağı pis dağladı.
Dağ şimşəyə bir dağ vurdu,
Hönkür-hönkür o ağladı.

## HAŞİYƏ

"Dolan bulud yağacaqdır,
Bu hökmüdür təbiətin".
Sevən ürək yanacaqdır,
Qaydasıdır məhəbbətin.

* * *

## HƏYATI HADİSƏLƏR

Asan yazılan şer,
Asan da, yaddan çıxar.

İlk kitabımı
Sənə verdim,
Bağışladım.
Dedim dostsan-
Şadlanasan, sevinəsən.
Demədim ki,
Ağız əyib, dodaq büzüb
Çıxıb gedəsən.

## TÜRKÜN TALEYİ

At üstdən düşən türklər,
Təkər üstdə yuva qurdu.
Qılınc kəsməz türkləri,
Təkərlər əzdi, qırdı.

## NİFRƏT ƏKDİM GÖYƏRDİ

Çox danışdın, ay hərif,
Baş beynimi apardın.
Sənə olan sevgini,
Ürəyimdən qopardın.

İndi onun yerində
Nifrət bitib-cücərdi.
İstək əkdim bitmədi,
Nifrət əkdim göyərdi.

## BAYATI

Əzizinəm, yaz məndən,
Qələm götür, yaz məndən.
Olaydım yaz quzusu,
Əməydim yaz məməndən.

*1965*

## GİPNOZ OLMUŞLAR

Amerika imperializmi Afrika, ərəb ölkələrinin mənəvi varlığına, daxili işlərinə dolayı yollarla və ya bilavasitə müdaxilə edib, həmin ölkələri özündən asılı vəziyyətə salır, və "demokratik" yolla işğal edir.

Gözləriniz baxa-baxa,
Ayaq üstə dura-dura,
Kim, haçan
Gipnoz etdi əsəblərinizi?

Kim, haçan tora saldı sizi?
Döyürlər - bilmirsiz, dinmirsiz.
Söyürlər - bilmirsiz, dinmirsiz.
Tamam lüm-lüt qoyurlar,

Bilmirsiz, dinmirsiz!
Girirlər gözlərinizə,
Əl atırlar qəlbinizə,
Yanaşırlar ürəyinizə.

Sayırlar vurğusunu,
Yoxlayırlar duyğusunu!
Bilmirsiz, dinmirsiz!

Damar-damar, sinir-sinir,
Yol tapırlar ölkəniz tək canınıza!
Yavaş-yavaş qarışırlar qanınıza:
Başlayırlar analizə.
Donora dönmüş vətəninizdə,
Donora dönürsüz siz də!
Səksənirsiz, diksinirsiz dinmirsiz!
Ölüsüz, ya dirisiz heç özünüz bilmirsiz,
Bilmirsiz, axı niyə dinmirsiz!

# PLAN DUNYASI

*Pripisqa ilə məşğul olan kolxoz sədrinin*
*ferma müdirinə tapşırığı*

Dünya, plan dünyasıdır,
yalan-palan dünyasıdır.
Yazın, biri-beş yazın,
Beşi on beş yazın.
Təki kağız olsun,
Yazmağa nə var.
Yazın ağ kağızları,
Rəqəmlər çox olsun,
Yazılarda plan dolsun.

Qazanc oldu, olmadı,
Anbar doldu, dolmadı
Siz fərqinə varmayın.
Bekar vaxt aparmayın.
Yüz qoyun,
olsun oyun
Tövlələrə girib çıxsın,
Min baş olsun,
Min camışa,
Min inəyə yoldaş olsun.

Təki plan dolsun.
Qorxmaym ki, bir hay olar,
Dəqiq hesab, say olar.
İşlərimiz zay olar.
Sayda yekun yüz baş olar.
Ölən, itən, "qurd" yeyənlər,
Son hesabda çıxdaş olar.

*1975*

# ÖMRÜMÜN İŞIĞI

# ODLAR YURDU

Odlar yurdu, od-ocaqlı ol belə,
Od üstündə köklənmisən sən elə,
Vaxtı çatıb dost-düşməni xəlbirlə,
Gecə-gündüz alov püskür, od ələ,
Daş-torpağın verilməsin yad ələ.

Od hörülüb bünövrənə, barına,
Övlad gərək bu odundan yarına.
Qurban olum pir qocana, qarına,
Odlar yurdu, od-ocaqlı ol belə,
Gecə-cündüz alov püskür, od ələ,
Daş-torpağın verilməsin yad ələ.

Odlar yurdu-türkün ata ocağı,
Oğuza, Qıpçağa ana qucağı,
Qafqaz dağlarının güney bucağı, –
Gecə-gündüz alov püskür, od ələ,
Daş-torpağın verilməsin yad ələ.

Səndə vardır elə müqəddəs ocaq,
Dostlar isinəcək, düşmən yanacaq,
Günəşdən od alan odun olacaq,
Gecə-gündüz alov püskür, od ələ,
Daş torpağın verilməsin yad ələ.

Odlar yurdu, ulu odun var olsun,
Dostun xoşbəxt, düşmənlərin xar olsun,
Tanrı sənə hər işində yar olsun.
Gecə-gündüz alov püskür, od ələ,
Daş torpağın verilməsin yad ələ.

## QARABAĞA YÜRÜŞ MARŞI

Yəhərləyin atları
Atlar qanadlı olsun.
Yəhərləyin atları,
İgidiər atlı oısun.

Biz türklərin taleyi
Atlara bağlı olub.
Babamız iik türk elə
At üstündə doğulub.

Türklər atlı olanda,
Bəxtləri oyaq olur.
At üstdə olan türkə
Tanrımız dayaq olur.

Yəhərləyin atları,
Döyüşə atla gedək.
Azğın, pozğun düşməndən,
Vətənr azad edək.

Tank getməyən zirvəyə,
At üstündə yeriyək,
Zirvə tutan düşməni,
Zirvələrdən endirək,

Hələ Vətən dardadır-
Nifrətimiz qumbara,
Qəzəbimiz bombadır.
Daşnak-terror yuvası,-

Baxın görün hardadır,
Başda qeyrət havası,
Vuraq qıraq, dağıdaq,
Axı, Vətən dardadır.

Yəhərləyin atları,
İgidlər atlı olsun.
Igidlərin alnından,
Qarabağa gün doğsun,

*2001*

# ŞƏHİD ŞƏHƏRİM

Türkün odası,
Yurdu, yuvası,
Şəhidlər anası
Şəhid şəhərim-
Xocalı.

E'dam olunmuş,
Qanda uyumuş,
Şəhid torpağın
Şəhid baİəsı-
Xocalı.

Sən talanan,
Odlarda yanan,
Yerli-dibli
məhv o!an
Türk dünyası,
Türk odası-
Yurdu, yuvas),
Şəhidlər anası,
Şəhid şəhərim-
Xocalı.

# GEDİRƏM DAHA

*Şe'r xəstələnən zaman yazılmışdır.*

Daha əlvida a Yer, a Göy,
Daha əlvida a doğma, a ögey,
Qoy ağı desin, hönkürsün o Göy,
Mən də bu dünyadan gedirəm daha.

Həkimin zəhməti gedəcək hədər,
Dolub ürəyimə acı bir kədər.
Ümidim qalıbdır təkcə Allaha,
Mən də bu dünyadan gedlrəm daha.

Qalacaq gördüyüm gördüyüm yerdə,
Qalacaq yerində bu Yer, o Göy də.
Gedirəm ki, Tanrım bir də dlrildə,
Mən də bu dünyadan gedirəm daha.

Gedirəm Göyə, Tannm Göydədir,
Gedirəm, gözümdə güllərin rəngi,
Gedirəm, başımda səsin ahəngi,
GedJrəm, qəibimdə sözün çələngi,
Mən də bu dünyadan gedirəm daha...

# YOXSA MƏNİ TANİMADİN

*Torpaqlarımizi işğal edən ermənilər*
*adımıza da, musiqimizə də, mədəniyyətimizə*
*də şərik çıxırlar*

...Adıma şərik çıxıb,
Sözümdən söz tikmnisən.
Tariximə əl atıb,
Arxivimə əl qatıb,
Astanmdan üz tikmisən.
Gəlib müsafir kimi,
Evimə göz dikmisən.
Girib tülkü donuna,
üzünə-üz tikirsən,
Tülkülükdə qalmısan,
Maskanı pis tikmisən.
Gəldin bir qonaq klmi,
Xalqıma oldun yağı.
Tutdun yurdun, torpağın,-
Bu bakirə torpağa,
Dəydi murdar ayağın.
Yurdundan, yuvassndan,
Xalqımı qaçqın saldın.
Guya məndən qisas aidın?
Yoxsa məni tanrmadın?
Mən Türk oğlu- Türkəm,
Tənn yaradan görkəm.

Hələ sənə dinmirəm,
Sənə "tət" də demirəm.
Qonşuya kəc baxma, nadan,
Sonra gözsüz qalarsan,
Əsil layiq olduğun
Cəzalan alarsan.
Unutmusan türkün nə'rəsini,
Coşub, daşıb kükrəməsini.
Oxu "Türkün qızıl kitabi"nı,
Oxu, qaralsın qanın,
Lərzəyə düşsün canın.
Tənı," Qurulan gəmilərlə",
"Dənizləri atlarla keçən",
Atları Elbadan, Visladan, Senadan,
İtildən, Yeniseydən, Lenadan,
Cehundan, Sehundan, hətta Obdan
Su içən
Qıpçaqlan, Səlcuqları,
Peçenekləri, Oğuzlan,
Göytürkləri, Ağ Türkləri tanı,
Tanrı hun imperatorlannı.
Tanı Şimaidan-Cənuba,
Qərbdən-Şərqə,
Yalmanında şimşək çaxan,
Dırnağından alov çıxan,
Yel qanadlı atlar üstə;
Qılıncından qan daman
Fateh türkləri tanımadın?
Yoxsa Qərbdən-Şərqə

Cənubdan-Şimala meydan oxuyan,
Diz çökdürən, töycü alan Atillanı
Unutmusan?
Unutmusan üstünüzdə "Tanrı
qamçısı"
Olan Atillanı?
Söylə, səndə vicdan hanı?
Unutmusan Atilla tək qəhrəmanı.
Unutmusan Qərbi-Şərqə qatan,
At üstündə vuruşan, at üstə yatan,
Çinə- Çin Səddi çəkməyə
məcbur edən
Türkləri unutmusan?
Gec də olsa, bilməlisən
Mən Çingizəm, Batıyam,
Teymuram,
Şərqli-Qərbli Türküstanam,
Mən Turanam, mən Turanam!

## BAŞ, DİL, ÜRƏK NAĞILI

Hansı əsrin,
Hansı ilində,
Hansı ölkənin,
Hansı elində
Ürək-dil arasında,
Dillə-baş arasında
Sərhəd yarandi?
Baş düşünəni, Ürək duyanı
Dil deyə bilmir.
Ürəyi də, başı da
Dil inkar edir.
Dil bildiyi kimi
hərəkət edir.
Öz yükünü götürüb gedir.
Ürək öz dünyasında,
Baş öz dünyasında
Özünü yeyir.
Həkim baxıb diaqnoz qoyur:
Beyin sklerozdu,
Ürək - infarktdır, deyir.
Ancaq Nəsiminin -
Başı, ürəyi, dili
Bir idi, -
Bir zindana vururdu,
Başı düşünəni,
Ürəyi duyanı - dili deyirdi.
Əli yazırdı,
Ölməyə də, ölümə də hazırdı.

## NƏ ALVERIM VAR

Sən demə
Şıdırğı alveri gedən,
Tamah əkən , becərən
İnsanları cəlb edən
Bir bazardır bu dünya.
Mənim bu dünyada
Nə alverim var?!

Əzabları qaynadan,
Əsəbiləri oynadan,
Biş-düşlə baş qatan,
Boş qazandır bu dünya.-
Mənim bu dünyada
Nə alverim var?!

Yaşamaq bir həvəsdir, azardır,
İnsan həyatdan bezardır,
Güclülər - güclü cəlladdır,
Əzrailin adı bədnamdır.
Yediyimiz, geydiyimiz
Alovdandır, oddandır.
Mənim bu dünyada
Nə alverim var?!

# DEMOKRATİYA NƏDİR

Əgər demokratiya lato oynamaqdısa,
Əgər demokratiya demaqoqluqdusa,
Əgər demokratiya kasıb olmaqdısa,
Əgər demokratiya işsiz qalmaqdısa ?
Belə demokratiya kimə gərəkdir?!

Əgər demokratiya nəsə satmaqdısa,
Əgər demokratiya alıb-aldatmaqdısa,
Əgər demokratlya tələ, badalaqdısa,
Əgər demokratiya yada yalaqdısa,
Belə demokratiya kimə gərəkdir?!

## SEVGİ QANUNU (İ.NYUTON)

Bu da birqanundur, əzizim,
Bilsən, pis olmaz.
Desəm, səni çox sevirəm,-
İnanma, aldanma,-
Hər deyilən düz olmaz.
Əgər sevgi-sevgisə,-
Sözü üzə deməyə
Ürək olar, üz olmaz,
Səni,
Sən sevən qədər sevirəm,
Nə çox, nə az.

# QAÇQIN E'TİRAFI

Bu rəhbərlər "tədbirlidir"
Qaçqmlar da səbirlidir,
ATƏT hələ planlar çəkir,
Müxalifət fikirlidir.
Bizə "can-can" deyən çoxdur,
Əməli jş görən yoxdur.

Çadır-çadır düzülmüşük,
Biz həsrətdən üzüimüşük.
Şaxta vurur; yagış döyür,
Cücə kimi büzüşmüşük.
Bizə "can-can" deyən çoxdur,
Əməli iş görən yoxdur.

## SƏN ÇAĞİR

Təki sən
çağır məni,
Səsinə hay verim,
Səsimdən pay verim
Səsinə.
Səsim
Baxmaz sağına,
Baxmaz soluna,
Körpə uşaq kimi qaçar yanına.

# UŞAQLAR TEZ BÖYÜYÜR

*XX əsrin faciələri*

Uşaqlar böyüyür vaxtından əvvəl,
Uşaqlar çox erkən qocalır, Allah.
Uşaq həyatını, uşaq ömrünü,
Davalar xərcləyir, bac ahr, Allah.

Gəlinlər qocalır həsrət içində,
İlllərlə həsrətə dözən olublar.
İllərlə tökülür günahsız qanlar,
İllərlə göz yaşı tökür analar.

İgidlər Vətənə qurban dedilər
Ülvi sevgisini, məhəbbətini.
Sevgi həsrətilə qarıyan qızlər,
Həsrətlə gözləyir səadətini.

Heç "minib" çapmamış qarğı atlan,
Uşaqlar çox erkən qocalır, Allah.
Vətən sevgisinə yıxılan gənclər,
Şəhid zirvəsinə ucahr, Allah.

Uşaqlar çox erkən dəyir yetişir,
Uşaqiar çox erkən kişiiəşirlər.
Vətəni dar gündə görən uşaqlar,
Tez pələngləşirlər, tez şirləşirlər.
Uşaqlar çox erkən kişiləşirlər.

*1993*

## TOYU OLAN QIZA ALQIŞ

Bəxtinə günəş doğsun
Üzün nura boyansın,
Yaşıl işıqlaryansın,
Sənin yolların üstdə.
Oğlun, qızın böyüsün,
Dizin, qolların üstdə.
Gəlin, ay gözəl gəlin,
Toyundur, bəzən, gəlin.
Evdə ocağın isti,
Çıraq işıqlı yansın,
Nişanlın dəli-dolu,
Övladın şirin, şıltaq,
Evin yaraşıqlı olsun.
Gəlin, ay gözəl gəlin,
Toyundur, bəzən, gəlin.

## DUALARIMIZ

İlahi,
Sən yuxarıdasan,
Biz aşağıda.
Böyük kainat var
Aramızda.
Əlimiz çatmır,
Səsimiz  çatacaq sənə
Dualarımızda.
Çatacaq Günəş şüaları tək.
Qəbul et dualarımızı
İnsan duaları tək,
Müsəlman duaları tək.
Haqq işimizdə,
Hər yerdə, hər zaman
Bizə kömək ol.

## OXUCUYA

Dolaşıq yazmıram,
Əlamətlik etmirəm,-
Şe'ri sənə
Sənin dilində yazıram.
Bir az dərinə varsan,
Bir az təhlil aparsan,
Açılar qapısı, pəncərəsi
Görünər iç üzü,
iç mənzərəsi.
Onda bilərsən -
Şair nədir,
Şe'r nədir.
Onda görərsən -
Şair ruhu
Ürəklərdə, evlərdədir.
Uçur Tanrı dərgahında,-
Göylərdədir.

# VAXT AYIRMAYAQ

Papağı qarşıya qoyaq,
Gəlin qanrılaraq,
Bir anlıq geriyə baxaq.
Boş keçən,
Naxoş keçən, Sərxoş keçən
Günləri gün-gün
Arayaq
Saç kimi darayaq.
Belə günlərə,
Bir daha,
Heç zaman
Yer verməyək,
vaxt ayırmayaq.

## PAPAQ TAPAQ

Hərəyə bir papaq tapaq,-
"Qabağımıza" yox,
Başımıza qoyaq.
Kişiliyi dərk edək,
Kişi kimi düşünək.
Silahlanaq.
Bir bayraq altda birləşək,
Azğınlardan,
Quldurlardan,
Mundarlardan
Qarabağı azad edək.
öləndə də
Kişi kimi ölək.

## SIFRA BƏRABƏR

İnsan
Var üçün, pul üçün
divanədir.
Zaman,
hər şeyə
biganədir.
Həyatda
qazandın, itirdin
Nə fərqi ?!
Hər şeyin sonu
Sıfra bərabərdir.

## BOYLANA-BOYLANA

Çoxları
Çox zaman
Gənclik hərarətilə,
Gənciik cəsarətilə,
Qoşulub axına,
Şeirə gəlir.
Şeir dolaylarmda,
Yoxuşlarında
Kimi yolda sönür,
Kirni yandan dönür.
Kimi də eiə-beiə,-
Geri dönməyə üzü olmur,
İrəli getməyə gücü.
Qalır yolda?
Boylana-boylana.

# DOSTLARA

Səhər erkən
Durarsan yerdən,
Çıxarsan evdən,-
Sən taledən xəbərsiz,
Tale səndən xəbərsiz.
Yolda səni nə gözteyir,
Nələr gözləyir,
Kimlər izləyir,
Əsla xəbərin yox.
Qarşına kim çıxacaq?
Yaxana gül taxanmı,
Başına güllə çaxanmı?
Əsla xəbərin yox.
Bir dost kimi
Nə deyə billəm?
Gözlərin nurlu olsun,
Yolun uğurlu olsun.
Gözlənilməz xata-bəladan
Tanrı səni qorusun.
Tanrı məni qorusun.

## YAXŞILIQ ELƏ

Çoban can verər neyə,
Bağban bağda meynəyə,
Böyük Tanrı hər şeyə,
Ömür sürmə elə-belə,
Yaxşıiıq, yaxşıiıq elə.

Al balığı, at dəryaya,
Yardım elə, alma saya.
Allah verər pay paya
Çat köməyə, yetiş haya,
Ömür sürmə elə-belə,
Yaxşılıq, yaxşılıq elə.

Hər yaxşılıq- fədakarlıq,
Fədakar da olmalıyıq.
Ömür sürsək ömrə layiq,
Daha yaxşı yaşayarıq.
Həyat həyat olmaz belə
Yaxşılıq, yaxşılıq eiə.

Dilini ver dilsizlərə,
Əlini ver əlsiziərə,
Bir daxma tik evsizlərə-
Lap dilliyə, dinsizlərə,
Həyat sürmə elə-belə,
Yaxşılıq, yaxşılıq elə.

Hər şeyin bir əvəzi var,
Lakin geci-tezi olar.
Dönər bir gün geri çarxlar,
Sulu olar susuz arxlar,
Həyat sürmə elə-belə,
Yaxşılıq, yaxşılıq elə.

Nə vermisən, verər Tanrı,
Nə almısan, alar Tanrı,
Vermədiyin alanları
Bir gün gözdən salar Tanrı.
Tanrı döyməz elə-belə,
Tann sevməz elə-belə,
Yaxşılıq, yaxşlıq elə.

## OLSA

Ya zəlzələdən,
Ya vəlvələdən,
Ya da ki, qəza-qədərdən
Arada aramsız sərinlik olsa,
Sərinlik böyüyüb,
Uçurum olsa,
Dərinlik oisa,
Məhkəmə qurulsa,
Divan qurulsa,
Birliyə ayrıhq möhürü vursa,
Çiçəklər dibçəkdə ağlayacaqdır.
Həyət-baca da yas saxlayacaqdır.
Tikanlar, qanqallar güləcək bizə
Sahibsiz itlər də hürəcək bizə.
Balağı əlində qaçan xəbəriər,
Kəndlərə, şəhəriərə
Uçan xəbərlər,
Kim bilir nələri uyduracaqdır.
Qatıb bir-birinə qohumu, yadı,
Yalan yedizdirib doyuracaqdır,
Arada vurnuxan qayçı xəbəriər
İstədiyi, birliyi kimi
Ürəkdə qalıb hələ işaran,
İstək tellərini kəsəcəkdir,
Dograyacaqdır.
İndi nə edək, neyləyək,
Bəlkə şeytana
Birgə lə'nət deyək?..

# RƏNGLƏR

Ağ rəng, qara rəng,-
Rəngə dönmüş,
Rəngə çökmüş kainat.
Hərəsi bir tale,
Tale yüklü həyat.
Ömrümüzə ölçülüb,
Boyumuza biçilib,
Alnımıza yazılıb.
Ha çalış,
Ha vuruş,
Tapa bilməzsən
Geriyə yol
Geriyə dönüm yox,
Bax beləcə,
Ağla qara arasında,
Durub üz-üzə,
Gündüzlə gecə,
Kədərlə sevinc.

*2000*

## ƏLİM, QƏLƏMİM

Bir əlimdir,
Bir qələmdir,
Bir parça kağız,
Və bir də fikirlərimdir.
Bir masa arxasında
Dost kimi,
Qardaş kimi
Vermişik baş-başa.
Sağ ol, sağ əlim,
Varol, qələmim,
Yaşa, fikirlərim, yaşa!

# E'DAM OLURAM

Oturub masa arxasında
Şeir yazanda şair oluram.
Misralanıb vərəqlərə doluram
şeir oluram.
Şeir yazmadığım günlərdə,
Evdə, həyətdə, çöllərdə,
İşdə-gücdə
Ailə qayğılarında e'dam oluram,
Mən şair olmuram,
Adi adam oluram.

*2000*

## QORDİ DÜYÜNÜ

Azərbaycan,
Qarabağ qanlı köynəyin,
Qara günün,
Fəryadın, ünün,
Qövr edən yaran.
Əlacı tapılmayan
İnfarktlı ürəyin.
Qarabağ
dolaşıq düşmüş,
dolaşığa düşmüş-
Qordi düyünü,-
Qalması təhlükəli,
Açılması müşkül,
İsgəndər cəsarətli,
İsgəndər qüdrətli
Bir oğul gərək,-
İsgəndər qılıncı gərək-
Zərbəsindən
Düyündə düyünlük qalmasm.
Dolaşıq düşmüş,
Dolaşığa düşmüş
Qarabağ düyünü
Bir də heç zaman
Bizi sarsıtmasın.

# YERİN, GÖYÜN YATAĞI

Yatağı varmıdır
Bu Yerin, Göyün?
Harda yuva qurur,
Harda yurd salır?
Göyün çox dərin
Göy boşluğunda
Yer planetimiz,
Elə hey fırlanır,
Etə hey dolanır,
Fəqət heç nə dəyişmir.
Böyük tarazlıqda
Yer yerliyində qalır,
Göy yerində qalır.
Günəş sistemində
Yer planetimiz,
Aydan dəstək alır,
Günəşdən güc alır.

## MƏNİM VƏKİLİM

Tanımadığım, görmədiyim,
Ərkyana döymədiyim
Qapıları kitabım açır.
Məni tanıtmaga elə-obaya
Misram məndən qabaq qaçır.

Döyür qapıları, ürəklə döyür,
Yağışla döyür, küləklə döyür,
Özünü vəkil kimi öyür,-
Şerim mənim vəkilimdir.

# QATIQ QARADIR

Qul beçələr, beçə qullar,
Bir eyhama, himə bənddir,
Çıxsınlar AZ.TV-yə,
Növbə ilə banlasınlar,
Kimlərinsə buyruğuyla,
Kimlərisə danlasınlar.
Desinlər ki, ay insanlar,
Qatıq qaradır axı;
Qatığa ağ deyirlər,
Həyatı qanmayanlar.
Biz də təsdiq edirik:
Qatıq tamam qaradır,
Qara qatıq bal dadır.
Daydayılar düz deyir,
Müxalifət aldadır.

# DÜNYANIN O ÜZÜ, BU ÜZÜ

Huşum başımdan çıxıbdır, nədir?!
Xəstəlik məni də yıxıbdır, nədir ?!
Yumuram gözlərimi,-
Dünyanın o üzündəyəm.
Ay Allah, nə yaman səssizlikdəyəm,
Ay Allah, necə də kimsəsizlikdəyəm!.
Bəlkə də ruhsuz cəsədəm elə,
Bəlkə də ruham, kölgəyəm elə.
Elə təkəm, elə tənhayam,
Öz-özümü unutmaqdayam.
Bu kimsəsizlikdə,
Bu səssizlikdə,
Dəhşət də, qorxu da var,
Qu desən qulaq tutular.
Yoxdur bu anda yanıma varan,
Yoxdur itirib, məni axtaran.
Özüm-özümü unutmaqdayam,
Bəlkə ölmüşəm, bəlkə yatmışam.
Çığırmağa nəfəsim gəlmir,
Çağırmağa səsim gəlmir.
İlahi! Nə yaxşı ki, özümə gəldim!
İlahi! Nə yaxşı ki, durdum, dirçəldim!
Qorxunu yük kimi çiynimdən atdım,
Özümdə həyata inam yaratdrm.
Dünyaya təzədən gəldim elə bil,
Dünyanı təzədən sevdim elə bil.

Gördüm doğmaları, yadları da,
Gördüm dağları, çayları da.
Gördüm yaylaqlan, bulaqları da.
Dünyada heç nə dəyişməmişdir:
Gərdiş həmin,
Vərdiş həmfn,
İş də həmin işdir.
Gördüm harınlar- həmin,
Kölələr - həmin,
Kefə gedənlər - həmin,
Kefdən gələnlər- həmin,
Küçələrdə
Dilənənlər- həmin...
Mənəm-mənəmlik baş alıb gedir,
Dəllallar, dələduzlar Allahlıq edir.
Yenə də kimlərsə alhaaldadır,
Yenə də kimlərsə yığhayiğdadır.
Nə qədər alırlar gözləri doymur,
Nə qədər yığırlar, gözləri doymur.
Bu mal hərisləri, pul hərisiəri,
Bu kölə hərisləri, qul hərisləri,
Vəzifə kürsüsünü özəlləşdirib,
Pul üstdə kürt yatan,
Bu hərisləri,
Bu idbarları,
Bu kobudlan,
Bu yonulmamışları
Vəzifə kürsüsü gözəlləşdirib.
Bir özləridir, bir boğazları,

Bir də dostları, tanışları.
Bir də öncə ailə qayğıları...
Bəs Vətən kimlərə arxlanasıdır?
Bəs kimlər Vətənə arxa durasıdır?
Millətin qeydinə qalanlar hanı?
Qoşulub dərd-sərinə,
Ağlayanlar hanı,
Sızlayanlar hanı?
İstidə - yanan,
Soyuqda - donan,
Çadırda doğulan
Çadırda solan
Həyatsız həyatı
Dərd kimi ürəyində,
Yük kimi kürəyində,
Saxlayanlar hanı?

# ŞEİR OLMAZ

Şeirdə əmr olmaz,
Xahiş olmaz.
Suall olar,
Nida olar.
Sualla susanda
Nida ilə qışqırar.
Böyüyər, boy atar,
Sualla nida arasında.
Əmrlə yazılmaz,
Xahişlə pozulmaz.
Əmrlə yazılsa-
Yazı olar,-
Şeir olmaz.

## BİLMIRİK

Çəkilib zirvəsinə,
Döyərək sinəsinə,
Arxalanıb kimsəsinə,
Çoxu çox söz deyir,
Anlaya bilmirik.
İşləri bir iş kimi,
Səhmanlaya bilmirik.
Dostu-dost kimi,
Yadı da yad kimi,
Düşməni istibdad kimi
Tanıya bilmirik.

Arxalanıb kimsəsinə,
Döyərək sinəsinə,
Çəkilib zirvəsinə,
Səs çatmır, əl yetmir,
Tutub yaxasından,-
Döyə bilmirik,
Söyə bilmirik,
İşlərimiz tərs gedir,
Nə edirik, əbəs gedir.
Səhmanlaya bilmirik,
Tamamlaya bilmirik,

Çərxi-fələk qan edir,
İnsana divan edir.
Gücümüz çatmır,
Əlimiz yetmir,
Tutub yaxasından-
Belə-belə olmuş deyib
Döyə bilmirik,
Söyə bilmirik.
Allaha pənah,
Allaha pənah deyirik!

## GƏLƏNDƏ

Yanıma
Məni duymağa
Dərk
etməyə gəl.
Təkcə
Kefini götürüb gəlmə.
Kefin kefimi
korlaya bilər.
Kefin kefimi ovlaya bilər,
Yanıma
Tək kefini götürüb
Gəlmə, -əzizim
Məni duymağa,
Məni dərk etməyə
gəl.

# GECƏ YUXULARINDA

Çox arzu çin olur,
Gecə bizimçin olur.
İstəklər çin-çin olur,-
Gecə yuxularında.

Nə olur, necə olur,
Soruşanlar bəs hanı?
Yoxdur qoruq-qaytanı,
Yoxdur ara qatanı.
Bir sənsən, bir də mən -
Gecə yuxularında.

Çox əlçatmazlar
əl çatan olur,
İpə-sapa yatan olur,
İnsan sevgi tapan olur
Gecə yuxularında.

*2002*

## BAHARDA

Təbiət şən oyanar,
Gül bələkdən boylanar,
İlk bahann eşqinə,
Çaylar coşar, çağlayar.
Bahar həyat, nəfəsdir
Tez gəlsə, yaxşıdır,
Geciksə, pisdir,

Əkinçi gözlər yazı,
Ərgən qızlar payızı,
Hər kəsin öz arzusu,
Hər kəsin öz avazı,-
Hamı yaza tələsir,
Bahar kefdir, həvəsdir,
Tez gəlsə yaxşıdır,
Gec gəlsə, pisdir.

Ömürdə ucalıq var,
Ucalıqda qocalıq var.
Ölüm adlı yuxular,
Yuxularda qorxular,
Bu nişanda hər nə var-
Bəddir, nəhsdir;
Geciksə, yaxşıdır,
Tez gəlsə, pisdir.

*1990*

## ROK ŞOU

Bu dəli dünyanın,
Dəli mahmlan,
Dəli rəqsləri
Məni-məndən,
Səni-səndən
Gopardı-
Öz qoynuna apardı.
Maykl Cekson əkdi,
Bu dəli rəqsləri,
Dəli mahnıları,
Dəli sevən insanların
ürəyinə, arzusuna.
Gücün çatır, dözürsən,-
Baxma, qulaq asma ona.

# RƏSÜL RZA ZİRVƏSİ

*Kimlər gəldi bu dünyaya,*
*Kimlər getdi bu dünyadan.*

Getdi, getdi
Bu dünyadan,
Rəsul Rza da getdi.
Dünyada
Rəsul Rza dühası qaldı.
Düha zirvə yaratdı,-
Rəsul Rza Zirvəsi,
Qafqaz dağlarının
Silsiləsində,
Bir dağ da yarandı,-
Bir Zirvə də artdı.
Bu dağı,
Bu zirvəni
Rəsul Rza yaratdı.

# BAXA BİLMİRƏM

Təzadlı üzlərə
baxa bilmirəm;
Təzadlı üzlərdə,
Təzadlı gözlərdə,
Təzadlı dünyanın
Təzadlı üzü görünür.
Təzadlı gözlərə
baxa bilmirəm;
təzadlı gözlərdə
təzadlı dünyanın özü,-
iç üzü, çöl üzü
təzadlı görünür,
Görürsənmi qadını,
Necə porsuyub,
Necə pırsıyıb!..
Üzündən sevinc püskürür,
Gözündən sevinc püskürür,
Sözündən sevinc püskürür.
Ədası boynundan boylanır,
Ədası qolundan,
barmaqlarından,
qulaqlarından boylanır,
Soxulur gözlərə,
Gözləri qamaşdırır,
Üzləri qamaşdınr,
Ürəkləri alışdırır,

Görənləri çaşdınr.
Dar gəlir
Ədası əndamına,
Əndamı dar gəlir
Paltarına, şalvanna.
İndi qalx,
Yanındakı qadına bax:
Dünyanın dərd yükü,
Namərd yükü
Çöküb çiyinlərinə ,
Çiyinləri bükülüb,
Həyatın dərdi-qəmi-
Ərimiş qurğuşun,-
Kürəyinə yığılıb,
Ürəyinə tökülüb.
Üzündən kədər kölgəsi,
Gözündən qayğı boylanır.
İçi, için-için yanır,
Canlı qəm heykəlidir,
Ayaq üstdə dayanır.
Üzündən qəm,
Gözündən kədər boylanır.

*1999*

# UTANDI GECƏ

Bu gecə,
Ağlı çaşmış,
Həddini aşmış,
Küçələrdə, bulvarlarda,
Barlarda,
Sarmaşıqlaşmış
Harın insanlann
Harınlığına
Dünya görmüş qarı kimi
Utandı gecə.
Çılpaq çiyinləri,
Açıq budları-yambızları?
Bütün həyasızlıqları
Bükdü qeyrət ətəyinə,-
Qayğıya qaldı gecə.
Sakitcə
Örtüldü üstünə
Bulvarların da,
Örtüldü üstünə küçələrin də,
Örtüldü üstünə barların da,
Örtüldü üstünə evlərin də,
Və beləcə
Abırsızhq,
Həyasızlıq dolu bir şəhəri
Abıra saldı gecə.

## YAŞADAQ

Gecəni qara çadır kimi
Üstünə atıb,
Şəhərlər, kəndlər,
Obalar yatıb.
Gecə quşlarının
Qərib səsləri,
Qaranlığın qoynundan gəlir.
Sakit gecənin bağrını dəlir.
Bilirsənmi, əzizim,
Keçibdir gecənin çoxu.
Oturub-durub saatlarımı sayaq?
Sən də oyaqsan, mən də oyaq,
Ərşə çəkilib yuxu.
Dur gəl yanıma,
Ay evi abad,
Bu gecə
Mən səni yaşadım,
Sən də məni yaşat.

# ALLAHA YALVARIRIQ

Xoş işi də, şər işi də,
Dövram da, gərdişi də,
İndini də, keçmişi də
Tanrımıza bağlayınq,
Sevinirik, ağlayırıq.

Qaçanda da, qovanda da,
Alanda da, satanda da,
Yatanda da, duranda da.
Sevinirik, ağlayırıq,
Tanrımıza yalvannq.

Geniş dünya dar olanda,
Yollar şaxta, qar olanda,
Darda qalıb darılanda,
Sevinirik, ağlayınq,
Tanrımıza yalvarırıq.

# BƏLƏDÇİ

Şair
öz şe'rinin,
öz imzasımn,
öz yazısının
bələdçisidir.

Bələdçi bələd olsa,-
Yaxşı bələdçi olsa,
Dolaşıb düzdə qalmasa,

Göydə lələk, yerdə dırnaq
salmalı olsa,
Ürəklər açılar üzünə
Məscid qapıları kimi.

Şair olan öz şeirinln
Əsiridir, köləsidir, kölgəsidir.
Şeir şairin ilham pərisidir,
Həyat şəcərəsidir.

# YAŞAYIR İNSAN

Gecə də, gündüz də
Günəş ətrafında
Fikirli-fikırli
Dolanır, fırlanır
Yer kürəsi.
Özü susur,
İçi hayqırır;
HİkkƏsində - vulkan,
Qəzəbində - zəlzələ,-
Səthinə
Dalğa-dalğa yayılır.
Səssiz-səmirsiz,
Fikirli-fikirli
Dolanır Günəş,
Alışır Günəş,
Yanır Günəş;
İçində atəş, çölündə atəş.
Yeri uşaq kirni bələyir
şəfəqiərinə.
Başı üstündə dayanır,-
Ana kimi halına yanır.
Ayağı yerdə, əli günəşdə,
Ürəyi narahat, qəlbi təşvişdə,
Bükülüb fikirlərinə,
Qoşulub dərd-sərinə,
Fikirli-fikirli Yol gedir, yaşayır

İNSAN.
Fikirlərin, dərd-sərin
tutub əlindən,
bələdçisi olub,
köməkçisi o!ub,
Örnrü uzunu, ömrü boyunca
Yer, Günəş əbədiyyəti,
Tanrı hikməti, Tanrı ədaləti,
Həyat səadəti
Axtanr, arayır İnsan.
Araya-araya
Ayağı torpaqda, əli Günəşdə,
Ürəyi narahat, qəlbi təşvişdə-
Yaşayır İnsan, yaşayır İnsan,

* * *

## İŞLƏNDİKCƏ ÇOXALAR

Hər şey işləndikcə azalar,
Söz işləndikcə artar, çoxalar.

# MƏNƏ İŞİQ GÖSTƏRİN

Mənə işıq göstərin,
Elə bir işıq-
İşığa bürünüb
Yol gedə bilim.
Getdiyim yolları
Dərk edə bilim.

Mənə işıq göstərin,
Elə bir işıq -
Axıb qəlbimə dolsun,-
Ürəyim məş'ələ dönsün.
Mən də işıq paylayan olum.
Ürəyimin işığında
Yol gedə bilim.
Getdiyim yollan
Dərk edə bilim.
Mənə işıq göstərin,
Elə bir işıq-
Tanrı dərgahına,
Tanrı işığına
Yol gedə bilim.
Getdiyim yolları
Dərk edə bilim.

# NİKBİN MƏCLİS

Keçdi şad-xürrəm qurulmuş məclis,
Məclisə yol tapmadı fitnəkar iblis.
Məclisdə çox sözlər, söhbətlər oldu,
Badələr boşaldı, badələr doldu.
Neçə sağlıq-sağlıqlara qarışdı,-
Badələr söz aldı, bir-bir danışdı: –
Biri and içdi, yalan uydurmaq üçün,
Biri and içdi - yalanı doğrultmaq üçün.
Biri and içdi, birini susdurmaq üçün,
Biri and içdi, ac gözünü doydurmaq üçün.
Biri and içdi, günahlarını atmaq üçün,
Biri and içdi, məqsədinə çatmaq üçün.
Məclis sona yetdi, getdilər razı,
Xoşlandı hamının sağlıq avazı.
Günahkarlar özünü günahsız bildi,
Ancaq həqiqətdə - belə deyildi.
Keçdi şad-xürrəm qurulmuş məclis,
Məclisə yot tapmadı, fitnəkar iblis.

## XATİRƏLƏR

Bir deyil, iki deyil, min-mindir,
Ürəkdə ən əziz dəfinələrimdir.

## TƏNBƏLİN ARZUSU

Təbiət, sərtləşmə, ürəyim xal-xal olur,
Sənin gözəlliyin gözümdə xəyal olur.
Şaxtaya nifrətim var,
Küləklə yoxdur aram.
Çox soyuq, çox isti,
            dözülməz bir hal olur,
Dünyanı mən istərəm yorğanın altı kimi,
Nə isti, nə də soyuq,
hamama misal olur.
Qoysalar, mən gedərəm,
            qalaram Dubayda,-
Qışı da, payızı da bahara timsal olur.

## SÖZ ALIRAM

Çalışıram, vuruşuram,
Qoşulub
Gecə-gündüzə,
Çevirib o üz, bu üzə,
Sözdən söz alıram,
Bəzəyib, düzəyib
Sözü kökə salıram.
Sözdən qanad taxıb,
İlahi sözün
Fövqünə varıram,
Sözdən söz dərirəm,
Sözdən söz alıram.

## PAY DÜŞƏR

Kimin sevinc dolu
Üzünə baxsam,
Kimin sevinc dolu
Gözünə baxsam,
Üzüm gülər,
Gözüm gülər,
Könlüm gülər.
Mənə də
Bu sevincdən,
Bu gülüşdən,
Bu səadətdən
Pay düşər.

# ƏRLƏ ARVAD

Ərlə arvad
Bir bədəndə
İki qol kimidir.
Ərlə arvad,
Ömrün bu başından
O başına-
Arzulara uzanıb gedən,
Dəmir yolu kimidir.
Ərlə arvad,-
Yeni bir həyatın ilk özülüdür.
Bütün ağırlıqlara
Dözən, sinə gərən,
Bir evin dörd divarı kimidir.
Bu evi tikən, quran,
Həyat üçün külüng vuran
Yaradıb, quran,
İki əl kimidir.
Tək qadın-
Bir qolu olrnayan,
Bədən kimidir.
Tək qadın,
Göyündə günəş olmayan
Yer kimidir.
Tək qadın
Bayatı haraylı şeir kimidir.
Tək qadın
Oyunçusuz meydan kimidir,

Səhrada tək qalmış ceyran kimidir,
Gəlin , tək qadınlara arxa olaq,
dayaq olaq,
Əl olaq, ayaq olaq.

## VAXT ÖLDÜRƏNLƏR

Vaxt öldürmək üçün
Toya gedənlər,
Vaxt öldürmək üçün
Kinoya gedənlər.
Şəhərdən-şəhərə
Səfər edənlər,
Vaxtı öldürmək olmaz.
Vaxt-vaxtında gələcək,
Vaxt-vaxtında gedəcək,
Heç kəsi, heç kimi
Gözləməyəcək.
Ancaq
Vaxt sizi
Qova-qova, döyə-döyə,
Bəlkə də sevə-sevə
Vaxtında öldürəcək.

## DƏVƏDƏN SARBANA GİLEY

Bir ağasan, insafın yox,
Hikkən də çox, ədan da çox.
Məni uzunqulağın
"Yedəyinə bağladın."
Guya mənə
Gün ağladın.
Nə edə bılləm?!
Mənim "ipim" sənin əlində,-
Sənin "qapazın"
Mənim başımda.
Ya qapaz yeyə-yeyə
Dolanmalıyam, yaşamalıyam,
Ya
İlgəyi boynumda,
Ucu sənin əlində olan
İpi dartıb, dartıb
qırmalıyam,
Ya da, ya da ki,
Bu dünyanın acığına,
Fələklərin acığına,-
İntihar etməliyəm-
Bu dünyadan
Vaxtsız getməliyəm.

## GÖZLƏYİRİK

Zaman gücəndi, gücəndi,-
İki uşaq doğdu:
Demokratiya, azadhq
Donunda,
Biri kar, biri kor.
Kar deyiləni eşitmir,
Kor baxır, baxır, görmür.
Qalmışıq
Karla kor arasında.
Aşağı tüpürürük,-
düşür saqqala,
Yuxan tüpürürük -
düşür bığa .
yaşayınq boğula-boğula.
Zaman hamilədir:
Gözləyirik
Üçüncü uşaq doğula.

*1993*

## BU ŞƏHƏRDƏN GEDİM

Gedirəm,
solum şər,
sağım şər,
Qarşıda
Qırmızı işıqlar
Yanır.
Nə edim,
Hara gedim?
Tanrım mənə
Qanad göndər,
Uçum, bu şərdən,
Bu yerdən gedim.

***1992***

# BƏZƏN BELƏ DƏ OLUR

Əvvəl tanış deyildik,
Tez-tez gələrdin, görüşərdik .
Ordan-burdan danışardıq, şeir
deyərdik.
Söhbət edərdik.
İndi tanışıq, yaxınıq, mərhəmik,
Həmdərdik, həmrəyik.
Çox mətləblərdən
Söhbət açırıq,
Lakin çox vaxt
Məcnun Leylidən qaçan kimi
Bir-birimizdən qaçırıq.

# BAKIDA ZƏLZƏLƏ

***25 noyabr 2000-ci il tarixdə Bakı şəhərində güclü - 6,2-6,5 ba! gücündə zətzələ baş verdi.***

Yer yerindən oyandı,
Yer yerindən oynadı,
Tanrı qəzəbi tutdu,
Yer yerini unutdu.
Göy Yeri atdı, tutdu;
Evləri tökdü küçəyə,
Evləri çırpdı küçəyə,
Evləri səpdi küçəyə,
Şəhər düşdü lərzəyə.
Allah amandı,
Axır zamandı,
Özün yetiş köməyə.
Bizə yazığın gəlsin,-
Xilas et Yeri də,
Xilas et bizləri də.
Şəhər düşdü lərzəyə,
Allah yetiş köməyə.
Bizə qəzəbin tutdu,
Yer yerini unutdu,
Yer özünü unutdu.
Göy Yeri atdı, tutdu.
Evlər əsdi, titrədi,
Şəhər qalxdı yeridi.

Bağrı yarılan oldu,
Allah yetiş köməyə.
Allah xilas et Yeri,
Xilas et bizləri də.
Yeri saxla yerində
Göyü saxla yerində,
Qoyma nizam pozula.
Yeri lərzədən qoru,
Bizi ölümdən qoru
Zədədən qoru

## QÖYLƏRİ SEVƏCƏK BU QIZ

*1997-ci il. 1 №-li "ULDUZ" jumalının*
*arxa üz qabığındakı rəsm əsərindən.*

Şəhərdən çıxıb, dənizdən çıxıb,
Ağ göyərçin dəstəsindən çıxıb,
Günəşin qumlu kölgəsindən çıxıb,
Dənizin mavi gözündən çıxıb,
Göyərçin tək qanad açacaq bu qız,
Baş alıb göylərə uçacaq bu qız,

Aman, bu qız uçacaq,
Quşlara qovuşacaq.
Bizi tənha qoyacaq.,
Günəşə qaçacaq bu qız.

İndi qanadlanıb, gedəcək,
Günəşi, göyləri sevəcək,
Bir daha yerə enməyəcək.
Bir ulduza dönəcək bu qız,

Bu qızda göyərçin xisləti varmış,
Bu qızda göyərçin surəti varmış,
Bu qızın fəzalıq qisməti varmış,
Qayıtsa, qızlara qoşulmayacaq bu qız,
Əbədi göylərdə qalacaq bu qız.

Bəlkə də göyərçin yaranıb çoxdan,
Bəlkə də qanadı yaranıb çoxdan,
Göydə də quşlara qoşulub çoxdan,
Uçur, quş olub gedir,
Quşlara qoşulub gedir.
Bu qız havalanıb gedəcək,
Göydə uçanları ötəcək,
Daha göylərin olacaq bu qız,
Ay olub, ulduz olub,
Göylərdə qalacaq bu qız.

## AĞACLARIN TANRISI

Ağacların da
Tanrısı var.
Tanrıya doğru
Uzanır, ucalır,
Boy atır onlar,-
Boy atır ki,
Tutsun, öpsün
Tanrının
Gözə görünməyən
Əllərindən,
Ətəklərindən,

# DESƏN DƏ YAZA BİLMƏRƏM

Desən mənə var yeri,-
kağız gətir,
qələm götür,
Bır il əvvəldən
yazdığın şeri ,
Bir də olduğu kimi
Təzədən yaz.
Vallah, düz deyirəm,
Bu mümkün olmaz,
Günlərlə otursam da,
Eiə bir şeir
Olduğu kimi,
Təzədən yazılmaz.
İnan mənə,
Şeirin də
Oz yazılma taleyi var,-
Vaxtı, günü var, ayı var.
Öz vaxtında yazılmayanlar
Yazılsa.
Bəlkə də dünyaya
Ölü doğular.

## ÖYRƏTDİLƏR

Babama farslar
"Zəbani-fars"! öyrətdilər.
Atama ruslar
"Russkiy yazık" öyrətdiiər.
Farslar, ruslar qovuldu,-
Qaçıb getdilər.
İndi türkcəni icad etmədəyəm,
İndi türkcəni Türküstanda
Abad etmədəyəm.
İndi türkə
"Türk dili" öyrətmədəyəm.
İndi
Turanda-Türküstanda
"Yaşa, böyük, ulu
Türklərim!"- deyirəm
Və bu böyüklüyə, ululuğa
Mən də baş əyirəm.

# ŞEİR TALEYİ

Şe'rin
yazılma taleyi,
vaxtı, zamanı var.
Çox gözəl olur,
Zamanı, vaxtı
Qabaqlayanlar.
Vaxtında yazılan şe'r,
Vaxtında doğulan
Uşaq kimidir.
Hər yaz
Biçilmiş zəmidən
Yığflan başaq kimidir:
Çoxdur zəhməti də,
bərəkəti də,
hörməti də.
Vaxtında yazılmayan şeir,
Daldan atılan daş kimidir.
Vaxtında yazılmayan şeir,
döyüşdən sonra,
dönüşdən sonra
başlanan savaş kimidir.
Şeirin yazılma taleyi,
Vaxtı, zamanı var.
Cox gözəl olur,
Zamanı, vaxtı
Qabaqlayanlar.

Ürəkdə yetişməyən,
bişməyən fikir
yanmçıq doğulan uşaq kimidir,-
həyatı tükdən asılı,
saatdan, gündən asılı,
"Olum"dan) "Ölüm"dən
Asılı

# MƏN ŞEİR YAZMIRAM

Mən şeir yazmıram,-
Eşitdiklərimi,
Gördüklərimi,
Bildikiərimi,
İlahi hisslərimi
Kağıza köçürüb
Şəklini çəkirəm.
Mən şeir yazmıram,-
Cücərsin deyə,
Göyərsin deyə,
Bar versin deyə
Sözü kağıza
Dən kimi səpirəm,
Tum kimi əkirəm.

## YAŞIM, AD GÜNÜM

Yaşım-ad günüm,
Gəl Yeni ildə
Biz qoşa duraq,
Qoşa oturaq,
Dolu badəni
Sağlığa vuraq.
Bağışla məni,
Səni sükutla
Qarşılayıram.
Sükut içində
Səni ürəkdən
Alqışlayıram.
Təki sən yaşa,
Təki sən sağ ol-
Sən görüşə gəl,
Otur yanımda.
Mən də dincəlim,
Sən də bir dincəl.
Biz qoşa duraq,
Qoşa oturaq.
Dolu badəni
Sağlığa vuraq.
Belə unudaq,
Belə dünyanın
Ağrılarını,
Acılarını.

Belə ımudəq,
Belə dünyanın
Hələ qövr edən
Yaralarını-
Çapıqlarını.
Yaşım- ad günüm
Gəl, oyaq qalaq.
Yeni ili də,
İlk səhəri də
Bir qarşılayaq,
Bir alqışlayaq...
Səni sevəcəyəm,
Əzizləyəcəyəm.
Yolunu hər il
Gözləyəcəyəm.

## SƏBRİM SAXLAYIR

İlahi,
Qəmli üzləri,
Kədərli gözləri,
Göstərmə mənə.
Kədərli üzləri,
Qəmli gözləri
Gördüyüm zaman
Dərdim ağlayır.
Dözə bilmirəm,-
Ürəyim partlayır,
Bağrım çartlayır,
Məni bu bəladan,
Səbrim xilas edir,
Səbrim saxlayır.

# MƏN SİZİNLƏYƏM – OXUCULAR

Söz məclislərində,
Saz məclislərində
Sözüm sözünüzə
Qarışa bilsə
Mən sizinləyəm.
Küsənlər dil tapıb
Barışa bilsə,
Mən sizinləyəm.
Hər zaman, hər yerdə-
Bir cənnət guşədə,
Bir dilbər yerdə
Mən sizinləyəm.
Bəlkə də çatlayar
Əlimdə qələm,
Sizin sevginizdən
Uzağa düşsəm.
Sizi Allah saxlasın,-
Min budaq olun,
Sizsiz mən də
Mən deyiləm.

## KÖRPƏ

Körpə gəlir həyata,-
Ev-eşik şənlənir,
Küncdə beşik şənlənir.
Evdə pişik şənlənir.
Körpə gəlir həyata,-
Böyüyür,-

Arzusu da böyüyür,
İstəyi də böyüyür,
Sevgisi də böyüyür.
Ya bir evə gəlin gəlir,
Ya bir evə gəlin gedir,
Ya da bir evə
Gəlin gətirir.

## SEVGİ GÖYƏRƏR

Məni məndə seç,
Məndə axtar, məndə ara;
Getmə,
Getmə uzaqlara.
Dönüm aləmində
Sözə, duyğuya,
Dönüm aləmində-
Şirin yuxuya,-
Yuxunda qalım,
Sənə yaxında qalım,
Düyməlænim,
Yaxanda qalım.
Yaşayaq bir-birimizdə,
Yaşayaq öz-özümüzdə.
Gözlərimiz, diqqətimiz
Olsun üzümüzdə,
Olsun hüsnümüzdə.
Yeni hisslər,
Yeni duyğular
Yaranar bizdə.
Məhəbbət cücərər,
Sevgi göyərər ürəyimizdə.

# ARI

İlahi, bu həşəratda
İlahilik vardır,
Təbibdir, əczaçıdır, memardır.
Baxmaz istiyə, küləyə,
Baxmaz kənar köməyə,
Uçar yaxına, uzağa,
Uçar arana, dağa,
Qonar gülə, çiçəyə,
Səher tezdən təzə-iər.
Dimdiyi bal yığar,
Quyruğu zəhər.
Balı də, zəhəri də
Şəfa verər,
Şəfa gətirər
Həyat həyatda ehtiyacdır,
Həyat- bala da möhtacdır,
Həyat - zəhərə də möhtacdir.

## AY CAN, AY CAN

Ömrümüz, günümüz xoş idi bir vaxt,
Çox sabit axara düşmüşdü həyat.
Qaygısız, qorxusuz yaşardıq onda,
Hamımız cənnətdə, mələk donunda.

"Bir yerdə yaşardı qurd ilə əmlik"-
Ölkədə yox idi mənəm-mənəmlik.
İşlərdi beynimiz, əlimiz onda,
Dinc idi çənəmiz, dilimiz onda.

"İndi köləlikdən azad olmuşuq",
qəlbən sevinmişik, çox şad olmuşuq.
Qadınlar "zövq ilə bəzənir" indi,
Dubayda zövq ilə "yar' gəzir indi.

İndi ölkələri qabaqlamışıq,
Çoxundan çoxlu da saqqız almışıq,
İş nə, iş nə mənə?- yatıb dururuq,
Gecə də, gündüz də gövşək vurunıq.
Saqqızdan doymuşuq biz,
ay can, ay can,

Ağlı dinc qoymuşuq biz, ay can, ay can.
Biz saqqız içirik, saqqız yeyirik,
Üfürüb, köpürüb ağız əyirik.
Yeni bir inkişaf yolu tutmuşuq,

İş nə olduğımu tam unutmuşuq.
Gecə də, gündüz də çənə işləyir,
Çay, çörək pulumuz alverdən gəlir,
Məktəbdən "küsmüşük", dərsə getmirik,

Elmə biganəyik, elm əxz etmirik.
Alverə uymuşuq biz, ay can, ay can,
Dərsi unutmuşuq biz, ay can, ay can.
Elmi dinc qoymuşuq biz, ay can, ay can

Ömrümüz, günümüz xoş idi bir vaxt,
Çox sabit axara düşmüşdü həyat.
İşlərdi beynimiz, əlimiz onda,
Dinc idi çənəmiz, dilimiz onda...

# SÖZ DEDİM

Söz dedim, şeir yazdım,
Sözlər- sözlə ballandı.
Kimi içdi, ağız büzdü,
Kimi içdi, hallandı.
Sözüm neynim, şeirim neynim,
Şeirə düşüb mənim meylim.

Söz dedim, şeir yazdım,
Şeirlərim budaqlandı.
Kimi gəzdi budaq-budaq,
Kimi budaqdan sallandı.
Sözüm neynim, şeirim neynim,
Şeirə düşüb mənim meylim.

Sözün -sözdən budağı var,
Sözün -sözdən qulağı var,
Sözün sözlü dodağı var.
Sözüm neynim, şeirim neynim,
Şeirə düşüb mənim meylim.

Söz dedim, şeir yazdım,
Söz-sözlə kündələndi,
Söz-sözlə şöləlşndi.
El-obaya nur ələndi,
Xain, xəbis hədəfləndi,
Alçaq, satqın "güllələndi".

Sözüm neynim, şeirim neynim,
Şeirə düşüb mənim meylim.

## LƏ'NƏT ŞEYTANA DE

İstəyirsən qoruyasan başını,
Atma hər yetənə qəzəb daşını,
Lə'nət şeytana de.
Qəfildən silləlenmək,
Qəfildən güllələnmək
istəmirsən,
Arxalan səbrinə,
Güvən səbrinə,
Sıx qəzəbini,
Sıx yəy kimi
Yığ ürəyinə,
Lə'nət şeytana de.

## YAVƏRİN SÜRÜCÜSÜ

Dörd təkərli balaca
Maşını var Yavərin.
Bas sarı düyməsini,
İşığı yanasıdır.
Maşının sürücüsü
Yavərin anasıdir.

# BORC ALDIQ

Köhnə, uzaq dostuma,
Bir gün qəfil rast gəldim.
Sevinc üstə kökləndim,
Dinə, imana gəldim,
Sanki birdən dirçəldim.
Şad görüşdük, öpüşdük,
Gənclik həddinə düşdük.
Təzədən cavanlaşdıq,
Yenə tələbə olduq,-
Bir partada oturduq.
Dedim , gidi dünyada
Yaxşı ki, sag qalmışıq.
Sən də, mən də həyətdə,
Ölümü aldatmışıq.
60 yaşı adlayıb,
yetmişə yol almışıq.
Əzrail dəftərində
Çoxlu qaib qoyubdur.
O bizi axtarmaqdan,
Bəlkə cana doyubdur.
Ömrü uzatmaq üçün,-
Biz Tanrıya yalvardıq,
Yenə ömür borc aldıq.

## BİR GÜN

Göz qapaqların qapanar bir gün,
Qapanar meşin qapılar kimi.
Qalarsan qapanmış göz arxasında,
Dunyadan təcrid olarsan onda.
Dünyada dünyasız qalarsan onda.
Gəzdiyin şəhərlər arxada qalar,
Mindiyin kəhərlər arxada qalar,
Keçdiyin küçələr arxada qalar,
Günlərin cəmlənər arxada qalar,
Hər şey qalar qapanmış, gözlərin
Qapaqları arxasında.
Yenə insanlar yaşayar,
Yeni insanlar yaşayar,
Sən yaşayan şəhərdə,
Gəzərlər sən gəzən küçələrdə.
Köçürərlər səni sən yaşayan şəhərdən,
Keçirərlər səni sən keçən küçələrdən.
Apararlar qəmlə yüklənmiş,
Kədərlə köklənmiş,
Eyni küçəli,
yan-yana cərgələnmiş,
Sükuta qərq olmuş,
Sükutdan gözləri dolmuş,
hənirsiz, səssiz,
daşları gün doğana boylanan,
Sakinləri sükutlara qərq olmuş,
dərdi-səri unutmuş,
Var-dövlət gərək olmayan,
Allahdan başqa kömək olmayan
Qədim şəhərin təzə "mənzilinə".

# BOYNUMA GÖTÜRDÜM

Necə ki, gənc idim,
Deyirdim, gülürdüm,
dingildəyirdim.
Yorğunluq bilmirdim.
Kəndləri, şəhərləri
Dolanardım doyunca.
Tullanırdım hündürə -
Hündürlüyüm boyunca,
Kim "yoruldum" deyərdi,
Qəlbim şübhə edərdi:
İnsan da yorularmı?
Yorulmaq da olarmı?
Elə ki, altmış yaşı,
Başa vurdum, ötürdüm,
Yorğunluğu yük kimi,
Öz boynuma götürdüm.

# BAHAR GƏLƏNDƏ

Gələndə bahar
Çoxalar sular
Baş alıb axar
həsrətdən
cadarlanmış,
çat-çat olmuş,
susuz torpağın
dodaqlarına,
İnsan həvəsi,
insən nəfəsi,
insan qayğısı,
əl verər,
əl tutar,
torpaq sudan barınar.
İnsan oğlu,
İnsan qızı,
Məhsul dərər,
Ruzi yığar, yarınar.

# QƏZƏBLƏNMƏK İSTƏMİRƏM

Mən, qəzəblənmək,
qəzəbli insan görmək
istəmirəm.
Qəzəb ürəklərdə
Dərdə yurd olur.
İnsanı içdən yeyən,
Dildən qurd olur.
Sən məni nə hirsləndir,
Nə də qəzəbləndir.

Mən hirslənmək,
Qəzəblənmək istəmirəm.
Hirsdən, qəzəbdən mən
Ölmək istəmirəm.
Sən də pis olma,
Sən də qəzəblənmə.
Hirs-qəzəb dolan ürək,
Ürək deyil, daş olar,
harda olsaq, hara getsək,
Yolda bizə yoldaş olar.

# 50 YAŞDAN O YANA

Ömür yarı olubsa,-
demək qatar yoldadır.
Yolun uzaq olsa da,
Şpal günlərin üstdə,
Sərt rels illərin üstdə,
Çatar mənzil başına.
Yola çıxdın vida de,
Yarına, yoldaşına.
Yollar e'tibarsızdır,
"Ömür də vəfasızdır."



## ÇEÇEN OLMAQ İSTƏYİRƏM

Cəsarətdə, qeyrətdə,
Mərdlikdə, mətanətdə.
Şücaətdə, məharətdə
Çeçen olmaq istəyirəm.

Döyüşlərdə, vuruşlarda,
Düşmən üstə yürüşlərdə,
Düşmənlərlə görüşlərdə
Çeçen olmaq istəyirəm.

Tarixdədir - səsim, küyüm,
Bozqurdluğum və türklüyüm.
Torpaqlarım yad əllərdə,
Özümə türk necə deyim?-
Çeçen olmaq istəyirəm.
Çeçen ölmək istəyirəm.

# YUXUM ŞİRİN OLUR

Yuxularım şirin olur,
Sən yuxuma girəndə.
Yanımda yerin olur,
Sən yuxuma girəndə.

Pünhan görüş yeridir,
Uzun gecə yuxuları.
Şirin öpüş yeridir,
Üzun gecə yuxuları.

Çox arzu çin olur,
Gecə bizimçin olur,
İstəklər çin-çin olur.
Bu gecə yuxularında,

Nə olur, necə olur,
Soruşanlar de, hanı?
Yoxdur qoruq-qaytanı,
Yoxdur ara qatanı,
Bir sənsən, bir də mən,
Bu gecə yuxularında.

# BOŞLUQ VAR İDİ

*Özünü tanıyan Allahını tanıyar.*
*Həzrət ƏLİ (ə)*

Elə ki, dünyaya gəldik,
Elə ki, dünyanı dərk etdik,
Onda anladıq, bildik
Boşkuq var, boşluq,
Ürəyimizdə,
İnamımızda,
İmanımızda.
Boşluq var, boşluq
Səbrimizdə, gümanımızda.
İçdiyimiz andımızda
Tanrı boşluğu var.
Yaxşı ki,
Cücərdi ürəyimizdə,
Göyərdi dilimizdə
Tanrının adı.
Daha ürəyimizdə də,
Daha dilimizdə də
Boşluq olmadı,
Boş yer qalmadı.

*1994*

# ONA SİZ DEMƏDİM

Ona "Siz" demədim,
Qəsdən "Sən" dedim.
"Sən"ə qəzəbi tutdu.
Mənə qəzəbi tutdu.
Sanki,
"Sən" sözü onu
top kimi atdı-tutdu.
Endirdi səviyyəsindən,
Yıxdı vəzifə kürsüsündən.
Məncə belələri ki, var,
Anlamırlar
"Siz" sözü Rəbbimizə,
dinimizə yaddir.
Fələkətli zamanda,
Dara düşdüyümüz anda
Üz tutubTanrıya,
Tanrı ülviliyinə,
Tanrı böyüklüyünə
"Sən"lə xitab edirik,
Yenə Tanrı Tanrılıqda qalır,
Yenə Tanrı ucalıqda qalır.

## KASIB "KEFDƏDİR"

Varlı çək-çevirdə, kasıb "kefdədir"
Nə alacağı var, nə verəcəyi.
Kasıb iş dalınca xaricə vanr,
Varlı pul qoymağa bir yer axtarır.

Varlı çək-çevirdə, kasıb "kefdədir"
Polad qapılara ehtiyacı yox,
Yatanda qapını açıq saxlayrr.
Oğrudan, quldurdan yoxdur qorxusu,
Baldan şirin olur onun yuxusu.

Kasıbın işində bazarlıq yoxdur,
Kasıbın gizlində bazarı yoxdur,
Bazara çıxası varı, dövləti,-
Toylarda geyməyə paltarı yoxdur.

Vəzifə xətrinə Vətəni satmaq,
Kasıb qeyrətinə sığışan deyil.
Vətəni qorumaq - onun amalı,
Dedi-qodulara qarışan deyil.

Deputat olmağa can atmağı yox,
Özü-özlüyünə mandat alıbdır.
Xalqı kürsüterdən aldatmagı yox,
O, xalqın dərdinə hopub qalıbdır,
O, Vətən qoruyur, dağıtmağı yox,
Şüarla xalqını aldatmağı yox.

## QORXURAM

Neçə ki, axmıram, çağlamıram,
Neçə ki, ağrımıram, ağlamıram,
Deməli durğunam, duruluram.
Durğunluq,- istəmirəm,
Duruluq - istəmirəm.
Çalxalanmaq, bulanmaq istəyirəm.
Çağlamaq, axmaq istəyirəm,
Həyatda
Durğunluq, duruluq
Ölümdür, ölüm kimidir.
Süstlük, sönüklük kimidir,
Köpü alınmış körük kimidir.
Durğunluqdan, duruluqdan qorxuram.
Susuzsuqdan, quruluqdan qorxuram.

## 9 MAY GÜNÜ

9 may günü çıxsan yollara,
Qırx il gözlərilə yol hamarlayan,
oğul haraylayan, ər haraylayan
Ana həsrətinə,
Gəlin kədərinə,
Ata dərdinə ilişəcəksən.
9 may günü çıxsan yollara,
Yollar
Qırx il əvvələ apara bilər.
Gələr xəyalına 41-ci il,
Səni bu günlərdən qopara bilər,-
Yollar qırx il əvvələ apara bilər:
Ayaqsız əsgərlər, qolsuz əsgərlər
Cəbhədən vaqonla daşına bilər.
Yaşıl yarpaqlarla, yaşıl otlarla
Ünvansız məzarlar yaşına büər,
Adsiz qəhrəmanlar çıxar qarşına..
9 may günü çıxsan yollara,
Yollar şəfəqlərə bürünmüş olar,
Yollara bayraqlar düzülmüş olar:
Yoİlara nəğmələr süzüimüş olar.
9 may günü çıxsan yollara,
Gələr dəstə-dəstə el oğullan,
Səpilər yollara toy noğulları,
Yorar yolları toy maşınlan.
Qol-qola dayanan xalqlarımız da,

Sülhü əllərində saxlamış olar.
Hərbin yollarını bağlamış olar.
9 may günü çıxsan yollara,
yollarda muştuluq atları çapar.
Təzədən çalınar yanmçıq toylar,
Gəlinlər təzədən ana olarlar.
Subay gəlinlərin, subay qızların
Hərəsi bir evdə od-ocaq qalar.
Hərəsi bir evdə səadət tapar.

*1985*

## QORU NAMUSUNU, GÖZƏLLİYİNİ

Qoru namusunu, gözəlliyini,
Namus nə qızıldır, nə də ki, almaz.
Gözəlliyə düşən kiçik ləkəni,
Güzgü ləkəsitək gizlətmək olmaz,
Namus nə qızıldır, nə də ki, almaz.

Qoru, əzizım, bıl, qorumalısan,
Gözəllik qeyrətlə yuksəkdə dursun.
Gözəllik qorumaq deyildir asan,
Qoy sinəndə Xatın ürəyi vursun,
Gözəllik qeyrətlə yüksəkdə dursun.

# TÜKƏNMƏZƏM

*Təvazökarlıqdan uzaq olduğu üçün*
*Oxuculardan üzr istəyirəm.*

Mən çırağam,
Mən ocağam,
Gəlin işığıma,
Gəlin istimə.
Yer də verim,
Girin köksümə.
Sizi qarşılayıb,
Salamlaram.
Mən çırağam,
Mən ocağam,
Mən bulağam,
Sulu bir bulaq,
Duru bir bulaq.
Dodaqdan-dodağa
Dodaqdan-qulağa,
Paylanaram,
Daşıyarlar,
Talayarlar,
Qurtarmaram.
Mən çırağam,
Mən ocağam,
Mən bulağam,
Mən sönməzəm,
Mən ölməzəm,
Mən elə mənəm,
Tükənməzəm.

## SORUŞURSAN

Görəndə soruşursan:
- Necəsən, şeir yazırsan?
Hə, deyirəm, yazıram.
Birdən halın dəyişir,
Çox pərişan olursan.
Bağrı şan-şan olursan.
Səni sevindirmək üçün,
Səni güldürmək üçün,
Gərək bu gün, bu axşam,
Yağlı yalan danışam.
Deyəm: yazı-pozudan,
Bilirsənmi, qalmışam,
Lap möhkəm axsamışam.

# QAR YAĞIR

"O dağa qar yağır',
"bu dağa qar yağır",
edir xəbərdar, yağır.
"Yatmışıq fil qulağında",
Cərgəmiz nə yaman,
Seyrəlir, Allah!

Qar bağa yağır,
Agaca, budağa yağır,
Qara torpağa yağır.
Cərgəmizdən düşənin
Əli-əldən üzülür.
Yağan qarın altında,
Qara torpağın altında,
Bir məkanda,
Bir ünvanda
Cərgə ilə düzülür.
Cərgəmiz nə yaman
Seyrəlir, Allah!
Baxıram, ürəyim
Kövrəlir, Allah!

# PARFENON ABİDƏSİ

*Təvazökarlıqdan uzaq olduğu üçün*
*Oxuculardan   üzr istəyirəm.*

Bir Parfenon abidəsiyəm,
Başdan-ayağa mərmərəm.
Özüm və mərmərim,
“Turistləri" cəlb edir.
Hər gələn turist mərmərimdən,-
Bu varımdan, vüqarımdan,
Qürurumdan
Qəlpə, qəlpə
Qopanr, "oğurlayır".
Gedəndə özü ilə aparır.
Parfenon mərməri
'talandıqca', "oğurlandıqca"
tükənə bllər,- bəlkə də qalmaz.
Mənim mərmərim
"talandıqca','oğurlandıqca"
vərəqlərdən
qəlpə-qəlpə qopar,
qopan qəlpələr,-
parlayar, - saralmaz.
Həndəsi silsilə ilə
Artar, azalmaz.

*2001*

# HEÇ NƏYİK TƏKLİKDƏ

*"Ömür-gün yoldaşım" silsiləsindən*

Biz – sən və mən,
Bir tərəzinin iki gözüyük,
Bu həyatda, bir ömürdə
Bir qolda
Tarazlaşmışıq.
Biz - sən və mən,
İki qəlbin bir sözüyük,
Bu həyatda, bu ömürdə
Blr olmuşuq
Bir yolda
tarazlaşmışıq.
Biz-sən və mən,
Bir taleyin iki ulduzuyuq,
Bir səmada, bir orbitdə
Biz uçmuşuq,
Bir uçmuşuq,
Qovuşmuşuq.
Biz - sən və mən,
Bir tərəzinin iki gözüyük,
İkilikdə, bir həyatın,
Bir ailənin özüyük,
İkilikdə - ailəyik, həyatıq -
Bir varlığın özüyük.
Bir həyatın özüyük.
Təklikdə - nə ailəyik,
Nə həyatıq -
Heç nəyik təklikdə.

## İSTEDAD

İstedad təzə-təzə qanad açan,
Qanadlanan göyərçindi.
Qanadına qüvvət,
Ürəyinə təpər,
Sürətinə təkan gərək.
İstedad bahar gülüdür,-
Budağında qönçələri
Sevindirər böyükləri,
Sevindirər körpələri.
İstedad təzə-təzə,
Qanad açan,
Qanadlanan bildirçindi
Közərən bir ocaqdı,-
Daxilində alovlan
Çin-çindi.
Qayğılansa,
Dilim-dilim alovlanar,
Alov-alov pardaxlanar.
Ətraflar da işıqlanar,
İşıqlanar.

# AÇILMAMIŞ SƏHİFƏSƏN

Sən
Hələ açılmamış,
oxunmamış
səhifəsən.
Varaq-varaq,
yarpaq-yarpaq,
qalaq-qalaq
töhfəsən.
Bir gün
varaqlanıb,
yarpaqlanıb,
qalaqlanıb,
qələm ilə silahlanıb,
yaraqlanıb,
ayaq açdın dünyamıza,
gəlib çatdın,
işıq saçdın
dünyamıza.

## ETİRAF
### (zarafatyana)

"*Ömür-gün yoldaşım" silsiləsindən.*

Günahım özümdən böyükdür, Allah!
İstedad - sönməli olub əlimdə.
Onunla yaşamaq xatadır vallah,
Onsuz da yaşamaq günahdı həm də,

Bəlkə istedada "azadlıq" gərək. , .
Bu yolda rnən sənə uğur dilərəm.
Ömrümdən, günümdən istəsən kömək,
Canımı da səndən əsirgəmərəm.

Bəs nədən ətalət alıb canını?
Məhəbbət, səadət tənəzzül imiş?!
Istedad itirir öz imkanını,
Demək məhəbbət də baş gicəldənmiş!

İlhamı kökündən tərpədə bilsən,
Istedad - məhəbbət öz həyatındır.
İste'dad - sevgini ürəkdən silsən
Sərbəstlik, azadlıq - mükafatındır.

## SAXLASIN

*"Ömür-gün yoldaşım" silsiləsindən*

Gözlərindən nur çilənir üzümə,
Bu səadət bəxş olubdur özümə.
Sevinc gördüm, inanmadım gözümə
Allah səni bəd nəzərdən saxlasın!

Neçə tale bu taledən ötüşüb,
Neçə sevinc sevinclərdən gen düşüb.
Taleyimiz bir ulduzda görüşüb;
Allah səni bəd nəzərdən saxlasm!

Gözlərin gözəllik çaları - mavi,
Göyləri mavidir, suları mavi,
Füruzə gözlərin uyarı -mavi.
Allah səni bəd nəzərdən saxlasın!

O göziər könlümün yadına düşdü,
Çox rənglər adların oduna düşdü.
Mavilik- Füruzə adına düşdü,
Allah səni bəd nəzərdən saxlasın!

Qəlbinin sevinci gözünə çıxıb,
Bərq vurub məhəbbət üzünə çıxıb,
Qəşəm bu sevgini özünə çıxıb,
Allah səni bəd nəzərdən saxlasın!

*1988*

# TELMAN RUS KƏNDİNDƏ

*"168 SMT* qəzetindəki şəkildən*
*02.06.1998-ci il*

Əlimdə bir qrafinka,
Arağa pis deməröm.
Araqdı dostum mənim,
Yadlara pay verməröm.
Kefim kökdür-qarmoşka
Dillənir hay-küy ilə.
Gəlin qoşulun bizə,
Yeyək, içək, -kef elə.
Rus kəndləri gözəldir,
Qızlan ondan gözəl.
Buraya şənlənməyə,
Yeməyə-içməyə gəl.

# KUKLAMI DA APARIM

Ana körpəsinin tutub əlindən,
İstədi aparsın bağçaya onu.
Uşaq mızıldandı "getməyirəm mən",
Hirsindən qızardı al yanaqları.

Gəl qızım, görürsən gedibdir hamı,
İşə getməliyəm, gecikərəm bax..
Qız dedi aparım qoy mən kuklamı,
O tək qalsa bəs kimlə oynayacaq?

Qız özü kuklanı, ana qızını,
Götürüb gedirdi gen küçələrdən.
Qızcığaz büzərək kiçik ağzını,
Nəsə söyləyirdi kuklaya hərdən.

Ana körpəsinə, körpə kuklaya
Qayğıkeş gözlərlə hey nəzər salır.
Baxın "ana" deyən kiçik balaya,
O da bir körpənin qeydinə qalır.

## SƏNİN
**(mahnı)**

Bu qız haçan kəldi, yetişdi.
***Ramiz Rövşən.***

O sənin döşlərin - qoşa nar kimi
O sənin sinən - təzə qar kimi,
Püstə dodaqlann - şirin, bal kimi,
Ay qız, hürüsən, mələksən, nəsən ?
Haçan yetişmisən,
Haçan dəymisən?
Bəlkə göydən enmisən?
Saçların şəfəq - şəlalə kimi,
Gözlərin nur dolu - piyalə kimi.
Yanağın ağ gül, ağ lalə kimi,
Ay qız, hürüsən, mələksən, nəsən ?
Haçan yetişmisən,
Haçan dəymisən?
Bəlkə göydən enmisən?
Əndamın sığala, tumara qismət,
Qamətin kəmənd - qollara qismət.
Dodağın tər-təzə dodaga qismət.
Ay qız, hürüsən, mələksən, nəsən ?
Haçan yetişmisən,
Haçan dəymisən?
Bəlkə göydən enmisən?

## AL SAZI, ÇAL SAZI

Yatanda hissim, duyğularım,
Sönəndə şövqüm, həvəsim,
Batanda səsim
Aşıq qardaş,
Al sazı,
Çal sazı.
Çal, məni ovutsun
sazın avazı.

Tükənəndə imkanlarım,
Olmayanda uğurlarım
Məndən qaçanda dostlanm,
Aşıq qardaş,
Al sazı,
Çal sazı.
Çal, məni ovutsun
sazın avazı.

## QOŞALIQ

Həyət yaranan gündən,
Bəzənib, daranan gündən,
Xeyir də, şər də,
Gecə də, səhər də,
Sevinc də, kədər də,
Qoşalaşıb,- tarazlaşıb.
Həyat ilə uzlaşıb.
Şər olmasa, xeyirin,
Gecə olmasa gündüzün,
Kədər olmasa sevincin
Xeyri də az olar,
İşığı da az olar,
Sevinci də az olar.
Bəlkə də dözülməz olar,
Bəikə də duyulmaz olar.
Gecənin də,
kədərin də,
şərin də,
həyatda öz yeri var.

# QARĞA

*Qarğanın qış nəğməsi*
***(Uşaqlar üçün)***

Qarğanın qarğa səsi - varr, varr
Qargamn öz nəğməsi- varr, varr-
Qarr, qarr, qarr,
Harda qarr varr,
Orda qarğa varr.
Qarr, qarr, qarr...
Şaxta, qardan qorxmuram,
Heç tufandan qorxmuram.
Qanadımı açaram,
Qar üstündə qaçaram,
Qar üstündə uçaram,
qarr, qarr, qarr...
yağanda qar qar, qar
çox sevinir uşaqlar,
Şənlənir uşaqlar,
Şellənir uşaqlar...
Qarr, qarr, qarrr...
Şaxta, qardan qorxmuram,
Heç tufandan qorxmuram.
Məndə böyük hünər var.
Ayağımla qar eşərəm,
Dimdiyimlə buz deşərəm,
Tapdığımı yeyərəm.

Qarr, qarr, qarr,- deyib,
Qar haqda
Gözəl nəğmə deyərəm.
Şaxta, qardan qorxmuram,
Heç tufandan qorxmuram.
Axı mənə nə var,
Yağdı, yağmadı qar,
Oldu, olmadı qar,
Hər zaman, hər yerdə
Görərsiniz qarğa var.
Qarğanın qarğa səsi - varr, varr,
Qarğanın öz nəğməsi- varr, varr,
qarr, qarr, qarr...

## YARAŞMIR

Dostsuz, bəlkə qonşusuz,
Bir yuvanın quşusuz.
Gülə-gülə yalan demək,
Sözü yalana bükmək,
Yalanı sözə tikmək
Boyunuza yaraşmır,
Danışın, hədyan deməyin,
Yetənə böhtan deməyin,
Özünözü öyməyin,-
Boyunuza yaraşmır.

Axura dən tökən də siz.
Axurdan dən yeyən də siz,
Söyən də siz, döyən də stz,
Yaxşıya pis deyən də siz
Sınənizə döyməyin,-
Boyunuza yaraşmır.
Sən də "yaxşı, o da yaxşı".
Ətəyinizdən tökün daşı,
Hər ikiniz bez qırağı,
Çıxırsız bezə qarşı,-
Boyunuza yaraşmır.

## DE MƏNƏ

Tək bircə misra de,
Öz sözün olsa,
Öz səsin olsa,
Səsində nəfəsin olsa,
Şübhəm olmaz şairiliyinə.

Tək bircə misra de,
Istisinə isinə bilim,
Sehrinə küsənə bilim,
Söz köksünə sinə bilim,
Şübhəm olmaz şairliyinə.

Tək bircə misra de,
Baş əyim sözün hökmünə,
Baş əyim sözün- söz yükünə.
Şadlanım sevinim yenə,
Şübhəm olmaz şairliyinə.

# BUMERANQ

Söz də bıımeranq kimidir,
Atma- atdın yolunu gözlə?
Özünü qoru -
Geri dönəcək.
Ya toyda, ya da vayda
Sənə dəyəcək.

# BƏHLUL SÖZ SATIRDI

Baxmayıb xəlifə zatına,
Minib qarğı atına,
Küçələrdə "at" çapırdı.
Küçənin ən gur yerində
Bəhlul "durub" söz satırdı.
O söz, o sözün sədası,
Ev-ev hamıya çatırdi.
Cahilliyə, cəhalətə Bəhlul,
Sözü söz-söz atırdı.
Xəlifə qardaşıydı Bəhlul,
Kasıbların, fağırların
Yaxın sirdaşıydı Bəhlul.
Ona nə pul, nə var gərək idi,
O kasıblara, fağırlara kömək idi.
Sözlə meydan oxuyurdu o,
Söz-söz sözə
Hikmət toxuyurdu o.

# İNSAN

İnsan - dərin sir dagarı,
Çox qədim Azıx mağarı.
İnsan- uzaq bir planet.
İnsanı dərk etməyə sən,
İnsanı kəşf etməyə sən,
Arxeoloq olmalısan,
Astroloq olmalısan,
Homonoloq olmalısan.

## BƏD GƏLİN

Dəyişir tez-tez halı,
Çox sevir qeylü-qalı.
Evdə gəlin olalı
Gündə bir savaş olur.

Söz deyilsə, partlayır,
Hədd-hüdudu adlayır,
Söyür, küsür, ağlayır,
Uşaqlar çaş-baş olur.

İş görsə, səbri çatmaz,
Gördüyünü yarıtmaz.
Öyüd başına batmaz,
İpə-sapa da yatmaz,
Ev-eşik çıxdaş olur.

# ƏCLAF ŞEYİMİŞ İQTİSADİYYAT

İndi
Zamanın, həyatın hökmü ilə
Hər yanda, hər yerdə
İqtisadiyyat havası çalınır.
Biz bilsək də, bilməsək də
Bu havaya oynayırıq, oynamalıyıq
Nə oynayınq, niyə oynayınq
Bilmirik.
Oyuna qarışıb başımız:
Biz Vətəndən xəbərsizik,
Vətən bizdən xəbərsiz.
Nə əcfaf şeyimiş
Bu iqtisadiyyat.

# ÇİÇƏKLƏYİRİK

Həyat bir tacdır başımızda,
Arzularımız acdır başımızda.
Sevgimiz ürəyimizdə,
Sevincimiz ürəyimizdə,
Xoş günlərimiz - öndə.
Oynayır xoş günlərin
İşıqlan üzümuzdə,
Şəfəqləri gözümüzdə,
Çiçəkləyirik, çiçəkləyirik,-
Çiçək açdıqca - aça-aça
Dinə; imana gəlirik.

# OLMAZ

Bəxt- itirənlə
Tapan arasında
Körpüdür, oyundur.
Ya çox, ya az
İtirən olmasa,
Tapan da olmaz.

## BU QIZ

Başdan-başa nazdı bu qız,
Nəğməli avazdı bu qız,
Qış vaxtı da çiçəkləyir,
Bir bahardı, yazdı bu qız
Çiçəyi solmazdı bu qız.



# ALLAH ƏTƏYİ

Allah ətəyi də
Quyuya sallanan
İp kimidir.
Mömin tutar,
Nicat tapar,-
Quyudan çıxar.
Kafir tutar,
İp qırılar,-
quyuda qalar.

## QOCALIQ

Zaman bizi əyirir,
Həyat dərdlə yükləyir.
Saralırıq, soluruq,
Üz-gözümüz dəyişir,
Sümüyümüz əriyir.
Dönüb yumaq oluruq.



# ADSIZ ÜNVANLAR

Götürüb qələmi yazıram bu gün
Ünvansız ünvana sevgi məktubu.
Şair sevgisilə yazılan məktub,
Adsız ünvanlara çatar, paylanar,
Adsız ünvanlara gedər-görüşər,
Hər kəsə sevgidən bir sətir düşər.

## TANRIYA QALAR

"Cinayət cəzasız qalmaz həyatda",-
Misrada təsəlli, inam səslənir,-
Qaydaya, qanuna ümid bəslənir,
Deyirlər, qanunda tanrı hökmü var;-
Cinayət qanunla cəzalanmasa,
Cəzanın icrası Tanrıya qalar.

## ATA GÜNAHI

Həyata   günahı
Atalar əkir.
Ağrını, acını
Övladlar çəkir.

## QONŞULUQ

Gözəldən- gözəl qonşudur,
"Qohumdan əzəl" qonşudur.
Qonşu murad quşudur,
Uçuşu - tale uçuşudur.
Qonşunun tale qonşuluğu -
Tale yüklü həyatdır.
Qonşu mehribanlığı,
istiqanlığı
Qonşudan-qonşuya
bir mükafatdır.

## SÖZ BARI

Çox danışanlar
Baş aparar,
Dinləyəni dəng edər.
Çox yazanlar,-
Yazıçı olanlar,
Kağızlarda söz əkər,
Söz becərər,
Sözdən bar dərər.

# ÖRTÜLÜ QALAN QAPILAR

Ömrün-günün öz sapı var,
Sapın da sap tabı var,
Həyatda neçə qapı var?
Haçan tamam açıq olar?
Üstünə gələn üzlərə,
Örtülü qalan qapılar?

Gələnləri, gedənləri,
Neçə-neçə ərənləri,
Ayaq üstdə ölənləri -
Kordu görməz, kardı bilməz,
Üzünə üz çəkdirərək,
Örtülü qalan qapılar.

## MİSRALARIN

Misraların nidasında
Arzu yatır, sevinc durur.
Misralann sualında
Məqam yatır, güman durur,
Nöqtəsində, vergülündə,
Həyat gülür, ürək vurur.

## ÖYRƏNƏR

El- eldən öyrənər,
Dil- dildən öyrənər,
Sevib-sevilməyi
Sevgidən ölməyi
Gül-güldən öyrənər,
Büibüldən öyrənər.

# CIRMA, YANDIR

Verirəm cırma, yandır
Şeirlərimi,
Yandır ki, qəlbimin odu
Oda layiqdir.
Yandır ki, yanan şeirlərin
yönü haqdır,
yolu haqdır.
Yandır ki,
Bir dəstə kül qalacaqdır.
Yenidən hisslər oyanacaq onda,
Yenidən şeirlər yazılacaqdır.

## SAVAŞIN VAR

*Sakitliyi xoşlamayan qadına,*

Sənə həyat olmayıb yük,
Kür deyildir uşaqlar da.
Nəvazişin bircə üskük,
Ev dolusu savaşın var.
Səsin gəzır otaqlarda,
Qaçıb, köçüb qonşular da;
Sakitliyə uçub onlar.

## BÜLBÜL ÖTÜR

Çadırlarda
Qaçqın dərdi,
Dil-dil ötür.
Eşidənlər elə bilir,
Kefi gəlib
Bülbül ötür.

## İTİRDİN

Ay ərxalı ədəbsiz,
Ay arxalı dələduz,
Duruşunu itirdin,
Yerişini itirdin,
Gülüşünü itirdin,
Nadanlığı qazanıb,
Azğınlığı qazanıb,
İnsanlığı itirdin.

## NAĞIL DANIŞMA

Sual verdim,
Ya hə de, ya yox ,
Cavab ver,
Həddini aşma.
Mən uşaq deyiləm,
Nağıl danışma.

# ŞİKƏST OLMASIN

İnsan gərək,
İsti nəfəsdən,
Həzin bir səsdən,
Məzədən, meydən,
Gözəl bir şeydən
Heç məst olmasın.
İlahi, insan
İnsan doğulur,
Qoy sağlam olsun
ağıldan naqis,
şikəst olmasın.

## OLA BİLMƏZ

Əl tutmaq
Əlidən qalıb;
Çətin yoldu, gedilməz.
Hər əltutan da
Əli ola bilməz.

## BELƏSİ DƏ OLUR

Məni-məndən aldın, gözəl,
Min bəlaya saldın, gözəl.
Mələk kiml gəlib ömrə,
İlan kimi çaldın gözəl.

## YERSİZ SOZ

Yersiz söz demə,
dedin,
Sahibini tapacaq.
Yersiz deyilən söz
Birgün bumeranq kimi,
geriyə dönüb,
quduz it kimi
Səni qapacaq.

## GETMƏYƏK

Hansı işə girişsək,
Tanrırnız olsun kömək.
Vaxtı fövtə verməyək,
Kefə çoxlu getməyək,
Keflər fəsadsız olmur.
Keflər fitvasız olmur.

# SƏN VƏ MƏN

Biz - sən və mən
Birlikdə yaraşıqlıyıq,
Birlikdə işıqlıyıq,-
Sevgi dünyasındayıq,
Ayrılsaq,
Yaraşığımız da itəcək,
Sevgl dünyamız da itəcək.
Ömrümüzə, üstümüzə
Qaranlıqlar çökəcək.

# BƏZƏN

Bəzən elə olur,
Bir daş
Dağı çiynində
saxlaya bilir.
İlləri, əsrləri
haqlaya bilir.
Dağ daşı
Saxlaya bilmir,
İtirir- ağlaya bilmir.

## ŞEİR ALINIR

Mən şeir yazmıram,
Söz yazıram-
Şeir ahnır.
Dönür yeni aləmə,
Dönür kəhkəşana,-
Göy alınır,
Yer alınır.
Söz yazıram -
Şeir alınır.

# BİZ ŞAIRLƏR

Biz şairlər çox qəribəyik;
Yazırıq güldən, çiçəkdən,
Yazırıq gözəldən, göyçəkdən.
Hər qarışı bar gətirən,
nəfəsi gül bitirən,
Al çiçəyi
Ağ çiçəyi üzə gülən,
Nur çiləyən,
Tanrı qüdrətli,
Tanrı hikmətli
Qara torpaqdan az yazırıq,
Ya da heç yazmırıq.

## ŞAİR SƏRKƏRDƏLƏR

M.Ə.Sabir - Kişi adamdır.

***Xəlil Rza.***

Bugün şeir doğuldu,
Şeir gəldi həyata.
Şair, övladın oldu,
Şair, sən oldun ata.

Şeir doğulur əsgər,
Sözlər - topu, tüfəngi.
Ağ vərəq - odlu səngər,
Mlsralar süngü təki,
Şeri silaha çevirər,
Çox şair sərkərdələr,
Bu mahir sərkərdələr.

# SOSİALİZMDƏ

İnadları, cürətləri,
İnamları, hünərləri
Əkdilər, - şəxsiyyət bitdi.
Səyləri, səbirləri,
Təqdirləri, tədbirləri,
Əkdilər,- şəxsiyyət bitdi.
Yalanlan, palanlan,
yalan-palan planları,
Gürzələri, ilanları,
Çibgirləri, oğruları
Sosializmdə
Əkdilər
Kapitalizm bitdi.

# ARZU

Bir deyil, üç deyil, bir dəstə qız var,
Yaz çiçəyi, yaz gülüdür bu qızlar.
Sevinməyi, sevilməyi arzular,
Göz görəndə
Aşır, daşır duyğular.
Ürəyimiz toy-mağara hərisdir,
Cəsarətə gəlin, subay oglanlar,
Subaylara elçi getsin harda var:-
Tez getsə yaxşıdır, tez də toy olar.



## YAZDIQLARIM

Yazdıqlarım,
Bildiklərim, eşitdiklərim,
Gördüklərim qədərdir.
Yazmadıqlarım,
Bilmədiklərim, eşitmədiklərim,
Görmədiklərim qədərdir.
Ömürdən yan keçən,
Qısır keçən, üryan keçən,
Günlər də var -
Səssiz gələr,
İzsiz gedər,
Nə sevinc doğar,
Nə də ki, kədər.

## YAŞAYIM

Bütün cəhdim boşa çıxdı,
Sevinc qurdu, kədər yıxdı.
Kədərdən qaçmaq istədim,
Hər yerdə qarşıma çıxdı.
Bəs hanı xoş günüm, ayım,
Ham mənim sevinc payım?
Qoşulum ona yaşayım.

# BU ADAMIN

Ədası, iddiası çox böyükdür
Yazdıqlarından.
Ədası, iddiası çox böyükdür,
Arzularından.
Bir gün
ədası, iddiasi dönər paxırına,
paxırı da görünər oxucularına.
Bir gün də
Bu əda , iddia
Çıxacaq bu ədabazın axırına.

## NİYƏ AĞARDIN SƏN

Şəvə saçım, qara saçım,
Niyə tezcə agardın sən?
Nə söyləyim yara, saçım
Qocaldımmı deyim erkən?

Deyim, məndən uzaqlaşmış,
Uşaqlığın izisənmi?
Gənclyimlə qucaqlaşmış,
Ağ günlərin özüsənmi?

Mən qocalıq duymayıram,
Qəlbim vurur əvvəlki tək.
Gənc ömrümü yaz sayıram,
Səni yazda açmış çiçək.

# ZİRVƏDƏN ƏZƏMƏTLİ

Baxanda,
zirvəli, əlçatmaz, ün yetməz
Gorünər dağlar.
Kim çıxsa zirvələrə,
sevinər,
çıxmayanlar ağlar.
Zirvələr - zirvəni fəth edənlərə,
Daha əzəmətü zirvə tək baxar.

## DƏRD ƏLİNDƏN

Dərd əlindən "göyə çıxsan'
Tanrı səni göyə qoymaz.
Tallələri yazan Tanrı,
Yazdığını özü pozmaz.

## SEVİRƏM

İstəyirsən inan,
İstəyirsən inanma,
Mən səni
Doğulduğun gündən sevirəm.
Mən səni
"Sən" olduğun
gündən sevirəm.

## GÖNDƏRİN

Mənə at verin,
Avtomat verin.
Bomba əvəzi,
Qol-qanad verin,-
Qəlbimə girin,
Güc, həvəs verin,
Kamikadze edin,
Düşmən üstünə
Hazır göndərin.

# LENİNƏ

Leninin vaxtı ilə dövlət mükafatına layiq görülmüş heykəlləri indi sındırılıb, başı-qolu qırılmış halda üzü divara söykədilmiş, ya da zirzəmilərə atılmışdır.

Səni "qoruya" bilmədik -
Biz "nəvələr", Vladimir İliç.
Keç "günahımızdan", keç.
Dahi rəhbər, Vladimir İliç,
Başa ehtiyac var,-
Başın yerinə deyil.
Qola ehtiyac var,-
Qolun yerində deyil.
Dilə ehtiyac var,-
Dilin yerində deyil,
Daha qoyduğun yol da
Yolumuz deyil.
Qurduğumuz cəmiyyət də
Kommunizm deyil.
Bu "izm" Leninizm deyil.
Mən
Nə sağçı olmuşam, nə də ki, solçu,
Nə də partiyaçı, komsomolçu,
Anam evdar olub, atam kolxozçu,
Həqiqət yolunda olmuşam yolçu.
Səni isə

İnandığın partiyadaşlar,
İnandığın komsomollar,
Komsomol yoldaşlar,
Bu vətəndaşlar satdılar.
Səni də,
Sən yaratdığın həyatı da,
Sevdiyin fəhlələri - "proletəriatı" da
Satdılar, yaman satdılar:
"Başını" üzüb,"qolunu" sındırıb,
səni zirzəmiyə atdılar.
Divara dirədiliər.
Gücün çatmaz azğınlara,
Gücün çatmaz harınlara.
Dahi sığmaz zirzəmiyə,
Dahi qısılmaz divara.
Dahi hara, divar hara?!
Keç "günahımızdan", keç
Dahi insan, Vladimir İliç.
Yaratdığın şan-şöhrət də dagıldı,
Qurduğun dövlət də dağıldı,
MK da, Ali Sovet də dağıldı.
Neçə adaşın-muzey də dağıldı.
Son yurdun, son mənzilin,
Təmtəraqlı
Mavzoley də dağıldı.
“Cahan yığılmır başına,
Cahan qıymır göz yaşına.”
Məzarın tək-tənha qalıb,
Üst-başını tozlar alıb.

Hörümçəklər tor salıb.
Keç "günahımrzdan", keç.
Dahi insan, Vladimir İliç.
Siyasətdə əbədilik varmı heç?
Siyasət- siyasətlə inkar edilir,
Dünənki xadimlər günahkar edilir.
Bə'zən təzə-tər siyasət
Köhnə yolla gedilir.
Sənə verilən bu dərs,
Çox xaqanlara verilib, Vladimir İliç...
İnsanlar paxıl çıxıb,
İnsanlann paxırı çıxıb...
Nə içdik, nə də ki, yedik,
41-dən 45-ə
sərhədləri qoruduq.
Sərhədlər bütöv qaldı.
Biz daxildən zəhərləndik,-
Astarımız parçalandı,-
Yollarımız haçalandı,
Vladimir İliç,
Gör nələr elədilər?!.
Vaxtı ilə
Çoxlarım Sən divara dirədin.
İndi
Səni də divara dirədilər.
Dünyanı bir-birinə qatdın,
Nikolaylan qırıb çatdın:
Yeni dövlət yaratdın.
Böyük dahi, ulu rəhbər,

Uzağı görmədin, ancaq.
Bilmədinmi məgər,
Elə bir gün gələr,
Nikolaylann ruhu
Sənin ruhunu e'dam edər?
İndi sus,
Bax beləcə,
dinməzcə,
Dayan üzü divara,
Dur üzü divara.
Demə, sən hara, divar hara?
Qapılma xəyallara,
Uyma xülyalara.
Bir vaxt
Hamıya dərs deyirdin,
İndi hamı dərs deyir Sənə.
Verdiyin dərsləri
tərs deyir Sənə.
Sus, söykən divara,
Bax beləcə, Vladimir İliç,
Sən inanmırdın Allaha–
Dünya Sən quran deyil daha.

# MƏQAMDAYAM

Mən zamamn məqamıyam,
Zaman mənim məqamımda.
İnam mənim məqamımda,
Güman mənim məqamımda.
Sözüm - şeirin məqamında,
Ömür- dövrün məqamında,
Həyat - dövrün məqamında,
Dünya-gözün məqamında,
Şeir - sözün məqamında.
Mən bu ömrün məqamıyam, –
Dövürlərin adamıyam.

# GƏNCƏ KÜLƏKLƏRİ

Kim incidib bu göyləri,
Dolub, tutulub gözləri.
Dağıtmağa buludları,
Əssin Gəncə küləkləri.



# OLANI YOX

Silah "Igidin yaraşığıdır" -
Silah gəzdirənlərin - yox,
Silah gəzdirənlərsə,
Bu məmləkətdə daha çox,
Əsil igid olanı yox.

## VURĞUN APARDI

Heç demə şeirin bazarı dardı,
Hər gələn sözdən qəlpə qopardı,
Sözün Ələsgər tək ustadı vardı,
Şeiri estafetə Vurğun apardı.

## SENTYABRDA

Arzular, istəklər coşdu evlərdə,
Qapılar dözməyib taybatay oldu.
Çagladı evlərdən arzu bulaqlar,
Bulaqlar çağlayıb məktəbə doldu.

Qondu siniflərə durna qatarı,
Titrədi pəncərə uşaq səsindən.
Arzudur, istəkdir məktəbin varı
Sinifdən-sinifə uçdu durnalar,
Tutdu sinifləri durna qatarı.

## QAÇA BİLMİRƏM

İtdən, qurddan qaça bilərəm,
Sudan, oddan qaça bilərəm.
Qaça bilmərəm arzularımdan,
Qaça bilmərəm günahlarımdan.
Günahların uşaqlığa bağlıdır -
Qocalmışam, ancaq məni ağrıdır.
Qarğaya, sərçəyə ağac atmışam,
Yuvalan bir-birinə qatmışam.
Uşaq incimişəm, ağlatmışam.
Qaçaram dövlətimdən, varımdan,
Qaça bilmərəm günahlarımdan.
Günahların uşaqlığa bağlıdır -
Qocalmışam, ancaq məni ağrıdır.

# ÜZƏ VURMADI

Çəkdi əcdadları özünə torpaq,
Soxdu sür-sümüyünü gözünə torpaq.
Çəkdiyi dərdləri, əziyyətləri
Vurmadı kimsənin üzünə torpaq.

# MƏN SƏNİ BELƏ GÖRÜRƏM

*Qeyrətli, vətənpərvər, insanpərvər şair,*
*publisist, jurnalist Əli Rza Xələfliyə*

“Kredo” qəzeti əlimdədir,
Səhifə-səhifə önümdədir
Fikirləşirəm;
Fikirlərimlə əlləşirəm,
Fikrimdə
Sözlərlə güləşirəm.
Neçə-neçə müəllifdən,–
Sənətdən, sənətkardan
Yan-yana söz açırsan,
Ömür yollarına işıq saçırsan
Sən yazıb
Diriləri yad edirsən,
Ölənlərin də ruhunu şad edirsən.
Alqış, sənə alqış,
Sənin qələminə alqış!
Ara-axtar, oxucularla
Arxiv dilində danış
Sən vətənpərvər, insanpərvər
şairsən, jurnalistsən
Səndə cəsarət də var,
Səndə qeyrət də var,
Hörmət də var

Yazan sən deyilsən,
qeyrətindir.
Sənətə, sənətkara
Hörmətindir.
Sevgin, məhəbbətindir.
Arxiv-arxiv vaxt itirirsən,
Söz əkib, söz bitirirsən
Kölgədə qalanlara
şam tutur,
şöhrət gətirirsən.
Həqiqəti buket-buket
Oxucularına yetirirsən.
Bu öz fikrimdir, –
İrəli sürürəm;
Mən səni belə görürəm.

# XOCALI HARAYI
/poema/

## PROLOQ

Bu həyat,
Bu dünya
İnsanlar üçün,
Elə hey
Sürprizlər doğur.
Tale yüklü,
Tale görklü  sürpizlərdən
Baş açmaq da olmur,
Baş götürüb qaçmaq da.
Bu həyat,
Bu dünya insanlar üçün,
Elə hey dəhşətli, qorxulu, -
Qan qoxulu
Sürprizlər doğur.
Belə məkrli, qəddar
Sürpizlər
Erməni varlığıyla,
Erməni qəddarlığıyla
Hər zaman pusquda durur.
Gah ilana dönür, qəflətən vurur,
Gah da mərmiyə, bombaya dönür,
Üstümüzə tökülür,
Yer yarılır, göy sökülür, -

Yer, göy qan qusur, -
Dünya görmür,
Görəndə də susur.
Elə bu dünyanı qarışdıranlar,
Sonra ədəb-ərkanla oturub
Araşdıranlar,
Əvəl fitva verib vuruşduranlar,
Vuruşdurur,
Sonra da BMT-də oturub araşdırır.
Arzusuna, istəyinə çatıbsa,
Barışdırır.
Bu dünya sürpizlərlə dolu
Yoldur, izdir.
Bu dünya başdan-ayağa,
Ayaqdan-başa sürpizdir…

* * *

*1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni daşnakları Rusiyanın Xankəndində yerləşən 366-cı atıcı alayının köməkliyi ilə silahsız, köməksiz Xocalı şəhərini yerlə yeksan etdi və Xocalıda soyqırımı törətdi. 625 nəfər uşaq, qadın, qoca qətlə yetirildi.*

Xocalı bu gecə
qana boyandı.
Aldığı yaraların
Ağrısından oyandı,
Sancısından oyandı.

Xocalı bu gecə
qana boyandı.
Ay Allah, gör necə ,
bu gecə
daşnaklar
Rus ordusu ilə
verib əl-ələ,
İşlədıb hiylə,
Xocalını viran qoydu.
Bu dəhşəti faciəni
hamıdan qabaq
Bakı gecələrində,
Baki meydanlarında,
küçələrində veyillənən,
sümsünən
küçə itiəri bildi,
küçə itləri duydu.-
Ağız-ağıza,
Baş-başa verib,
Gör necə –
O gecə
Fəryad edib ulaşdılar.
İnsan kimi ağlaşdılar.
Ağlaşdılar
daşnakların
Silahsız,əlsiz-ayaqsız
İnsanları qrıb tökdüyünə
Ağlaşdılar –
Yarımçıq qalmış

İnsan ömrünə, taleyinə
Ulaşdılar –
daşnakların vəhşiliyinə
Hürüşdülər
daşnakların vəhşi kimi
insanları yediyinə.

* * *

Ay Allah
Gör necə
O gecə
Hamıdan qabaq
Bakı gecələrində,
Bakı meydanlarında, küçələrində
veyillənən, sümsünən
Teleyonsuz, teleqrafsız –
Küçə itləri bildi,
Küçə itləri duydu
Faciənin böyüklüyünü,
Duydu "rəhbərlərin" dönüklüyünü.
Verib ağız-ağıza,
Verib baş-başa,
İnsanlardan qabaq,
Haray salıb, ağı deyib,
Fağır-fağır ulaşdılar,
yazıq-yazıq ağlaşdılar.
Başda duran başbitənlər,
Vəzifə güdənlər, gödən güdənlər,
Bir-birini yağı kimi didənlər,

Duymadılar, bilmədilər
Qırğının böyüklüyünü,
Hələ bardan da qalmadılar,
Kefdən-damaqdan da qalmadılar.

* * *

## HAŞİYƏ

Çox yaxın keçmişinizdə,
Sovet bayrağı əlimizdə,
Dostluq, qardaşlıq
Nəğmələri dilimizdə
Yaşadıq, yarışdıq, işlədik
Kommunizm sorağında, –
Yatdıq fil qulağında.
Hallandı adımız,
torpağmız
Daşnak məclislərində, –
Erməni, rus dillərində.
Qulağımız kar olmuşdu,
Dilimiz lal, gözümüz kor...
Qeyrətimiz, – kişiliyimiz
Yağ təki əriyirdi
Haykanuşların qucağında.
Haykanuşlar
Qızınırdı, qızırdı evimizdə, –
Ocağımızın qırağında.
"Kef" çəkrdilər onda, –

Qarabağda,
Azərbaycan torpağında,
Yatmışdıq fil qulağında.
Tuş gəldik,
Daşnakların “yersiz gəldi,
Yerli qaç” qınağına.
Güllələndi, yandırıldı, –
Qarabağlılar –
Qarabağ torpağında
Qarabağllılar
Hədəfə döndü,
Türk qanına susamış –
Silvaların, Balayanların
Aqambekyanların
Qarababağa tuşlanmış
barmağında,
Yatmışdıq fil qulağında.
Bilmirdik Qarabağ
qurban gedir
Qarbaçovlar ailəsininin
Tamahına, marağına.
Daşnaklar sahib çıxır, –
Qarabağa, –
Qarabağa, –
Azərbaycan torpağına...
Gözəl Qarabağ
Erməni əliylə,
Erməni qələmiylə,
Rus silahilə,

Özəlləşirdi,
Ermənniləşirdi.
Şir ürəkli olsaq da,
Şir biləkdi olsaq da,
Ermənilər,
Bu arxalı köpəklər
İrəvanda, Moskvada
Tələ qurdular bizə.
İrəvanda, Qarabağda
Vulkan kimi püsgürdülər.
Od tökdülər üstümüzə.
Haykanuşların törəmələri, –
Yarı türk, yarı erməni
gədələri
Məxfi işlər gördülər,
Məxfi-hərb sənədləri,
İrəvana-dayılarına
ötürdülər.
İçimizdə yaşaya-yaşaya
İçimizdə bizi diddilər,
yedilər, –
Yatmışdıq fil qulağında.

* * *

Xocalı haray saldı
Xocalı kömək istədi,
Xocalı köməksiz qaldı
Əlləri uzalı qaldı.
Bakıya əllər çatmadı

Köməyə gələnlər çatmadı,
Ümid verənlər çatmadı
Haray Allaha çatmadı,
Göydən asılı qaldı
Bakıya əllər çatmadı
Ahlar, ələmlər çatmadı
Su yerinə axdı qanlar,
Bakıya gedənlər qayıtmadı,
Bakıdan xəbərlər qayıtmadı.
Xocalı döyüşmək istədi.
Xocalı kömək istədi,
Köməyə gələn olmadı.
Kömək ilişdi, dolaşdı-
Bakıda qaldı.
Odlandı, yağmalandı
Xocalının yurd-yuvası.
İrəvana daşındı,
Şəhərin sərvəti,-
Malı-mülkü zinəti
Qeyrəti, isməti
Yalın əlləri, ayaqları
Şaxta vurdu, qar apardı
Yanaqları, dodaqları
Ayaz kəsdi, qan apardı
Gücdən düşdü ayaqlar, ürəklər-
Yıxılanları
Dərə uddu, yarqan apardı.
Ayağa qalxanı güllələr biçirdi,
Tökülən qanları, qarlı torpaq içirdi

Neçəsi qar üstə dondu, keçindi.
Faciəni ömrümüzə, ürəyimizə
Azğın düşmən yüklədi,
Bizi yaman təklədi.
Bu faciəli xəbəri
Avropaya, Amerikaya
Halımıza yananlar apardı,
Qayğımıza qalanlar apardı.
Xocalı silahsız
köməksiz qaldı,
Harayına çatan, əlindən tutan
Qeydinə qalan olmadı
Yağı düşmən, qarı düşmən
Qəflətən başının üstünü aldı
Xocalı silahsız
Köməksiz qaldı.
Güllələr sarsıtmayan
Oğulları, qızları
Laqeydlik sarsıtdı
Namərdlik, dönüklük sarsıtdı.

* * *

26 fevral, Xocalı şəhəri-
Yarı oyaq, yarı yuxulu,
26 fevral- qan qoxulu,
Faciəli, qorxulu...
Bu gecə təbiət susur,
Haqq susur, ədalət susur
Pülemyotlar, avtomatlar hönkürür,

Güllələr ulayır,
Düşmənlər meydan sulayır
Güllələr gecənin saçını yolur
İnsanlar bağırır, ağlayır
Qızıl güllələr oxuyur,-
Gecəyə odlu ilmələr toxuyur
Küçələr, meşələr, dərələr
Qan qoxuyur, qan qoxuyur
Qaranlığa qan çilənir,
Şəhər qandan diksinir
Şəhər qana boyanır,
Şəhər qanda boğulur,
Şəhər qandan od tutur, yanır-
Dağıntılar
Od içindən, qan içindən boylanır
Göydən güllələr ələnir,
Torpaqda qan sellənir
Axır... axır... Göllənir.
Avtomatlar hayqırır
Avtomatlar dillənir
Güllələr  sarsıtmayan
Anaları,
Oğulları, qızları
Dönüklük sarsıdı
Namərdlik sarsıtdı.
Silahsız mərdlər küncə qısnanır,
Dişləri-dişlərinə qıçanır.
Qəzəbdən gözlər yanır,
Saçlar biz-biz dayanır.

Silahlanmış namərdlər,
Quduzlaşmış quduz itlər
Silahsız bir millətə,
Od vurur, meydan oxuyur
Güllələr ölüm saçır,
Küçələr qan qoxuyur.
Xilas olmaq istəyənə,
Güllələr tələ qurur,
Güllələr badalaq vurur.
İnsanların əndamında-
Mozalan güllələr,
Can alan güllələr,
Dəlik açır, yuva qurur,
Şırım çəkir,-qan şırımı.
Tanrı susur fələk susur,
Yaralı küçələr ağlayır,
Dağılmış evlər ağlayır,
Odlanmış şəhər ağlayır
Şaxtalı yer, göy susur
Odlu güllələr oxuyur
Güllələr olum saçır,
Küçələr qan qoxuyur.
Qaçır sağ qalanlar, qaçır,
Körpəli analar qaçır
Körpələr, analar qaçır
Yaralı olanlar qaçır
Üzü üstə sürünür, qaçır
Qara bürünür, qaçır
Dəhşət görənlər qaçır

Nifrət görənlər qaçır
Ölüm görənlər qaçır,
Zülm görənlər qaçır
Qızlar, gəlinlər, qaçır,-
Götürüb qeyrətini qaçır
Götürüb ismətini, qaçır
Götürməli nə var daha?!
Qızlar, gəlinlər qaçır,-
Tapdanmasın abır həya.
Götürüb abır-həyanı qaçır
Sağ qalanlar qaçır daha,-
Qaçır üz tutub Allaha
Başı sağ olanlar qaçır,
Qaçır, sığınır Allaha
Qaçmağa yer yox daha
Qaçır gecənin qoynuna
Qaçır meşənin qoynuna.
Dağılıb noxud kimi,
Səpələnib qum kimi,
Olub-qalanlar qaçır
Diri olanlar qaçır
Sağ qalanlar qaçır
Qaçmağa yer yox daha
Uçmağa göy yox daha
Qaçanlar da qaçır ki,
Güllələr çatmasın ona
Qaçanlar da qaçır ki,
Düşmənlər çatmasın ona
Düşmənlər əl atmasın ona

Əsrlərin arxasından
Rusiyanın lap yaxasından
Uzandı şeytan əlləri,
Tuşladı barmaqları,
Azərbaycana sarı
Rus hökümdarı,-
Rus çarı elə o vaxt
Qısqırtdı daşnakları,
O köpəkləri,
O alçaqları
Azərbaycana sarı
Zəbt olundu Zəngəzur,
Zəbt olundu Qarabağ,-
Azəri torpaqları.
İrandan, Livandan köçdü daşnaklar
Gözəl Qarabağda yurd-yuva qurdu.
İşə düşdü xəbis əllər, ayaqlar,
Abidələr, məzarlar xaraba qaldı.
Zəngəzur mahalın daşnak almadı
Aldı rus hikkəsi ədası aldı,
Dığaların xaç atası aldı
Biz elə vaxtında üz verməsəydik,
Yerini bilərdi azğın dığalar.
Keçməyə bir qarış iz verməsəydik
Baş alıb gəlməzdi sonsuz qovğalar.

Əsrlərin arxasından;
Rusiyanın yaxasından,
Uzandı şeytan əlləri

Tuşlandı barmaqları
Azərbaycana sarı
Qısqırdı daşnakları,-
Daşnaklar quduşlaşdı
Öz həddini aşdı,
Sərhəddini aşdı
Milçək kimi qurd kimi
Azərbaycana daraşdı
1905-də, 18-də, 92-də
Kəndlər, şəhərlər talandı
Kəndlər, şəhərlər odlandı
İnsanlar güllələndi,
İnsanlar doğrandı

Düz üç yüz ildir,
Üç əsrdi
Daşnaklar qısqırığa hürür,
Qısqırığa yüyürür
Qısqırıqla iş görür,
Daşnaklar bir düşünmür,
Niyə qısqırığa hürür?
Niyə qısqırığa yüyürür?
Qonşulara
Üç yüz ildir
Üç əsrdir hürür
Dünya eşitmir, dünya görmür

Xocalı işğal olundu,
Bakıya əlləri çatmadı,

Allaha harayları,
Fələyə fəryadları.
Talandı yuvaları,
Yandırıldı yurdları,

Hər yan şaxta, hər yan qar,
Yolları kəsib quldurlar
Nə qaçmağa bir kənd
Nə gizlənməyə bir yer var.
Yolu kəsib azğınlar,
Yolu kəsib quldur, quduz, dığalar

Haray ay haray
Xocalı qana döndü
Ahı dumana döndü
Düşmən qırdı, vurdu, dağıtdı,
Yandı-yalana döndü
Xocalı gümana döndü
Ay Allah, gör necə
bu gecə
daşnaklar
Xocalını viran qoymuş,
Xocalını qanda boğmuş,
Bu ağır günü
Bu ahı, bu ünü-
Büsbütün
Bu faciənin qan yükünü,
Soyqırımlı bu dəhşəti,
Bu dəhşətli həqiqəti,

Çılınçılpaq,
Olduğu kimi,
Dünyaya bəyan etməyə,
Əl də acizdi,
Dil də acizdi,
Telefon, tel də acizdi
Bu faciədən
Bu gün söz açmaq da çətindi,
Danışmaq da çətindi
Ağı deyib, hönkür-hönkür
Ağlamaq da çətindi,
Susmaq da çətindi
Bu faciənin dəhşətləri,
Dilləri lal edir
Gözləri kor,
Əlləri iflic
Bu dəhşətli soyqırımı,
Baş verəndən bəri.
Tərk edib bizi
Ürəkdən gülüş,
Könüldən sevinc
İflic olmuşuq, İlahi,
Tışdan, içdən iflic
Fəqət,
Dərd ürəkdə diridir,
Dərd, dərdindən bağırır.
Faciədən doğulan ruhlar,
Bizi qisasa çağırır,
Bizi qisasa çağırır!

## EPİLOQ

Dünyanın əvvəlindən
Bir atlı gəlir,
Atı qanadlı gəlir.
Qəzəbli, inadlı gəlir
Atdan düşüb ana minmir,
Dincələ bilmir, yata bilmir.
Sola, sağa baxmır,
Qaraya, ağa baxmır,
İnadla, inamla gəlir,
Qoşulub, qovuşub zamana,
Zamanla gəlir.
Canımıza hopub,
Canımızla gəlir.
Qanımıza hopub,
Qanımızla gəlir.
Dinimizə, imanımıza hopub,
Dinimizlə, imanımızla gəlir.
Sabah, bu qeyrət qanı oyanacaq,
Sahibi - zaman olacaq,
Hökmü yaman olacaq.
Ölənlərin, itənlərin,
Zorla köçürülənlərin,
Əsir-yesir körpələrin,
Zorlanmış-korlanmış
Qızların, gəlinlərin
Qisasını alacaq!
Qisasını alacaq!

# DUEL

***A.S.Puşkinin qətli***

A.S.PUŞKİN 1837-ci ildə dueldə Dantes tərəfindən ağır yaralanmış və bir neçə gündən sonra həlak olmuşdur. Dantesin universitetdə oxuyan qız kötücəsi biləndə ki, A.S.Puşkin onun ulu babası Dantesin gülləsindən həlak olmuşdur, özünü universitetin pəncərəsindən küçəyə atmış və ölmüşdür. *(Qəzetlərdən)*

Həyatda günahı atalar əkir,
Ağrını, acını övladlar çəkir.

## HAŞİYƏ

İlahi... İnsanın varını al,
Ağlını alma.
Keç günahından,
Bəlaya salma.
Bəzən bilərəkdən,
Bəzən də bilməyərəkdən
İnsanın əlindən
Bir xata çıxır.
İnsanın dilindən
Bir xata çıxır.
Xata gürşada dönür,
Xata tufana, alova dönür,

Xata ev yıxır,
Xata ev dağıdır.
Xata ev yandırır.
Bəzən bir, bəzən də
Bir neçə İnsan ölür,
Bir neçə sahibsiz yurd qalır.
Bəlkə Tanrı cəzasıdır -
Əvvəl insanın ağlını alır,
Sonra bəlaya salır.
İşləri dolaşıq düşür -
yolları çalpaşıq düşür -
Dost-dostla düşür,
Dost-dostla düşmən olur.
Dost-dosta atəş açır,
Dost-dostla döyüşür.

Sərt qış günü...
Hər yan
Şaxtadan, ayazdan donur.
Təbiət sərtləşəndə,
İnsanlar da sərt olur...

## RUSIYA...

Təmtəraqlı kubar məclisi...
Eyş-işrətə qurşamb
Çılğın kubarlar
Eh - onlara nə var!..
Tez-tez məclis qurulur,

Hökm sürür sərxoşluq -
Qan-qan deyir dəliqanlılar.
Meydan sulayır şit zarafatlar,
Meydan sulayır
Sözatmalar, atmacalar,
Qaş-göz oynatmalar...
Vardı məclisdə
sərxoş olanlar,
Hər sözə ip atıb, qulp qoyub,
Dava salanlar...
Dantes çıdarlaya bilmədi
Dilini, sözünü, gözünü.
Dantes çıdarlaya bilmədi özünü.
Dantes də Dantes idi,
Gözəl, şorgöz bu oğlan
Puşkinə yaxın idi,
Hərdən yoldaşlıq,
Hərdən dostluq edirdi.
Şərab, araq, qadm gözəlliyi
Onun ağlmı almışdı
Onu təlxək edib ortaya salmışdı.
O gizli nəvazişilə,
Gizli baxışı ilə,
Gizli-gizli yol tapırdı,
Kəmənd atırdı Puşkinin xanımma.
Arada şayiələr gəzirdi,
Şayiələr Puşkini üzürdü, əzirdi.
Şayiələr, xəbərlər atlı idi,
Şayiələr, xəbərlər qanadlı idi,

Tez-tez çatırdı Puşkinin qulaqlarına,
Onda şübhə yaradırdı gözəl yarına,
O, istəmirdi inansın qulaqlarına.
Puşkin çox çalışırdı yol verməsin,
Son qoysun, səd çəksin
Şayiələrə -
Dantesin hücümlarına.
Bu təmtəraqlı məclisdə
Sərxoş Dantes sakit olmadı.
Sakit durmadı, sakit də
qalmadı:
Pünhan qaş-göz oynatdı,
Pünhan söz atdı

PUŞKİNİN yarına...
Toxundu Puşkinin
Qeyrətinə -
ən incə duyğularına.

RUSİYA... Qış günü,
Bəyaz torpaq, bəyaz meşə,
Şaxta ayaz insanı salır təşvişə.
Kubar məclislərində -
Duelə çağrış - toya çağrış kimiydi.
Duelə çağrış - idmanda yarış kimiydi-
Yarışa baxış kimiydi...

RUSİYA... təmtəraqlı kubar məclisi..
Yeyənlər, içənlər özündə deyil.

Sərxoş insanlar,
Sərxoş başlar -
özündə-sözündə deyil.
Dostlar - dost deyildi elə bil.
Hamı bir-birinə yad idi elo bil.
Puşkin qəzəbləndi,
Qəzəbə doldu.
Qeyrət - qəzəb doğurdu.
Qəzəb onu boğurdu.
O qəzəbli-qəzəbli
Ayağa durdu, olcək atdı,
Dantesi duelə çağırdı
Kor-peşman məclisi tərk etdi.

RUSİYA... Qış günü,
Hər yan şaxta, hər yan qar,
Torpaq bəyaz, meşə bəyaz,
Hava sərt, hava ayaz.
Meşədə iki yoldaş düşmən kimi
Üz-üzə gəldi.
Meşəyə kin töküldü,
qəzəb ələndi...
Onlar, duelə gəlmişdi
Hövsələ, səbr tükənmişdi...
Sekundantlar meşədə dueli
Nizamladı.
Yoldaşlar - düşmən olub,
Üz-üzə gəldi...

Dantes Puşkinə bir güllə atdı.
Faciəli güllə səsindən
Yer səksəndi, göy silkələndi,
Ağaclardan, budaqlardan
qar ələndi,
Qar səpələndi.
Güllə dəydi şairə,
Qara-qan çiləndi,
Qar qandan ləkələndi.
Meşə qana bələndi.,
Rus poeziyası Rus əli ilə güllələndi.
Rus poeziyası bəyaz qara sərildi.
Ağır yaralanan şair
Ox kimi dartındı.,
Yay kimi gərildi.
Puşkin bəyaz bir gündə,
Bəyaz bir meşədə,
Bəyazlığa sərildi...
Dueldə Dantes Puşkinə
Tək bir güllə atdı.
Bu tək güllə Rusiyanı,-
Dünya poeziyasmı sarsıtdı.
Atəşdən üç gün sonra
Rusiya da, dünya da.
Puşkinsiz qaldı.
Bir gündə
Rusiya qəmdən qocaldı.

RUSİYA dərddən qocaldı.

Puşkinə atılan güllə
İtmədi, batmadı,
Gecə-gündüz yatmadı.
Ayları, illəri dəldi,
İlləri, əsrləri dəldi,
Yüz il, yüz əlli il yol gəldi.
Dantesin kötücəsinə-
Tələbə qıza dəydi-
Mənliyini oyatdı.
Huşunu, ağlını aldı,
Əsəblərini oynatdı.
Beyni dumanlandı,
Yanaqları allandı.
Qız ulu babasmı da, özünü də
Puşkinin qatili sandı.
Yer, Göy, auditoriya
Başına fırlandı,
qız sarsıldı,
Universitetin pəncərəsindən,
Özünü küçəyə atdı.
Qız özünə qəsd etdi,
Bir faciəli tarix yazdı.
Dantesin şərəfsiz
Həyatı, günahı üstdə
Tələbə qızcığaz
Məzar qazdı,
Şərəfli bir ölüm yazdı.,
Tarix Dantesi
Qəlp pul etdi,

Bükdü günahına,
Qızcığazı qızıl külçə-
Atdı öz daxilinə.
Həyat bir sinifdir,
tarixdir, dərsdir,
Bir səhv, bir hikkə
ölüm doğursa,
Həyata, tarixə qəstdir.
Şairə qəst-poeziyaya,
Mədəniyyətə, tarixə qəstdir.
Şairə qəst - bir dünya
Matəmə bosdir.

*2002*

# NOVRUZ SƏHNƏCİYİ

(Uşaqlar üçün)

## SƏRÇƏ

*2000-ci il.*

### İŞTİRAK EDİRLƏR

*Ayaz Qarı* -
*Sərçə* - oğlan uşağı
*Bahar xanım* -
*Cücələr* - qızlar
*Toyuq* - cücələrin anası,tamaşa boyu cücələrlə birlikdə olur.
Qaranquşlar - oğlanlar *(qaranquşa oxşar geyimdə)*
Güllər, çiçəklər - qızlar *(güllü paltarlarda)*
Çalğıçılar, xanəndələr və başqaları...

El Novruz şənliyinə toplanıb. Səhnədə cücələrim mahnısı oxunur. Cücələr - qızlar, qaranquşlar -oğlanlar oynayıb oxuyurlar. Güclü külək əsir, Havalar soyuq və şaxtalıdır. Səhnə kölgələnir. Bəyaz geyimli, ağ dolaşıq saçlarımdan kirpiklərindən buz sallanan Ayaz qarı hər şeyə , hamıya meydan oxuyur. Cücələr, qaranquşlar, güllər, çiçəklər soyuqdan qorunmaq üçün səhnə kənarına çəkilirlər. Ayaz qarı qəzəbli halda enli bəyaz tumamnı qar saçlarımı yelləyib - küləyi,

şaxtanı gücləndirir. Və

- Eheyy... Şənlik uşaqları,
Gözləməyin baharı.
Mənəm, mən - Ayaz qarı,
Göydən yağdıran qarı.
Buluddan yaylıq örtüb,
Köhlənimi çaparam.
Şaxtalı nəfəsimlə,
Güclü tufan yaparam.
Qardan paltar geyinib,
Yeri, göyü tutaram.
Gül-çiçəyi vuraram,
Uşaqları donduraram.
Qovub peçə dolduraram.
Adımdır Ayaz qarı,
Mənəm yağdıran qarı.

Cücələr - Ay ana, ay aman,
Üşüyürük yaman.
Ayaz gəlmə, Ayaz dayan,
Bir az gözlə, bir az dayan
Ayaz dayan, Ayaz dayan
Bir az gözlə, bir az dayan.
Bizi ayırma yazdan,
Bizi ayırma yazdan!

Sərçə atlana-atlana səhnəyə gəlir. Ayaz qarının buz görkəmini, güclü küləyini, sərt

şaxtasını vecinə almadan üzünü cücələrə, köçəri quşlara (qaranquşlara) tutub, sinəsini qabağa verib təşəxüslə:

-Cik-cik, cik-cik,
Mən balaca sərçəcik,
Şaxta, qardan qorxmuram,
Ayaz qarıdan qorxmuram.
Heç tufandan qorxmuram.
Əsil vətəndaş mənəm,
Vətənə yoldaş mənəm.
Dar gündo qardaş mənəm.
Di gəl, köçəri quşlar,
Şaxta, qardan qorxmuşlar.
Qışda uçub qaçmışlar,
İndi yazdı, gəliblər. –
Deyib kənara çəkilir.

Ayaz qarı yenə səhnədə var-gəl edir, çox qəzəbli görünür. Güclü, soyuq külək əsir. Uşaqlar (cücələr, qaranquşlar, güllər, çiçəklər) üşüyürlər. Ayaz qarı qəzəbli halda:

- Eheyy... Şənlik uşaqları,
Gözləməyin baharı.
Mənəm, mən - Ayaz qarı,
Göydən yağdıran qarı.
Buluddan yaylıq örtüb,
Köhlənimi çaparam,

Şaxtalı nəfəsimlə,
Güclü tufan yaparam
Qardan paltar geyinib,
Yeri, göyü tutaram.
Gül-çiçəyi vuraram,
Uşaqları donduraram.
Qovub peçə dolduraram.
Adımdır Ayaz qarı,
Mənəm yağdıran qarı.

Ayaz qarının könlünü almaq üçün uşaqlar xorla
Ayaz qarıya aid mahnı oxuyurlar.

- Ayaz nənə, Ayaz nənə,
Qoy gəlsin tez yaz, nənə,
Bizi şaxta vurmasın,
Əlimizi dondurmasın.
Əsməsin sərt küləklər,
Açsın güllər, çiçəklər.
Gəlsin köçəri quşlar,-
Şaxta, qardan qorxmuşlar…

Qaranquşlar - xorla

- Ayaz nənə, Ayaz nənə,
Qoy gəlsin tez yaz, nənə.
Bahar sorağıyla uçub,
Biz vaxtında gəlmişik,
Sən gecikib qalmısan,
Öz ömrünü uzatmağa,

Yazdanmı borc almısan?
Qoy gəlsin tez yaz nənə,
Ayaz nənə, Ayaz nənə.
Bahara tələsirik.
Biz bahar istəyirik.
Ayaz qarı, Ayaz qarı,
Gec də olsa get barı.
Şaxta vurur əsirik,
Gözləyirik baharı,
Biz bahar istəyirik.

Sərçə səhnədə görünür.
Üzünü qaranquşlara tutaraq, özünü öyür:

-Cik-cik, cik-cik,
Mən balaca sərçəcik,
Bambalaca sərçəcik,
Şaxta, qardan qorxmuram,
Ayaz qarıdan qorxmuram.
Heç tufandan qorxmuram.
Əsil vətəndaş mənəm,
Vətənə yoldaş mənəm.
Dar gündə qardaş mənəm.
Di gəl, köçəri quşlar,
Şaxta, qardan qorxmuşlar.
Qışda uçub qaçrmışlar,
İndi yazdı, gəliblər.

Deyərək səhnədən gedir.

Qaranquş oğlanlar dəstə ilə
səhnədə oynayır və oxuyurlar.

Qaranquşuq, qaranquşuq biz,
Bir balaca quşuq biz.
Baharda doğulmuşuq biz.
Bahara vurulmuşuq biz.
Ayaz qarı, Ayaz qarı,
Gec də olsa, get barı.
Şaxta vurur əsirik,
Bahara tələsirik,
Biz bahar istəyirik.
Bahar - sevincimiz, istəyimiz,
Bahar - arzumuz
Bahar nəğməmiz.
Bir balaca quşuq biz,
Bahar sorağıyla, müjdəsilə,
Ölkədən - ölkəyə uçmuşuq biz.

Bahar xanım səhnədə güllü paltarda görünür.
Və deyir:

Gözəl quşlar, çiçəklər,
Məni deyib gəlmisiz,
Məni sevib gəlmisiz,
Məni istəyib gəlmisiz, –
Mən də sizi sevirəm
Xoş gəlmisiz bahara,
Bahar hara, qış hara?!
Əcəb uçub gəlmisiz,

Darıxmışam mən sizsiz.
Gəl-gəl Novruzum gəl,
Körpəcə quzum gəl.
Baharım, yazım, gəl.
Şən, gözəl qızım, gol.
Ən böyük arzum, gəl.

Qaranquşlar, cücələr, güllər, çiçəklər Bahar xanımın ətrafında əl-ələ tutub yallı gedirlər.
Nəğmə oxuyurlar.

- Bahar gəlir dəli-dolu,
Gəlir nurla əli dolu.
Göz qırpanda şimşək çaxır,
İldırımdan qanat taxır.
Yerlə gələr, Göylə gələr,
Çiçəklə, güllə gələr.
Böyük hay-küylə gələr,
Bahar gələndə, gələndə.
Gülüşündən bıılud qaçar,
Görüşündən güllər açar.
Yerlə gələr, Göylə gələr,
Çiçəklə, güllə gələr,
Harayla, küylə gələr,
Bahar gələndə, gələndə.
Günəş işıq verər, nur verər bizə,
Düşər şəfəqləri gözlərimizə.

Sonrada Bahar xanım oxuyur

- Əsmə külək dayan, dur,

Qanadmı asta vur.
Qızlar nəğmə oxuyur,
Quşlar nəğmə oxuyur.
Günəş nur verir bizə,
Nuru köçür gözümüzə.
Qaldınb göylərə güllər piyalə,
Bahara xoş gəldin söyləyir lalə.
Gəl-gəl Novruzum gəl,
Körpəcə quzum gəl.
Baharım, yazım gəl,
Ən böyük arzum gəl.
Ay gözəl qızım gəl.

Ayaz qarı hirsli və əsəbi halda səhnəyə daxil olur.

Ayaz qarı:
- Eheyy... Şənlik uşaqları,
Gözləməyin baharı.
Mənsiz burda qalmısız,
Yaman hay-küy salmısız.
Küləkləri artıraram,
Böyük tufan qopararam,
Sizi süpürüb apararam.
Görərsiz Ayaz qarı,
Necə tufan qoparar,
Necə yağdırar qarı.

Qaranquşlar, cücələr, güllər-çiçəklər Ayaz qarının şəninə nəğmə oxuyurlar ki, Ayaz nənənin

könlünü alsınlar.
Ayaz nənə, Ayaz nənə,
Qoy gəlsin tez yaz, nənə.
Bahar sorağıyla uçub,
Biz vaxtında gəlmişik,
Sən gecikib qalmısan,
Ömrünü uzatmağa
Bahardan borc almısan?
Şaxta vurub əsirik,
Bahara tələsirik.
Biz bahar istəyirik.
Ayaz qarı, Ayaz qarı,
Gec də olsa get barı.
Gözləyirik baharı.

Sərçə təkəbbürlə səhnəyə gəlir və özünü öyür:

-Cik-cik, cik-cik,
Mən balaca sərçəcik,
Bambalaca sərçəcik,
Şaxta, qardan qorxmuram,
Ayaz qarıdan qorxmuram.
Heç tufandan qorxmuram.
Əsil vətəndaş mənəm,
Vətənə yoldaş mənəm.
Dar gündə qardaş mənəm.
Di gəl, köçəri quşlar,
Şaxta, qardan qorxmuşlar.
Qışda uçub qaçmışlar,

İndi yazdı, gəliblər.

Bahar xanım və soyuqdan titrəyən cücələr, qaranquşlar, güllər, - çiçəklər bahara aid nəğmə oxuyurlar. Baharın tez gəlməsini istəyirlər və:

- Gəl ey bahar, gəl ey bahar,
Gəlişində min hikmət var.
Torpağa isti nəfəsin gərək,

Daşları çiynində qaldırsın çiçək.
Puçurlar çadranı yellərə versin,
Tumurcuq boylansm zirch çəpərdən,
Tumlar da sıynlıb çıxsm zirehdən,
Həyat sularla əyilsin yerə,
Həyat nidalarla yüksəlsin yerdən.
Elin şenliyidir bahar bayramı,
Bahar seyrinə çıxıbdır hamı.

Günəş tədricən buluddan çıxır, səhnə işıqlandıqca Ayaz qarı səhnədən çəkilib gedir. Səhnə canlanır. Cücələr, qaranquşlar, güllər, çiçəklər sevinir, yenə oxumağa başlayırlar. Oynaya-oynaya oxuyurlar:

Günəş işıq verir, nur verir bizə,
Düşür şəfəqləri gözlərimizə.
Qaldırsın göylərə güllər piyalə,
Bahara "Xoş gəldin" söyləsin lalə.

Bahar xanım:

- Gəl-gəl Novruzum gəl,
Körpəcə quzum gəl.
Baharım, yazım gəl,
Ən böyük arzum gəl.
Gözəlcə qızım, gəl.

Əsmə külək dayan, dur,
Qanadmı asta vur.
Qızlar nəğmə oxuyur,
Quşlar nəğmə oxuyur.
Günəş işıq verir, nur verir bizə,
Düşür şəfəqləri gözlerimizə.
Qaldırsm göylərə güllər piyalə,
Bahara "Xoş gəldin" söyləsin lalə.

Günəş səhnəni tam işıqlandırır. Bahar xanım üzünü günəşə tutub: -

Gəl, ey Günəş! Gəl ey Günəş!
Sındırsın şaxtanı səndəki atəş!..
Günəş işıq verir, nur verir bizə,
Düşür şəfəqləri gözlərimizə.
Qaldırsın göylərə güllər piyalə,
Bahara "Xoş gəldin" söyləsin lalə.

**SONU**

# MƏN HAMIYA İNANIRAM

Qaş qaralır, axşam düşür, bir günümüz də sona yetir. Sona yetən bu gün də tarixə çevrilir. Ancaq tarixə çevrilən günümüzdə Vətən üçün, tarix üçün, gələcəyə çatdırmaq üçün gərəkli, faydalı nə isə edrikmi? Və yaxud, özümüzə hesabat verəndə elədiklərimzdən gələcək nəslin razı qalacağına əmiinkmi? Bu suallar ortaya çıxanda vicdan susmur, öz-özünə sual verir. Çiynində daha ağır yük daşımağa hazır olan şair, çiyinlərin böyük məsuliyyət qoyaraq, etdiklərindən hələ o qədər də razı olmadığı üçün təvazökarlıqla özünü "Doğma şeirimizin ögey şairi" adlandırır.

Qəşəm Çıraqlı bir neçə şeir kitabının müəllifidir. Oxuculara imzası çoxdan tanış olan şairin bu günlərdə yenicə çapdan çıxmış "Mən hamıya inanıram" kitabı gələcək nəslimizə dəyərli sözlərdən hörülmüş şeir çələngidir.

"Xoşbəxt olardın?" şeirində pula həris qadınlara, ümumiyyətlə pula şirnikərək bütövlükdə şəxsiyyət və mənəviyyatını ayaqlar altına almağa hazır olanlara dünyanı pula bürüyüb, ayaqları altına atsa, gözü-könlü doyub "xoşbəxt olardın?" sualını verəndən sonra şair şeirinin sonunda oxucusuna daha ciddi məqsədləri xatırladır:

Xəzinədar kimi
Çəkiləydi adın,
Güylüm, xoşbəxt olardın?

Düşəndə pul selinə,
Batanda pul gölündə,
Görərsən pul deyilmiş
Xoşbəxtliyin açarı –
Tufan qopar könlündə

Bununla şair “Nəyə lazım o qızıl teşt ki, içinə qan qusasan?” el deyimini çox ustalıqla müasir üslübda oxucuya çatdırır.

Şair Azərbaycanda lövhə yaratmaqla şair 20 Yanvar faciəsini qan yaddaşımız kimi gələcək nəslə çatdırır və bütün ölkənin yas içində olduğunu, anaların ağlar qaldığına işarə edərk onları sözlə ovutmaq mümkün olmadığını, faciənin böyüklüyünü, dəhşətini, sonsuzluğunu altı bənd şeirə ustalıqla sığışdırıb, bir büküm dərdin bütöv bir xalqı necə çuğladığını qabarıq çatdırır.

Bu günümüzdə Qarabağ mövzusuna ehtiyacı olan poeziyamızın və Qarabağ dərdini bütün dünyaya faş etmək üçün mövzü qıtlığı duyan nəsrimizin aclığını nəzərə aldığındanmı, yoxsa şair özünün də daxilində bir üsyan, bir həsrət, bir yanğı baş qaldırdığındanmı “Hörümçək toruna düşən Vətən” şeirini qələmə alır və haqlı olaraq:

Döndü hörümçəyə kənardan gələn,
Hörümçək toruna düşübdür Vətən.

Qəşəm Çıraqlı “İsa bulağı” şeirində bir qurtum

suya təşnə olduğunu elə izhar edir ki, İsa bulağında olub-olmayan hər bir kəsdə nostalji hisslər oyanır, qəlbi kövrəlir:

Bir qurtum su ver, içim.
Həsrətiindən yanır içim.
Yol ver, yanına köçüm,
Sərin bulaq, şirin bulaq,
Sənə həsrət qalıb dodaq.
Ağ buxaq, al yanaq-
İsa bulağı –
Axx.. ay bulaq, axx... ay bulaq –

Qəşəm Çıraqlı təcrübəli qələm sahibi kimi hansı mövzuda desən, özünü məharətlə sınayır: istər təbiətin təsvirində , istər körpələrlə münasibətdə, gözəllərin vəsfində, siyasətin çərçivəsində.

Kitabın sonunda oxuduğumuz “Rusiya” şeiri, ondan sonra gələn, tamamilə başqa əhvali-ruhiyyədə yazılmış uşaqlar üçün “Sərçə” Novruz səhnəciyi şairin yaradıcılığından inamla danışmağa imkan verir. Həmkarım Minəxanım Təhləlinin yazılarında isə Qəşəm Çıraqlının yaradıcılığı daha dolğun təhlil edilib. Mən də bütün oxucu auditoriyasının zövqünə inanaraq, Qəşəm Çıraqlının “Mən hamıya inanıram” şeir kitabını oxumağı tövsiyə edirəm.

**Nüşabə Məmmədli,**
*yazıçı –Yazıçı Qadınlar Cəmiyyətinin Sədri*
*“Mədəniyyət” qəzeti*
*07.05.2005*

# ŞEİR DÜNYASINA ELÇİYƏM

Demə mən kiməm, nəçiyəm,
Şeir dünyasına elçiyəm.
Yer şairiyəm, Göy şairiyəm,
Doğma şeirimizin
ögey şairiyəm.

Bu misralar şeir dünyasına elçi düşən yaradıcı qələm sahibləri sırasında deyim tərzi ilə seçilən şair Qəşəm Çıraqlınındır. Səmimi hissdən, etirafdan yoğrulmuş bu misralarda Qəşəm Çıraqlının səsi duyulur. Şair səsi həmişə onun şeirlərindən bəzən pıçıltı, bəzən də qəzəblə eşidilir. Qəşəm Çıraqlı sakit təbiətli, təmkinli insan olduğundan onun şeirlərindən qopan həzinlik insanın ruhuna bir rahatlıq, sakitlik bəxş edir.

Təbii ki. Qəşəm Çıraqlı imzası poeziyasevərlərə yaxşı tanışdır. Onun bu günə qədər bir neçə kitabı nəşr olunaraq, oxuculara təqdim edilmişdir. Bu yaxınlarda qələm sahibinin yeni bir kitabı da "Mən hamıya inanıram" "Qorqud" nəşriyyatı tərəfindən çap olunmuşdur. Kitaba əvvəlki nümunələrində olduğu kimi, vətənpərvərlik, qəhrəmanlıq və Qarabağ faciələri haqqında müxtəlif illərdə qələmə aldığı şeirləri toplanmışdır. Bu şeirlərlə yanaşı, yeni nəşrə şairin "Duel" poeması və

kitabları haqqında yazılmış rəylər toplanmışdır.

Kitaba "İnam nəfəsli şeirlər" başlıqlı ön sözü yazıçı-türkoloq Minəxanım Təhləli yazmışdır. Şairin yaradıcılıq yoluna nəzər salan Minəxanım Təhləli onu şəxsiyyəti ilə yaratdığı irsdə bir uyğunluq, harmoniya olduğu qənaətinə gələrək, belə yazır:

"Təbiətindəki harmoniya və gözəllik, saflıq, eyni zamanda, şirinlik, yaxşılıq şair üçün dünyanı gözəl görməyə , gözəlləşdirməyə bir vasitə olur..." Həyat fəlsəfəsinə aludə olmaq, onun, onun dərinliyinə enə bildiyin qədər də enmək şairi də, oxucusunu da kövrək və düşüncəli edirmiş".

Qəşəm Çıraqlı poeziyasındakı həyat fəlsəfəsi kədərdən, qəmdən yaranmışdır ki, şairin kövrək qəlbi bu ağrı-acını zamanın axarında bir ustalıqla qələmə ala bilmişdir. Zamanın belə sürətlə ötdüyü bir vaxtda günlərin, ayların insan həyatından qoparıb aldığı ömrü "Son yarpaq" adlı şerində şair özünəməxsus bir tərzdə belə ifadə edir.

Baxıram təqvimə,
bu son yarpaqda,
İlin son nidası, son sözü vardı.
Əlvida sədalı qopan varaq da,
Qapıb ömrümüzdən bir il apardı.

Şairin yaradıcılığında son dövr hadisələri, cəmiyyətə olan münasibət və baxışı da öz əksini tapmışdır. Qəşəm Çıraqlının "Qaçqın monoloqu" bu mövzuda

yazılmış nümunələrdən biridir:

Üzünə üz qoymağa üzüm gəlmir,
Ana Vətən,
Şəninə mədh deməyə sözüm gəlmir,
Ana Vətən.
Məni bağışlasın qoruya bilmədiyim
O elim, o obam,
Məni bağışlasın qəbri
Düşmən əlində qalan
O nənəm, o babam: – əzizlərim,
Sizi qoruya bilmədim,
Sizi xilas edə bilmirəm,
Sizi ziyarətə gələ bilmirəm.
Üzüm gəlmir, üzünə üz qoymağa,
Ana Vətən.

Qəşəm Çıraqlı söz dünyasında yaşadığı hiss və düşüncələri, şahidi olduğu hadisələri qələmə almışdır. Bu şeirlər sadə bir dildə yazılmış nümunələrdir. Onun "Duel" poeması da sadə və anlaşıqlı bir dillə qələmə alınmışdır. Şair bu poemanı maraqlı bir mövzu ətrafında işləmişdir. Bildiyimiz kimi, rus şairi A.S. Puşkin 1837-ci il dueldə Dantes tərəfindən ağır yaralanmış və bir neçə gündən sonra dünyasını dəyişmişdir. Dantesin univesitetdə təhsil alan qız kötücəsi biləndə ki, A.S. Puşkin onun ulu babası Dantesin gülləsindən həlak

olmuşdur, o, buna mənəvi cəhətdən tab gətirməyərək, özünü universitetin pəncərəsindən küçəyə ataraq, dünyasını dəyişmişdir. Bu hadisədən təsirlənən Qəşəm Çıraqlı "Duel" poemasını yazmışdır. Poemanın əvvəlinl-dəki iki misra əsərin mahiyyətinə bir aydınlıq gətirir.

Həyatda günahı atalar əkir,
Ağrını-acını övladlar çəkir.

Qəşəm Çıraqlının "Mən hamıya inanıram" şeirlər kitabı oxucuların ixtiyarındadır. Təbii ki, bu nümunə şairin sənət aləminə yaxın olan poeziyasevərlərin diqqə-tindən kənarda qalmayacaqdır.

**Zümrüd Bayramova,**
*jurnalist,*
*"Səs" qəzetində şöbə müdiri*

## ŞƏRƏFLİ ÖMÜR

Mən də bəndənəm,
Adicə bəndən, ilahi!
Gözlərim göylərdə
Axtarır səni.
Hardasa, nədəsə
Səhv etmiş olsam,
Bağışla, bağışla məni.

## TANINMIŞ ŞAİR QƏŞƏM ÇIRAQLININ POEZİYA DÜNYASI

Müasir poeziya dünyasında öz mövqesi, öz yeri olan Qəşəm Çıraqlı şeirlərini dönə -dönə oxumuşam. Şair olmasam da, yaxşı şeirin vurğunuyam. İlk poeziya mayamızı Ana laylasından, Nizami, Füzuli hikmətindən almışıq, poeziyanı sevmişik. Poeziya bizi ruhlandırıb, qurub -yaratmağa həvəsimizi artırıb, dünya fəlsəfəsini bizə damla -damla əmizdirib. Özümüz bilmədən qanımıza, canımıza hopub poeziya. Ana məhəbbəti, Vətən məhəbbəti ətraf mühitə olan məhəbbətimiz də bu yolla qəlbimizdə yuva salıb.

Qəşəm Çıraqlı şeirlərini oxuyandan sonra bu barədə yazmağı özümüzə borc bildim. Ona görə ki, şair poetik dillə göstərir ki, Vətəni «sevmək» pərdəsi altında ona düşməncəsinə zərbə vuranlar daim ümumi inkişa-

fımıza mane olublar:

Hələ çoxdur ətəyində
Namaz qılanlar,
Namaz qıla -qıla
Zərbə vuranlar.
Çörəyini yeyib, suyunu içib
Badalaq vuranlar,
Tələ quranlar.

Bu şeiri oxuyarkən yadıma 90-cı illərin əvvəlləri düşdü. Bəli, 90-cı illərin əvvəlləri. Xalq adından, Vətən adından danışan, həmişə sinəsinə döyən nadanların vətəni satması, xalqa tələ qurması düşdü yadıma. Elə indinin özündə belə tiplər çox deyilmi?! Ən təəccüblüsü odur ki, vətənə badalaq gələnlərin çox hissəsi harın -narın dolananlar, tam təmin olunmuşlardı. Belə tipləri tənqid azdır. Onları ifşa etmək üçün Cəlil Məmmədquluzadə, Ələkbər Sabirin öldürücü qələminə zamanın ehtiyacı var! Məmurlar tanıyıram onun üçün xalq, vətən məfhumu heç də maraqlı deyil. Onun And yeri puldur, sərvətdir. Məmurlar tanıyıram sərvət toplamağa o qədər başları qarışıb ki, tale yüklü Qarabağ problemi yadına düşmür. Yağlı yerdə işləyən, xarici maşını, villası olan, hətta xaricdə mülkü olan insanlar tanıyıram, deyir: «qarabağ problemini qarabağlılar həll etməlidir». Ar olsun, belə vətəndaşa! Ar olsun, belə vətəndaşlara! Qəşəm Çıraqlının «Türkün kölgəsi» şeiri bu cəhətdən daha maraqlıdır:

Elə ki, atdan düşdü
Cəsarətdən düşdü türk,
Qeyrətdən düşdü türk,
Əvvəl atını itirdi,
Sonra
Şöhrətini, adını itirdi.

Şair bu şeirində Qarabağın erməni faşistləri tərəfindən işğal olunmasına ürək ağrısı keçirir. Qəşəm Çıraqlı, yəqin bilərsiniz ki, bu xəyanətdə də daxili düşmənlərin rolu az olmamışdı. 90-cı illərin başsız başçıları vətəni hərraca qoydular, vətənə tələ qurdular. Vətən, vətəni sevən rəhbərin olmaması ucbatından düşmənə verildi. Qarabağın ümumən vətənin baş tacı olan Şuşa bizlərin biganəliyi hesabına düşmənə tabe oldu.

Mən heç də nikbinlikdən uzaq insan deyiləm. Onu bilirəmki, Vətəni satanların əksinə olaraq, əbədi yaşar Heydər Əliyevin çevik siyasəti, onun qüdrətli davamçısı İlham Əliyevin məqsədyönlü siyasəti, qüdrətli Azərbaycan ordusu Qarabağı yağı düşməndən azad edəcəkdir. Bu xoşbəxtliyi hamımız görəcəyik. Şuşada poeziya bayramları keçiriləcək. Mütləq Allahın köməyi ilə həmin poeziya bayramında Qəşəm Çıraqlının poeziya dünyasından söz açmağa söz verirəm.

«Qaytar Qarabağı» şeiri məhz bu arzularla yazılmışdı:

Nə qədər dərd çəkib,
Qəm yemək olar,

Məğlubiyyət zəncirini
Boynumuzda gəzdirmək olar?!

Şair, Sizin haqlı iddianıza bircə əlavəm var. Yaxşı millət bu təhqirə dözməz!

«Standartlaşmaq istəmirəm» şeirində şair mühüm bir məsələyə toxunur. Bu olduqca yeni və vacib məsələdi:

Mən fikirlərimi, şeirlərimi
Standartlaşdıra bilmərəm.
Fikirlərimi qəlibə sala bilmərəm.
Fikir sərhəd bilməz,
Fikir qəlibə girməz.

Doğrudan da, insan fikri fəzanı xatırladır, onun ucu -bucağı yoxdur.

Xüsusilə də qələm əhli olanların azad fikrini cilovlamaq olmaz. Fikri qəlibə salmaq, qartalın qanadlarını qırmağa bərabərdir.

Qəşəm Çıraqlının daha bir şeiri diqqətimi cəlb etdi. «Dərdimizi yazıram!».

Bütün qələm sahibləri, istər poeziya olsun, istər nəsr olsun, yazdıqları əsəri heç də təsadüfən yazmırlar. Əsər müəllifin ürək çırpıntısıdır. Burada bir balaca müqayisə aparmaq istərdim. Dünyanın bəzəyi olan analar dünyaya körpələr gətirir. Analıq rütbəsi qazanırlar. Həyata gətirdikləri gül balalar da onaların əsəridi.

Anaların cəmiyyətə bəxş etdiyi uşaqlar təbii ki, məhəbbətdən yaranıb. Hər bir əsərin meydana gəlmə-

sində mühüm təməl mövcuddur. Ona görə də bəzi şairlərə məhəbbət şairi, bəzilərinə həsrət şairi və s. deyirlər. Əgər dünyada analoqu olmayan pak məhəbbət, insanı ucaldan eşq olmasaydı Səməd Vurğun Vurğun olardımı?!

Füzuli dərd əlindən dağa çıxdı,
Dedilər bəxtəvər yaylağa çıxdı.

Kimi şairlik mayasını dərddən, kimi isə məhəbbətdən alır.

Qəşəm yazır:
Mən şeir yazmıram,
Səndə, məndə olan,
Sinəmizdə qalanan,
Odlanan, alovlanan,
Ürəyimizi yandıran
Dərdimizi yazıram.

Bəli şair Qəşəm Çıraqlı qəlbində onu narahat edən kədəri, qüssəni yazır.

Bununla  demək istəyirəm ki, yazılan əsərlərin hamısının əsaslı səbəbi olur.

Qəşəm Çıraqlının «Qoca, hara gedirsən» şeirinə baxaq:

Titrəyən əllərin, uçunan dizlərin,
Solğun gözlərin imdad istəyir.
Kömək gözləyir.

Darda qalan, dığalarda qalan
Qarabağ kimi.

Bir nəfərin ünvanına yazılmış bu şeir - Qarabağın dığalarda qalması şairin kədər dünyasından xəbər verir. Bu şeir narahat qəlbin döyüntüləridir. Bütün bunlara baxmayaraq dünyaya açıq gözlə baxan Qəşəm Çıraqlı onu da yaxşı bilir ki, bu dünya belə qalmaz! Qarabağa qovuşacağımız günlər lap yaxından görünür.

Şair yeri gəldikcə daha ciddi şeirlər yazır, hətta siyasi motivli şeirləri oxucular tərəfindən rəğbətlə qarşılanır.

«Hər şeyin zamanı var» şeiri bu cəhətdən daha səciyyəvidir. Kapitalizmin ana fəlsəfəsi olan «Parçala, hökum sür» ideyasının dünyanı lərzəyə salması şairin ciddi narazılığına səbəb olur. Amerika Birləşmiş Ştatları fövqəladə dövlət olaraq istənilən qədər haqsızlıq etməkdə bəşəriyyət tərəfindən nifrətlə qərşılanır. Şair Qəşəm Çıraqlının dili ilə desək bu buynuzlu qoç İraqın prezidenti Səttam Hüseyini haqsız olaraq asdırması dediklərimizə möhür vurur. Tarixən belə haqsızlıqlar olub və yenə olmaqdadır. Yaşadığımız bu dünyada oyunlar gedir, hamısı da sərvətə görə!

Ən acınacaqlısı odur ki, güclüsən, haqlısan kimi neqativ proseslər bu dünyanı düzəlməyə qoymur ki, qoymur. Demokratiya pərdəsi altında qeyri demokratik, dağıdıcı işlər görən Amerika özü bütün qanunlara qarşıdı. Öz xeyirləri onlar üçün bəşəri qanundur. Şair «hər şeyin zamanı var» şeirinin sonunda yazır:

Qoçlarda buynuzlar,
Vurmaq, qırmaq üçündür.
Qoçlarda buynuzlar
Dağıtmaq, uçurmaq üçündür.
İndii təhlükəsizlik naminə
Bütün buynuzlar qırılmalıdır.
Buynuzlu qoçlar
Buynuzsuz qalmalıdır.

Bu bir şairin harayı, manifestidir. Bu Qəşəm Çıraqlının arzusu - diləyidir.

Qəşəm Çıraqlının «Yuxusu pozulan quşlar» şeiri də öz həyatılığı ilə maraqlıdır.

Yatmış quşlara güllə atmaq, onların quş yuxusunu pozmaq özü də bir günahdı.

Səsdən səksənən quşlar,
Yuxulu -yuxulu,
Qorxa -qorxa
Qaranlığa uçdular,
Uçub yox oldular.
Harda mərdimazar var
Dönər topa, tüfəngə
Yuxulara atılar.

Şairin mərdimazara tuşlanmış haqlı nifrəti şəxsən mənim ürəyimdən xəbər verir. Dünyamızı korlayan, suyu bulandıran, yaxşılara badalaq gələn mərdimazarlar deyilmi?! Nə qədər dünyada onlar var, bədxahlar var,

nadanlar var həyatda səksəkə də olacaqdır. Məhv olsun mərdimazarlıq!

Bəzi adamlarda olan bu qeyri - insani xüsusiyyət bəşəriyyətin əxlaq kodeksinə düşməndi. İnkişafımıza, intellektimizə ağır zərbədir.

Şair «Vətən, zəlidən, gənədən qorun» şeiri ilə hər zaman aktual olan yaramazların meydan sulamasına güzgü tutub:

Vətən, sənin qanını soran
Zəlilərdən, gənələrdən qorun!
Adına - sanına ləkələr vuran,
Sənə badalaq gələn, tələ quran
Ədalı, lovğa gədələrdən qorun!

Şirdən, pələngdən qorxun olmasın,
Sən quduzlaşmış,
Həddini aşmış
Tülküdən, çaqqaldan qorun!

Bu şeir şairin vətənpərvərliyindən irəli gələn bir üsyandı. Həyatda öz yerini tapa bilməyən, həyatı doğru -düzgün dərk edə bilməyənlər adətən bədniyyətlərə əl atmalı olurlar. Doğurdan da ağıllı insanlar heç vaxt məqbul olmayan işlər görməz.

Şairin poetik dillə onları şirə, pələngə oxşatması çox təbiidir, qorxulu düşmən tülkü, çaqqal rolunda həyata əngəl olanlardır. Allah bizim gözəl vətənimizi, həm də hamımızı belələrindən qorusun. Biz də yarımçıqlar-

dan, yalançı mollalardan, şaykabazların uydurduğu şər -böhtandan, rüsvayçı qurquçulardan qorusun. Onlar bəd şiş qədər qorxulu, zəhər qədər acı, zülmət qədər qaranlıq olanlardı. Aqillərdən biri deyib: - Nə qədər ki, insanları yaxından tanımırdım, itlərə nifrət edirdim. Elə ki, adamları yaxından tanıdım, itlərə hörmətim artdı.

Qəşəm Çıraqlı yaradıcılığında böyük uğur kimi qəbul olunan bir cəhəti qeyd etmək yerinə düşər. Şair həyatda mövcud olan neqativ işlərə acıyır və onlara öz qəzəbini də bildirir. Digər tərəfdən şair heç də bədbin deyil. O, nikbin notlarla hər şeyin gələcəkdə yaxşı sonluğunu görür, ona ümid bəsləyir. «Yol göstərirsən» şeirində bunu açıqca görürük:

İlahi, mən sənə
Heç nə demək istəmirəm.
Səndən heç nə
Diləmək istəmirəm.
Zaman gələndə
Haqq yolun azanları,
Mərdə quyu qazanları,
Dindən - imandan
Qaçanları
Layiq olduqları qədər
Cəzalandırırsan!

Şair üçün bu ən böyük xüsusiyyətdir. O, yaxşı başa düşür ki, bu dünyanın sahibi var, nizam -tərəzisi var, xeyir -şəri yazan mələkləri var. Yaxşı öz payı olan

rəhmətini, pis isə bəd əməli müqabilində cəzasını aldacaqdır. Elə Qəşəm Çıraqlının «Ömür videolenti» adlı şeirində deyildiyi kimi:

Ömür də
Videolent kimidir.
Çalınar, oxunar, baxılar,
Yetişər sona.
Nə yazmısan, nə çəkmisən,
Kim olmusan, indii kimsən?!

Bütün bunları Allahın mələkləri hər insanın şəxsi dəftərinə yazır, axirət dünyasında «əməl dəftəri» ortaya qoyulur. Videolent kimi, səni olduğun krimi göstərir. Bununla da ömrün keçən günləri barədə Tanrı qarşısında imtahan verməli olursan.

«Şər dedilər» şeiri günlərimizin ən bağışlanmaz «xəstəliyini» açıb oxuculara çatdırır. İki dostun şər - böhtan danışması, haqlı olaraq şairin qəzəbinə səbəb olur:

Görüşdü iki dost,
Başladılar söhbətə.
Sözləri qurtaranda
Qurşanıb siyasətə
Keçdilər müxalifətə.
Girişdilər qeybətə,
Tüpürdülər vicdana...

Qəşəm Çıraqlının bu şeiri ikiüzlü, boş-boş ömür

keçirən, vicdanını, imanını satanlara sərrast güllədi. Gəlin açıq etiraf edək ki, hazırda əhalinin çox hissəsi belə həyat tərzi keçirir.

Bu şeiri oxuyanda «iki həpənd» əsəri düşdü yadıma. Maraqlısı burasındadır ki, indi siyasətdən başı çıxmayanlar, öz ailəsini idarə edə bilməyənlər heç bir təhsili olmayanlar siyasətdən dəm vurur. Hərədən bir söz oğurlayıb, onu yerli - yersiz danışan, «siyasət» ustaları baş alıb gedir.

Şair haqlı olaraq şeirin sonunda mədəni surətdə belələrinin «qeyrətinə» nifrətini bildirir:

Yalan dedilər.
Şər atdılar,
Şər dedilər,
Bu dövlətə,
Bu millətə.
«Əhsən», «bərəkallah»
Bu dostluğa, bu qeyrətə!..

Qəşəm Çıraqlının «Pul» adlı şeiri yaşadığımız zamanın ən ağrılı sahəsini tənqid edir. Rul-rüşvət adlı namərd atını minib, gecə -gündüz cövlan edir. Bütün mümkün olmayanları pul mümkün edir. Pul haqq-ədalət tanımır, pul qanun -qayda tanımır, pul qılıncdan kəsərlidi. Pul bütün insanlığı tapdalamaq qüdrətinə malikdi. Pul bütün bakirəlikləri çirkablandırmağa malikdi. Pulun qarşısında diz çökən məmurlar tanıyıram. Pul onlar üçün (Allah məni bağışlasın) Allahdır. Pula itaət edənlər tanıyıram. Pul bakirə qızları qocalara calamaq

gücünə malikdi. Pulun var bütün qapılar üzünə taybatay açıqdır. Pulun var vəzifən, kreslon da var. Pulun var baş da kəsə bilərsən. Pul bütün qanunlardan ucadadır. Amma... Amması odur ki, pul cəmiyyətin normal ritmini pozur, onun inkişafına Mane olur. İnsanlarda ümidsizlik yaradır. Dövləti hörmətdən salır. Yerlər -vəzifələr dəyişik düşür. Yararlı kadrlar - axı onlar cəmiyyətin qızıl fondudu, kənarda qalır, səriştəsi olmayan, küt kadrlar, zay kadrlar peyda olurlar. Onlar da cəmiyyətin inkişafına əngəl törədirlər. Adətən belə «kadrlar» iş görmək qabiliyyətinə malik olmadıqları üçün meyllərini rüşvətə salırlar. Çoxlu sərvət toplamağı qəhrəmanlıq hesab edirlər.

Görkəmli xalq şairi Rəsul Rza yazırdı:

Sən də məgər kişisən, kişi qoymusan adını,

Başqasının puluyla bəzəyirsən arvadını?!

Qanana, qeyrəti olana, əsl kişiyə daha bundan da zəhərli güllə olarmı?! Pulun at oynatdığı, rüşvətin baş alıb getdiyi yerdə təbii ki, insanlarda ümidlər özəliyir, ölür! Qəşəm Çıraqlı həmin şeirində deyir:

İşi pul görür, pul gördürür,
Tələ qurur, tor hördürür.
Ara vurur, ara düzəldir,
Aşna olur, aşnalıq edir.

Şairin bu kiçik şeiri haqqında saatlarla danışmaq

olar. Ona görə ki, burada reallıq var. Həm də bu mövzu həyatımızın döyünən ritmidi. Şairin daha bir şeirinə diqqət yetirək:

Dediyini de
Demə eşidən,
Dinləyən olmaz.
Sən dediyini de,
Yazdığını yaz,
Dediyin, yazdığın
Havada qalmaz.
Çəkinmə, utanma,
Utananın oğlu olmaz!

Doğrusu bu şeir yamanca xoşuma gəldi. Ona görə ki, burada bir şair qətiyyəti görürəm. Mübarizlik görürəm. Yaxşı insanlardan yazanda, mütləq naqislərdən də yazmaq zəruridir. Utanmaq, çəkinmək qələm sahibinə yad olmalıdır. Sən yazma, mən yazmayım, başqası da yazmasın! Bəs, qövr eləyən yaralarımız necə olsun?! Bəs, tülkülər, çaqqallar meydan sulayaraq, ağ qan qudurub qırmızı Qanı yeyirsə, qeyrətin nə olduğunu bilməyib qeyrətdən dəm vurursa, üstəlik də başqalarını alçaltmaqdan zövq alırsa belə tiplərdən niyə də yazmayasan?! Ataların gözəl bir misalı var: «Küçük qulağını kəsəndən qorxar!..»

Etiraf edirəm ki, Qəşəm Çıraqlının bu mübariz ruhlu şeirindən mən də ruhlandım. Buna görə şeirin müəllifinə var ol, sağ ol, deyimrəm!

Axı, inkişafımıza əngəl olan, əl ayağa dolaşan, işi peşəsi araq içib, şər danışan, böhtan yayan, yaxşılara ağız büzən, badalaq gələn, qara fikirli, qara niyyətli tiplərdən niyə də yazmayasan?!

Babılardan, yalançı və araqarışdıran qurumsaq mollalardan, bambılı Lülüşlərdən niyə yazmayasan?! Axı, onlar Ələkbər sabirin, Cəlil Mmmədquluzadənin əsl tənqid, ifşa obyektləridir. Onlar infeksiya daşıyıcılarıdır, müalicə olunmasa, təbii ki, xəstəlik daha da genişlənəcəkdir. Bələlərinin «müalicəsi» ifşa etməkdi. Onlara maral oxumaq absurtdu. Donuza nə qədər Quran oxusan yenə də darıdan çıxan deyil. (Atalar demiş). Bu yerdə haşiyə çıxmağa məcburam.

Ələkbər Sabir, Cəlil Məmmədquluzadə irsini yaşatmaq vacibdir. Yeri gələndə beş üç cümlənin müəllifi olaraq mən də alaqotlarını yamalayıram. Qoy, gələcək nəsil onları tanısın, əməllərinə görə lənət oxusunlar. Kiçik bir kənddə şayka bağlayanlara, çörək kəsənlərə, cibə girənlərə, başqalarını sındırmaq üçün Tanrının qəzəbinə düçar olacaq dərəcədə şər böhtan yayanlara necə güzəştə getmək olar?! Qəşəm Çıraqlı dediyi kimi «Mən dediyimi deyəcəm, yazdığımı yazacam, bunlar heç də havada qalmaz. Çəkinmədən, utanmadan! Yollarda işıq görünür!.. İşığa doğru!»

Əzizim Qəşəm Çıraqlı, yəqin ki, məndən inciməzsən. «Tanrı laqeyid olur» şeirinlə heç də razılaşmıfram. Düz buyurursan ki, qaçan da, qovan da Allahı çağırır. Sonra yazırsan ki, qaçanla qovan arasında Tanrı laqeyid olur!.. Əsla belə deyil! Heç vaxt Tanrı haqqı nahaq-

qa verməz. tarixin təcrübəsi, müqəddəs ilahi qanunları dönə dönə sübut etmişdir. Qovan həmişə cəzasını almışdı. Bu cəzanı Tanrı elə özü vermirmi?! (Bu kiçik iradıma görə üzr istəyirəm).

«Sərnişinlərik» şeirin məni duyğulandırdı. Bəli, bütün insanlar zaman adlı qatarda yol gedirik. Amma talelər müxtəlif, sonluqlar müəmmalıdır. Arzum budur ki, yaxşılar Tanrının qəzəbinə gəlməsinlər!

Qəşəm Çıraqlının «Bağışlamaram» şeirini oxuyan oxucu çox asanlıqla onun daxili aləminə bələd olur. İlk andaca hiss edirsən ki, o qəlbən çox kövrək, həssas və etiraf etməyi bacarır. Mənə elə gəlir ki, etiraf etmək qədər əxlaqi meyar yoxdur. Etiraf insanı saflaşdırır, onu durulaşdırır, ürəyi sakitləşdirir.

İnsan etiraf edirsə, demək intellekt sahibidir!
İnsan etiraf edirsə həyatda səhvə yol verməz!
İnsan etiraf edirsə onun yolu ucalığa doğrudur!
Yaşasın etiraf!

Şair yazır:

Əlimdən, dilimdən çıxan
Bu xətaya, səhvə görə
Sən məni bağışlasan da,
Mən özümü bağışlamaram.

Bəli, qəşəm Çıraqlının daxili zənginliyi budur. Şair yeri gəldikcə şeirin müxtəlif formalarından məharətlə

istifadə edir. Bu cəhətdən onun «Elmdə alimsən» satirik şeiri çox maraqlıdır:

Elmdə alimsən,
Elimdə nadan,
Dilimdə alimsən,
Dinimdə nadansan,
İt oynadansan,
At oynadırsan.

Alim rütbəsini bu qədər ucuzlaşması, sürətçıxarma yolu ilə alim olanların peyda olması elmə olan böyük xəyanətdir. Bu da haradasa Vətənə qarşı olan problem kimi qiymətləndirilməlidi. Bu yaxın günlərdə Azərbaycan Televiziyasında bir neçə (dörd, yaxud beş) «alimin», rus alimlərinin elmi əsərlərinin surətini çıxarıb alim olmaq arzusu ifşa olundu. Elmə bu qədər xəyanət olarmı?!

Sizin yaradıcılığınızın ən məhsuldar vaxtıdı. Yazmağa da, oxumağa da bol bol həvəsiniz və bol bol gücünüz var!

Eşq olsun Qəşəm Çıraqlı iradəsinə, onun mətinliyinə, onun həyatı sevməsinə, onun gücünə! Əgər səndə həvəs, güc varsa, demək oxucularında da bu keyfiyyətlər olacaqdır. Arzum budur ki, heç vaxt bədbinlik deyilən arzu olunmaz bəlanı özünə yaxın buraxmayasan!

Bu barədə şair nə gözəl deyib:

Bədbəxt o kəslərdi, qaraqabaqdı,
Nə gözəl yaraşır insana gülmək!

Əla!...

Qəşəm Çıraqlının şeir   poeziya dünyasına nəzər salarkən onun «Tarazlıqda yaşayırıq» əsərindən danışmamaq olmaz. Şəxsən mən bu şeiri fəlsəfi baxımdan qiymətləndirərdim. Onu deyim ki, dünyamızın özü başdan  başa tarazlıqlarla doludur.

Hamımızın ümumi dünyamızda istənilən qədər yaxşılar olduğu kimi, kifayət qədər də yamanlar var. Belə bir tarazlıqda özünə yer tapmaq heç də asan məsələ deyil.

Şair burada çox sərrast mövqe nümayiş etdirir.

Sevin ki, dünyada,
Sən də varsan, mən də varam.
Bir dam altda yaşayırıq,
Bir dam altda görüşürük,
Dərdi, qəmi bölüşürük.

Sevgi şeiri yazıb sevgiliyə bağışlamaq analoqu olmayan səadət deyilmi?! Bizi sevənlər də, sevməyənlər də olan bu tarazlıqlar şair üçün ən münbit mövqe deyilmi?!

Qəşəm müəllim yeri gələndə ikiüzlüləri, Vətən adından danışıb, amma Vətəni satanları ifşa etməsindən hiss olunur ki, o həm də üsyankar şairdi. Belələrinə söz silləsini çox sərrast vurmağı bacarır. Gecə  gündüz gedən kürsü davasını qamçılayan şair xəlvətdə vətəni güdaza verib, aşkarda ona qurban olanlara acı  acı gülür. Şairin açıq   saçıq üsyanı oxucuların məhəbbətinə səbəb olur.

Bu yerdə klassik satira  yumor bir daha yada düşür. Oxucu bir daha başa düşür ki, həmişə olduğu kimi indiki günlərimizdə də tənqid, hətta satira, yumor lazımdır. Bunsuz ədəbiyyat inkişaf edə bilməz. Digər tərəfdən cəmiyyətdə bəşəri duyğulara qarşı çıxanlar, xalqın hesabına sərvət toplayanlar, hətta lazım gələrsə sərvət xatirinə  Vətəni satanlar Ələkbər sabirin satirası ilə ifşa olunmalıdır.

«Kürsü davası» şeiri bu cəhətdən olduqca qiymətlidir.

Gedir gecə  gündüz kürsü davası,
Artır xalq adından alver edənlər.
Xəlvətdə vətəni güdaza verib,
Aşkarda vətənə «qurban» gedənlər.

Sülh arzulu şair Qəşəm Çıraqlı «Küt gedən günlərim» şeirində bəşəriyyət üçün ən ağır bəla olan müharibəyə öz nifrətini bildirir.

Hələ körpə vaxtı taleyinə 1941-1945 ci il müharibəsi düşən şair qorxulu uşaq illərini «Küt gedən günlərim» adlandırır. Həmin günləri anasının təndirə küt gedən kündəsinə bənzədir. Doğrusu bu bənzətmə olduqca real və yenidir. Oxucunu düşündürür və onda müharibəyə nifrət hissi yaradır.

Qızdırmaya, qızılcaya qalib gələn,
Dəmir əsəbli,
Tufan qəzəbli,
Hərbsiz,

Hədsiz,
Günlərim qaldı,
Günlərim qaldı,
Küt getməmiş.

Şair şeirin sonluğunu nikbin notlarla bitirir. Müharibə dövrünü kütgedən günlər adlandıran şair insanların dözümü ilə, mərdliyi ilə, qalib olması ilə fəxr edir. Həm də oxucunun qəlbinə sərin su səpir.

Qəşəm Çıraqlının yaradıcılığı çox şaxəlidi. Onun mövzuları müxtəlifdir. Həm Vətən, ana məhəbbətindən, müharibədən, həm daxili çəkişmələrdən, həm də məmur özbaşınalığından yazır.

Şair təbiət vurğunudur. Öz poeziyası ilə canlı təbiət tablosu yarada bilir. Digər tərəfdən onun incə yumoru da oxucu qəlbinə yol tapır.

Qəşəm Çıraqlı nədən yazır yazsın, bütün sahələr üzrə müvəffəqiyyət qazanır. Oxucunu düşündürə bilir. Daha doğrusu özünü poeziya vasitəsilə sevdirə bilir. Bu yolda şairə uğurlar arzulayıram!

***«Qızıl qələm» mükafatı laureatı,***
***Yazıçı dramaturq***
***Firudin Tərtəroğlu Borsunlu***
***2010-cu il***

# MÜNDƏRİCAT

İNAM NƏFƏSLİ ŞERLƏR ......6
**MƏN HAMIYA İNANIRAM**
**ŞEİRLƏR**
UŞAQ QAÇIRDI ......17
AZƏRBAYCAN ......18
VƏTƏN ......22
VƏTƏNƏ DƏYİR ......24
ŞƏHİD ŞƏHƏRİM – XOCALI (Ağı) ......26
AĞLAMA, ANAM, AĞLAMA ......28
MEYDAN SƏNİNDİ ......30
SƏBRİMIZ DƏ TUKƏNİR ......31
AZƏRBAYCANLILAR SƏBRLİ OLAQMI? ......33
KÖKÜMÜZ, KÖTÜYÜMÜZ ......35
SEVİN Kİ, VARSAN ......37
DƏYƏRMİ ......38
İNSAN ......39
BƏSLƏYİRƏM ......40
TANRI HƏR ŞEYİ BİLİR ......41
PAYIZDA ......42
QOCA ......43
YARIŞ MEYDANI ......45
BİR HİMƏ BƏNDƏM ......46
QONAQ OLDUQ ......47
QƏLƏM ......48
HƏDƏLƏDİ ......49
YANIRAM, A DAĞLAR ......50
HƏQIQƏTİN YOLU ......51
DUZ OLMUR ......52
DÜZ OLMUR NİYƏ ......53
ŞAİRLƏR ƏSİR ALINIR ......54
GÖRÜŞDÜK ......55
AĞIZ ƏYİRİK, DODAQ BÜZÜRÜK ......56
TƏZAD ......58

DURULUB DÜNYA ....................................................................................59
TÜRKÜN KÖLGƏSI ..................................................................................60
KOROĞLULAR YURDU ..........................................................................62
GÜNƏŞ KİMİ ...........................................................................................63
UZAQDAYAM...........................................................................................63
İLAHİ ........................................................................................................64
QOCALANDA ...........................................................................................64
SƏHVİMİZ - İNSANLIĞIMIZDIR ............................................................65
NƏNƏM NAĞIL DEYƏRDİ .....................................................................66
SÖZ TOPLAYIRAM ..................................................................................69
NOVRUZDA .............................................................................................69
YER - YERDƏ TANRIDIR .......................................................................70
MURAD QUŞU VARMIŞ SƏNİN ÖMRÜNDƏ ......................................71
İNSAN.......................................................................................................73
BİR ÜZLÜ HƏQİQƏT...............................................................................74
HAMI İNSAN DOĞULUR.........................................................................76
HÖRÜMÇƏK TORUNA DUŞƏN VƏTƏN.................................................77
MƏN HAMIYA İNANIRAM......................................................................79
ORA HARADIR.........................................................................................80
GEDİRƏM .................................................................................................81
ÜRƏYİM ...................................................................................................81
KİŞİYƏM DEYİR.......................................................................................82
SƏN DEDİYİN ..........................................................................................82
BUZ HEYKƏLLƏR ...................................................................................83
SƏS GƏLDİ ..............................................................................................85
MUŞTULUQ DÜŞÜR ...............................................................................86
ÜMİDLİ YALAN........................................................................................87
KƏNDİMİZİN ŞƏHİDLƏRİNƏ ................................................................88
GÜZGÜ KİMİDİR.......................................................................................88
MUSA YAQUB TƏZƏ ŞAİRDİR ..............................................................89
NƏ YAXŞI..................................................................................................89
KEÇMƏK OLMAZ......................................................................................90
"Ədəbiyyat qəzeti"nin Baş redaktoru
Çox hörmətli AYAZ müəllim! ..................................................................91
İSLAM ÇİYİNLƏRİM,TÜRK ÇİYİNLƏRİM ..............................................92
QƏLƏMDƏN QORXURAM .....................................................................93

İFADƏLİ BEYTLƏR....94
ƏN UZUN YOL....94
GÖYƏRƏRSƏN KƏNDLİ QARDAŞ....95
QORXURAM....96
İSA BULAĞI....97
KEFİMLƏ SOHBƏT....98
BAHARDA....99
BÜRÜNÜR....100
YAĞIŞLI GECƏLƏR....101
SİZƏ QALDI....102
ƏZİZLƏMİŞƏM....103
ÇOBAN....104
ATA OLDUM....105
DÜZƏLDƏ BİLMİR....105
NƏŞRİYYATDA....106
İZHARİ-HAL....108
BABƏKLƏR, SUMBATLAR....109
GÖZLƏ Kİ.......110
ƏSİR DÜŞÜB GEDƏRDİ....110
YORULUR....111
BİZ NİYƏ BELƏYİK....111
YÜZ ÖLÇƏK.......112
SƏNİ TANIDIM....113
MASAM ŞEİR BİTIRƏR....114
ƏL-AMANDAYIQ....115
DƏRDİN ƏLACI – SƏBRDİ....115
SƏS GƏLİR....116
QORXURAM....117
QALARSAN....117
TƏK OLMURAM....118
QAR - GÖZƏLLƏŞDİRİR....119
ŞEİR DEYİRƏM....119
MƏHƏBBƏTDƏN DƏLİYƏM....120
SOYUQLUQ....121
İNSAN DİLİNDƏ....122
TALE....123

ALQIŞ ....................................................123
GÜNƏŞ KİMİSƏN ....................................................124
KEÇİRDİM ....................................................125
DEYİRSƏN ....................................................126
NOVELLA ....................................................127
İT QURSAĞI YAĞ GÖTÜRMƏZ ....................................................128
NİŞANLAMA ....................................................129
BİLƏRSƏN ....................................................130
NƏHƏNG DÜNYA ....................................................131
YEMİŞ, GÖRMÜŞ ADAM ....................................................131
XOŞBƏXT OLARDIN ....................................................132
SEVDIM BALAM KİMİ ....................................................133
ƏLƏ DÜŞMƏYİR ....................................................134
ŞEİR DEYİLMİ ....................................................134
GƏTİRDİM ....................................................134
HEÇ-HEÇƏ ....................................................135
MƏNİ QORUYURSAN ....................................................135
BÖYUK DƏRD ....................................................136
TALE ....................................................137
AFORIZMLƏR ....................................................137
QUYU ....................................................138
SÜLEYMAN RÜSTƏM ....................................................140
QAÇQIN MONOLOQU ....................................................141
UZUN SÖZÜN QISASI ....................................................142
TƏRS UŞAQ ....................................................143
POZULDU ALIN YAZILARI ....................................................144
HƏYAT ÖZ VÜQARINDIR ....................................................145
İLLƏR KEÇİR ....................................................145
GƏLƏNDƏ ....................................................146
HƏCCƏ GETMİŞ OLARSAN ....................................................146
BU GİZLİ SEVGİLƏR ....................................................148
BİR ÇİÇƏK BİTDİ ....................................................149
QANADLI DAĞLAR ....................................................150
ƏLLİ YAŞ ....................................................151
SON YARPAQ ....................................................151
"GÜMÜŞÜ DAMLA" KİTABININ MÜƏLLİFİNƏ ....................................................152

DEYİLƏM....153
QEYRƏT....153
QAÇIB....154
MƏNA dedi....155
İNANMIRIQ....156
KÜLƏK....157
ŞİMŞƏK....158
HAŞİYƏ....159
HƏYATI HADİSƏLƏR....159
TÜRKÜN TALEYİ....160
NİFRƏT ƏKDİM GÖYƏRDİ....160
BAYATI....160
GİPNOZ OLMUŞLAR....161
PLAN DUNYASI....163
ODLAR YURDU....167
QARABAĞA YÜRÜŞ MARŞI....168
**ÖMRÜMÜN İŞIĞI**
ŞƏHİD ŞƏHƏRİM....170
GEDİRƏM DAHA....171
YOXSA MƏNİ TANİMADİN....172
BAŞ, DİL, ÜRƏK NAĞILI....175
NƏ ALVERIM VAR....176
DEMOKRATİYA NƏDİR....177
SEVGİ QANUNU (İ.NYUTON)....178
QAÇQIN E'TİRAFI....179
SƏN ÇAĞİR....180
UŞAQLAR TEZ BÖYÜYÜR....181
TOYU OLAN QIZA ALQIŞ....182
DUALARIMIZ....183
OXUCUYA....184
VAXT AYIRMAYAQ....185
PAPAQ TAPAQ....186
SIFRA BƏRABƏR....187
BOYLANA-BOYLANA....188
DOSTLARA....189
YAXŞILIQ ELƏ....190

OLSA ....................................................................................192
RƏNGLƏR..............................................................................193
ƏLİM, QƏLƏMİM...................................................................194
E'DAM OLURAM ...................................................................195
QORDİ DÜYÜNÜ ...................................................................196
YERİN, GÖYÜN YATAĞI.........................................................197
MƏNİM VƏKİLİM ..................................................................198
QATIQ QARADIR ..................................................................199
DÜNYANIN O ÜZÜ, BU ÜZÜ ...................................................200
ŞEİR OLMAZ ........................................................................203
BİLMIRİK ..............................................................................204
GƏLƏNDƏ.............................................................................206
GECƏ YUXULARINDA ............................................................207
BAHARDA .............................................................................208
ROK ŞOU .............................................................................209
RƏSÜL RZA ZİRVƏSİ .............................................................210
BAXA BİLMİRƏM ...................................................................211
UTANDI GECƏ.......................................................................213
YAŞADAQ .............................................................................214
ALLAHA YALVARIRIQ ............................................................215
BƏLƏDÇİ ..............................................................................216
YAŞAYIR İNSAN .....................................................................217
İŞLƏNDİKCƏ ÇOXALAR ..........................................................218
MƏNƏ İŞIQ GÖSTƏRİN ..........................................................219
NİKBİN MƏCLİS ....................................................................220
XATİRƏLƏR ..........................................................................221
TƏNBƏLİN ARZUSU ..............................................................221
SÖZ ALIRAM .........................................................................222
PAY DÜŞƏR...........................................................................223
ƏRLƏ ARVAD ........................................................................224
VAXT ÖLDÜRƏNLƏR...............................................................225
DƏVƏDƏN SARBANA GİLEY ...................................................226
GÖZLƏYİRİK..........................................................................227
BU ŞƏHƏRDƏN GEDİM ..........................................................228
BƏZƏN BELƏ DƏ OLUR ..........................................................229
BAKIDA ZƏLZƏLƏ ..................................................................230

QÖYLƏRİ SEVƏCƏK BU QIZ ........................................................232
AĞACLARIN TANRISI ................................................................234
DESƏN DƏ YAZA BİLMƏRƏM....................................................235
ÖYRƏTDİLƏR.............................................................................236
ŞEİR TALEYİ...............................................................................237
MƏN ŞEİR YAZMIRAM...............................................................239
YAŞIM, AD GÜNÜM ...................................................................240
SƏBRİM SAXLAYIR.....................................................................242
MƏN SİZİNLƏYƏM – OXUCULAR ...........................................243
KÖRPƏ .......................................................................................244
SEVGİ GÖYƏRƏR.......................................................................245
ARI .............................................................................................246
AY CAN, AY CAN ........................................................................247
SÖZ DEDİM ...............................................................................249
LƏ'NƏT ŞEYTANA DE.................................................................250
YAVƏRİN SÜRÜCÜSÜ ................................................................251
BORC ALDIQ...............................................................................252
BİR GÜN.....................................................................................253
BOYNUMA GÖTÜRDÜM ...........................................................254
BAHAR GƏLƏNDƏ.....................................................................255
QƏZƏBLƏNMƏK İSTƏMİRƏM ....................................................256
50 YAŞDAN O YANA .................................................................257
ÇEÇEN OLMAQ İSTƏYİRƏM.......................................................258
YUXUM ŞİRİN OLUR...................................................................259
BOŞLUQ VAR İDİ .......................................................................260
ONA SİZ DEMƏDİM....................................................................261
KASIB "KEFDƏDİR".....................................................................262
QORXURAM ..............................................................................263
9 MAY GÜNÜ .............................................................................264
QORU NAMUSUNU, GÖZƏLLİYİNİ ...........................................266
TÜKƏNMƏZƏM...........................................................................267
SORUŞURSAN ...........................................................................268
QAR YAĞIR.................................................................................269
PARFENON ABİDƏSİ .................................................................270
HEÇ NƏYİK TƏKLİKDƏ ..............................................................271
İSTEDAD ....................................................................................272

AÇILMAMIŞ SƏHİFƏSƏN ....273
ETİRAF ....274
SAXLASIN ....275
TELMAN RUS KƏNDİNDƏ ....276
KUKLAMI DA APARIM ....277
SƏNİN ....278
AL SAZI, ÇAL SAZI ....279
QOŞALIQ ....280
QARĞA ....281
YARAŞMIR ....283
DE MƏNƏ ....284
BUMERANQ ....285
BƏHLUL SÖZ SATIRDI ....286
İNSAN ....287
BƏD GƏLİN ....288
ƏCLAF ŞEYİMİŞ İQTİSADİYYAT ....289
ÇİÇƏKLƏYİRİK ....290
OLMAZ ....291
BU QIZ ....292
ALLAH ƏTƏYİ ....293
QOCALIQ ....294
ADSIZ ÜNVANLAR ....295
TANRIYA QALAR ....296
ATA GÜNAHI ....297
QONŞULUQ ....297
SÖZ BARI ....298
ÖRTÜLÜ QALAN QAPILAR ....299
MİSRALARIN ....300
ÖYRƏNƏR ....300
CIRMA, YANDIR ....301
SAVAŞIN VAR ....302
BÜLBÜL ÖTÜR ....303
İTİRDİN ....304
NAĞIL DANIŞMA ....305
ŞİKƏST OLMASIN ....306
OLA BİLMƏZ ....307

LƏSİ DƏ OLUR....................307
YERSİZ SOZ....................308
GETMƏYƏK....................309
SƏN VƏ MƏN....................310
BƏZƏN....................311
ŞEİR ALINIR....................312
BİZ ŞAIRLƏR....................313
ŞAİR SƏRKƏRDƏLƏR....................314
SOSİALİZMDƏ....................315
ARZU....................316
YAZDIQLARIM....................317
YAŞAYIM....................318
BU ADAMIN....................319
NİYƏ AĞARDIN SƏN....................320
ZİRVƏDƏN ƏZƏMƏTLİ....................321
DƏRD ƏLİNDƏN....................322
SEVİRƏM....................323
GÖNDƏRİN....................324
LENİNƏ....................325
MƏQAMDAYAM....................329
GƏNCƏ KÜLƏKLƏRİ....................330
OLANI YOX....................331
VURĞUN APARDI....................332
SENTYABRDA....................333
QAÇA BİLMİRƏM....................334
ÜZƏ VURMADI....................335
MƏN SƏNİ BELƏ GÖRÜRƏM....................336
XOCALI HARAYI....................338
EPİLOQ....................354
DUEL....................355
NOVRUZ SƏHNƏCİYİ (Uşaqlar üçün)....................363
MƏN HAMIYA İNANIRAM....................374
ŞEİR DÜNYASINA ELÇİYƏM....................377
ŞƏRƏFLİ ÖMÜR....................381
TANINMIŞ ŞAİR QƏŞƏM ÇIRAQLININ
POEZİYA DÜNYASI....................381

Qəhrəmanov Qəşəm Cavad oğlu


**NƏŞRİYYATIN YARADICISI**
**QOŞQAR İSMAYILOĞLU**

NƏŞRİYYAT DİREKTORU
*Alpay Paşa,*
TEXNİKİ REDAKTORU
*Ellada Səfərəliyeva,*
KORREKTORLAR
*Fəridə Ələsgərli,*
OPERATORLAR
*Rəna Əzizova,*
ÇAPA MƏSUL
*Cəlil Quliyev.*

Yığılmağa verilmiş 28.02.2011,
çapa imzalanmış 14.03.2011,
formatı 60x84 1/16,
fiziki ç.v 25,75 tayms qarnituru,
sifariş K-55. Sayı 500
Kitab
**"İDEAL-PRİNT"**
nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap olunmuşdur.

** AZ 1025. Bakı şəhəri, Xocalı pr., 24.*
*T/F.: 4989555, 342-67-67*
www.ideal-print.az